Xalqın qəzeti!
# Xalq qəzeti
№ 21 (30425) 1 fevral 2024-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

## AŞPA Fransanın diqtəsi ilə qərarlar çıxarır



Səhifə ⇨ 5

## Sərhəddə görüş: problemlər irəliləyişə mane olur



**Yanvarın 31-də Azərbaycan–Ermənistan dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyasının iclası keçirilib. Görüş şərti sərhədin Azərbaycanın Qazax rayonu və Ermənistanın Tavuş vilayəti hissəsində baş tutub.**

Qeyd edək ki, budəfəki görüş sayca altıncı idi. İlk iki görüş şərti sərhəddə (Arazdəyən kəndi və Qazax rayonu), ikisi xaricdə (Moskva və Brüssel), sonuncu görüş isə 2023-cü il noyabrın 30-da indiki formatda, yeni şərti sərhədin Qazax–Tavuş hissəsində keçirilmişdi.

*(ardı 4-cü səhifədə)*

## Hər kəs səsverməni maneəsiz və fasiləsiz müşahidə edə biləcək



Səhifə ⇨ 2

## Strateji valyuta ehtiyatlarımız 66,5 milyard dollara çatıb




Səhifə ⇨ 7

## Türkiyə və Yaxın Şərq




Səhifə ⇨ 11

## 22 ölkənin 49 qurumu Ermənistanı ətraf mühiti qorumağa çağırır



Səhifə ⇨ 2

# İran və Cənubi Qafqaz dövlətlərinin Qərb direnişi

*Seyid Kamal Xərrazinin İrəvana səfərinin diqqətçəkən məqamları*






**İran İslam Respublikası Cənubi Qafqaz regionundakı bütün ölkələrin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir və heç bir şəraitdə coğrafi sərhədlərin dəyişdirilməsini qəbul etmir. Bunu Ermənistanda səfərdə olan İranın Ali Dini Rəhbərinin müşaviri, ölkənin Xarici Əlaqələr üzrə Strateji Şurasının sədri Seyid Kamal Xərrazi deyib. İslam respublikasının İrəvandakı səfirliyinin mətbuat xidmətinin məlumatına görə, K.Xərrazi qeyd edib ki, ölkəsi Ermənistanla tarixi və dostluq əlaqələrini genişləndirməkdə qərarlıdır, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat marşrutlarını birləşdirən qovşaq kimi ondan istifadəyə hazırdır.**

K.Xərrazi Tehranın regionun inkişafına və tərəqqisinə xidmət naminə Ermənistanın iqtisadi və elmi potensialından bəhrələnməyi vacib saydığını dilə gətirib. Əlbəttə, İranın yüksək rənglı rəsmisi başqa məqamlara da toxunub ki, bu barədə söz açacağıq. Ancaq, ilk növbədə, onu vurğulayaq ki, cənab Xərrazinin İranın Şimal-Cənub və Şərq-Qərb nəqliyyat marşrutlarını birləşdirən qovşaq kimi Ermənistandan istifadəyə hazır olduğuna dair fikirləri ikincinin hakimiyyət orqanları tərəfindən ortaya atılmış "Dünya kəsişməsi", yaxud "Dünyanın kəsişməsi" layihəsinə dəstək kimi qiymətləndirilməkdədir. Hər halda, İrəvandakı siyasilər məsələyə mövcud kontekstdən yanaşırlar. Nəzərə alaq ki, "Dünyanın kəsişməsi" 2020-ci ilin 44 günlük müharibəsindən sonra Azərbaycanın siyasi leksikona daxil etdiyi "Zəngəzur dəhlizi" ideyasına zidd təşəbbüsdür.

*(ardı 3-cü səhifədə)*

# Ermənistanın "mina manipulyasiyası"

*Şantaj, məkr və sülh prosesindən yayınma cəhdləri*




**Ermənistan Milli Təhlükəsizlik Xidməti (MTX) məlumat yayıb ki, Qarabağdan çıxmış hərbçilər arasında sorğu aparılıb və minalanmış ərazilərin xəritələri aşkarlanıb. Məlumatda o da bildirilib ki, Ermənistanın dövlət qurumları əlavə xəritələr tərtib etmirlər, minaların yerini sorğular nəticəsində hərbçilərdən alırlar.**

Hər halda, bu iki cümlənin nə qədər məkrli səsləndiyinin fərqinə vardınız. Deməli, rəsmi İrəvan xəritələri məsələsindən siyasi alət kimi istifadəni davam etdirmək əzmindədir. Bəli, məhz davam etdirmək. Çünki, belə bir məkrli xəttin start götürdüyünün anonsu Ermənistan MTX-nin açıqlamasından əvvəl verilib. Anonsu kim verib, bu barədə də söz açacağıq.

*(ardı 3-cü səhifədə)*

## Çinlə ticarət müharibəsi Aİ-yə sərf edərmi?

Səhifə ⇨ 11

# Azərbaycan–İİB əməkdaşlığının miqyası və hədəfləri genişlənir

**Birlik dövlətləri ölkəmizə 1 milyard dollardan çox vəsait yatırıb**



**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki paylaşımında İslam İnkişaf Bankının (İİB) prezidenti Məhəmməd Süleyman Əl-Casir ilə videokonfrans formatında keçirilən görüşdə rəhbərlik etdiyi nazirliklə bu maliyyə qurumu arasında əməkdaşlıq çərçivəsinin hazırlanmasına dair Anlaşma Memorandumunun imzalandığını bildirib.**

Nazir daha sonra sənədin icrasının tərəflər arasında əməkdaşlığın genişlənməsinə və ölkəmizin sosial-iqtisadi inkişaf hədəfləri istiqamətində birgə fəaliyyətin gücləndirilməsinə töhfə verəcəyinə əminliyini, həmçinin görüşdə Azərbaycanın evsahibliyi edəcəyi COP29 tədbirinin gündəliyində yer alan məsələlər ətrafında fikir mübadiləsi aparıldığını diqqətə çatdırıb.

*(ardı 7-ci səhifədə)*

# Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin və “Azərsığorta” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanının ləğv edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti ləğv edilsin.

**2.** “Azərsığorta” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 740 (Cild I) ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan İnvestisiya Holdinqi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 31 yanvar 2024-cü il**

# Hər kəs səsverməni maneəsiz və fasiləsiz müşahidə edə biləcək





**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev prezident seçkiləri ilə əlaqədar yanvarın 31-də komissiyanın inzibati binasında yerləşən veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçiriblər.**

Tədbirdə bildirilib ki, prezident seçkilərinin yüksək səviyyədə hazırlanıb keçirilməsi üçün lazımi addımlar atılıb, seçki prosesinin iştirakçılarına hərtərəfli şərait və geniş imkanlar yaradılıb. Çoxsaylı yerli və beynəlxalq müşahidəçilər, media mənsubları, müxtəlif aşkarlıq institutları seçki kampaniyasında heç bir maneə olmadan, azad və sərbəst şəkildə iştirak edə bilirlər. Seçkilərdə bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərinin effektiv tətbiq olunması səsvermə günü seçki məntəqələrindəki prosesləri əvvəldən axıradək fasiləsiz izləməyi, arasıkəsilmədən, dolğun və əhatəli müşahidə aparmağı və beləliklə, şəffaflığı tam təmin edir.

İşğaldan azad edilmiş regionlar da daxil olmaqla, hər bir bölgədə keçirilən prezident seçkilərində şəffaflığın yüksək səviyyədə təmin edilməsinə xüsusi diqqət yetirilib. Hazırda bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb.

Sözügedən veb-kameralar istər ölkə daxilində, istərsə də xaricdəki internet istifadəçilərinə səsvermə günü Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb edilmədən seçki məntəqəsindəki bütün prosesləri - səsverməni, səslərin sayılmasını və nəticələrin müəyyənləşdirilməsini fasiləsiz müşahidə imkanı yaradacaq.

**XQ**

# Kəmaləddin Heydərovun rusiyalı həmkarı ilə görüşü

**Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə naziri general-leytenant Aleksandr Kurenkovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Kəmaləddin Heydərov ölkəmizdə fövqəladə halların idarə olunması sahəsində görülən işlərdən danışıb, iki nazirlik arasında fövqəladə hallarla mübarizə üzrə mövcud sıx əməkdaşlıq münasibətlərinin daim genişləndiyini vurğulayıb. Bu çərçivədə, Beynəlxalq Mülki Müdafiə Təşkilatının xətti ilə Azərbaycan FHN-in Akademiyasına xüsusi trenajor komplekslərinin, o cümlədən bir sıra təlim-məşq avadanlıqları və laborator cihazların verilməsini məmnunluqla qeyd edib, göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

General-leytenant Aleksandr Kurenkov iki nazirlik arasında münasibətlərin genişlənməsindən məmnunluq ifadə edib, müxtəlif istiqamətlər üzrə əməkdaşlığın daha da dərinləşməsinin qarşılıqlı faydasından danışıb.

Nazir A.Kurenkov, həmçinin Rusiya ərazisində müxtəlif vaxtlarda baş vermiş fövqəladə hadisələr zamanı göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

Yekunda “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi arasında 2024-2026-cı illər üçün birgə Fəaliyyət Planı”nın imzalanması mərasimi keçirilib.

**XQ**

# Ədliyyə Nazirliyində kollegiya iclası



**Yanvarın 31-də ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə ötən ildə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan geniş kollegiya iclası keçirilib.**

İclasda ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı görülən tədbirlər ətraflı təhlil olunaraq məlumat verilib ki, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılaraq 19 mindən çox vətəndaş nazirlikdə, bölgələrdə, habelə virtual qaydada qəbul edilib, qaldırılan məsələlərlə bağlı zəruri tədbirlər görülüb.

2023-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, qanunların qəbul olunduğu vurğulanaraq nazirlik tərəfindən 5700-dək hüquqi akt layihəsinin hazırlandığı və ya ekspertizadan keçirildiyi, bu zaman sui-istifadəyə, hüquqi qeyri-müəyyənliyə yol verilməməsi, habelə insan hüquqlarının təminatı, digər qanunvericilik aktlarına və beynəlxalq hüquqi sənədlərə uyğunluğu məsələlərinə xüsusilə diqqət yetirildiyi bildirilib. Qeyd olunub ki, 3000-dən çox sənəd Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilib, milli qanunvericiliyin e-qanun.az vahid elektron resursundan bəhrələnənlərin sayı 50 faiz artaraq 5 milyona çatıb.

İclasda 5,2 milyon notariat hərəkətinin, 290 min vətəndaşlıq vəziyyəti aktının rəsmiləşdirildiyi bildirilib. Nikahların sayı 54 mini, doğum halları 113 mini ötüb. Notariuslar tərəfindən aparılan əməliyyatlar nəticəsində, o cümlədən bununla bağlı tutulan vergi üzrə ümumilikdə 75 milyona yaxın vəsait dövlət büdcəsinə köçürülüb.

Nazirliyin əhaliyə təqdim etdiyi elektron və mobil xidmətlərin tətbiqi genişləndirilib, il ərzində e-xidmətlərdən ümumi istifadə sayı 3 milyona, “Mobil notariat” istifadəçilərinin sayı isə 2 dəfə artaraq 900 minə çatıb.

Eyni zamanda nazirliyin innovativ məhsulu olan “ƏNTEZ” (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) xidmət platformasının vətəndaşlara eyni vaxtda müxtəlif ədliyyə xidmətlərinin göstərilməsində əhəmiyyəti qeyd olunub.

Kollegiyada məhkəmə qərarlarının icrası işinin səmərəliliyinin artırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı görülən işlərdən danışılıb, həyata keçirilən tədbirlər nəticəsində 2023-cü ildə icrası təmin edilən işlərin sayının 10 faizdən çox artaraq 570 minə yaxın sənədin icrasının təmin edildiyi qeyd olunub.

Azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası diqqətdə saxlanılaraq hazırda 5200-dən artıq məhkuma elektron nəzarət vasitəsi tətbiq edildiyi bildirilib, dövlətimizin humanist siyasətinin təzahürü olaraq ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə imzalanmış müstəqillik tariximizin ən böyük əfv aktı ilə 801 məhkumun azadlıqdan məhrum etmə və digər cəzalardan azad edildiyi vurğulanıb.

Bundan əlavə, nazirliyin beynəlxalq hüquqi əməkdaşlığına toxunularaq ötən il hüquqi yardım, ekstradisiya və digər məsələlərlə bağlı 24 mindən artıq sorğunun icrasının təmin edildiyi diqqətə çatdırılıb.

Görülmüş işlərlə yanaşı, qarşıda duran vəzifələr müzakirə edilib, insanlara qayğılı münasibət göstərilməsi, vətəndaş məmnunluğunun yüksəldilməsi, şəffaflığın artırılması, nizam-intizama, etik davranış qaydalarına dönmədən riayət olunması ilə bağlı və digər konkret tapşırıqlar verilib.

**XQ**

# Əli Əsədov Türkiyənin milli təhsil naziri ilə görüşüb



**Yanvarın 31-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekin ilə görüşüb.**

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

Təhsil sahəsinin Azərbaycan–Türkiyə əlaqələrinin vacib istiqaməti olduğu vurğulanıb, bu sahədə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

**XQ**

# Parlamentlərarası İttifaqın Baş katibi Milli Məclisdə

**Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 31-də ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq ilə görüşüb. Bu səfərin Baş katibin Azərbaycana ikinci səfəri olduğunu bildirən spiker beynəlxalq tədbirlər çərçivəsində Parlamentlərarası İttifaqın Baş katibi və prezidenti ilə müxtəlif görüşlərini xatırladıb, tərəflər arasında fəal dialoqun münasibətləri inkişaf etdirmək niyyətinin göstəricisi olduğunu diqqətə çatdırıb.**



Azərbaycanın bu təşkilatla əməkdaşlığa mühüm əhəmiyyət verdiyi qeyd olunaraq bildirilib ki, qısa müddət ərzində ölkə parlamentinin beş üzvünün təşkilatın bir sıra komitələrinin bürolarına və forumlarının idarə heyətinə üzv seçilməsi də bunu sübut edir. S. Qafarova Parlamentlərarası İttifaqın bütün ölkələrin rəylərinin əks olunduğu əsl dialoq platforması olduğunu qeyd edərək, təəssüflə vurğulayıb ki, bəzi beynəlxalq təşkilatlarda bu cür obyektiv münasibət və müsbət əməkdaşlıq mühiti yoxdur. O, bu mənada Avropa Şurası Parlament Assambleyasının ikili standartlara söykənən fəaliyyətini tənqid edib.

Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq yenidən ölkəmizdə olmaqdan məmnunluğunu bildirərək, təşkilatla ölkəmiz arasında əməkdaşlığı təqdir edib. O, Baş katib kimi məqsədinin təşkilatda hər bir dövlətin səsinin eşidilməsi olduğunu qeyd edərək, Parlamentlərarası İttifaqın hansısa ölkələrin, qrupların maraqlarını əks etdirən klub olmasını istəmədiyini söyləyib.

Söhbətdə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Parlamentlərarası İttifaq arasında əməkdaşlığı daha da dərinləşdirmək niyyəti ifadə olunub.

Baş katib Martin Çunqonq da deyib ki, Qoşulmama Hərəkatı əvvəllər fəal olmayıb. Lakin Azərbaycanın təşkilata sədrliyi sayəsində hərəkatın fəallığı və beynəlxalq münasibətlər sistemində mövqeyi güclənib.

Görüşdə İqlim dəyişmələri üzrə mümkün əməkdaşlıq imkanları müzakirə olunub. Martin Çunqonq COP29-un 2024-cü ildə ölkəmizdə keçirilməsi ilə bağlı təbriklərini çatdırıb və Azərbaycanın bu tədbirə uğurla evsahibliyi edəcəyinə inamını ifadə edib.

Ermənistanın müstəqil ölkə olmadığını deyən spikerin sözlərinə görə, bəzi Avropa dövlətləri Cənubi Qafqaz regionunda sülhün təmin olunmasını istəmirlər. Bu ölkələrdən biri də Fransadır. Fransa neokolonializm siyasətini bu regiona da daşımaq istəyir.

**Ə.BƏDƏLOV**
**XQ**

# Sərhəd delimitasiyası üzrə komissiyanın 6-cı görüşü

**Yanvarın 31-də Azərbaycan ilə Ermənistan arasında sərhəddə iki ölkənin Baş nazirlərinin müavinləri Şahin Mustafayev və Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və dövlət sərhədinin delimitasiyası, sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın altıncı görüşü keçirilib.**

Bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb.

**XQ**

# 22 ölkənin 49 qurumu Ermənistanı ətraf mühiti qorumağa çağırır

**22 ölkədən 49 qeyri-hökumət təşkilatı və ekofəal Ermənistanın dağ-mədən sənayesində beynəlxalq ekoloji norma və standartları pozaraq həyata keçirilən işlərin dünyanın ekosistemini pozmasına dair bəyanat yayıb. Cənubi Qafqaz regionu üçün ekoloji ədalət tələb edən sənəddə bildirilir:**

“Biz, xarici ölkələrin vətəndaş cəmiyyəti təşkilatları və fəalları Ermənistan Respublikasının dağ-mədən sənayesində beynəlxalq ekoloji norma və standartları pozaraq həyata keçirilən işlərin ekologiyaya vurduğu ciddi ziyanla bağlı dərin narahatlığımızı bildiririk. Bu ölkədə hava və suyun çirklənməsi vaxtilə lokal xarakterli olsa da, artıq onun fəsadları təkcə Cənubi Qafqaz üçün deyil, bütün dünya üçün ciddi təhdidə çevrilib. Ermənistanın mədən sənayesi transsərhəd çayları çirkləndirməklə Şərqi Avropadan Mərkəzi Asiyaya qədər geniş coğrafiyada bir sıra ekoloji problemlərə səbəb olmaqda davam edir”.

Bəyanatın davamında qeyd edilir ki, qlobal ictimaiyyətin BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün səfərbər olduğu, ekoloji problemlərin həlli üçün səylərini gücləndirdiyi bir vaxtda Ermənistanın bu hərəkətləri Transsərhəd Çaylar Konvensiyası və BMT-nin Avropa İqtisadi Komissiyasının Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasının (Espoo Konvensiyası) tələblərini ciddi şəkildə pozur: “Yaxın zamanda BMT-in İqlim Dəyişikliyi üzrə Tərəflər Konfransı - COP29-un Cənubi Qafqaz regionunda, Azərbaycanda keçiriləcəyini nəzərə alaraq, Ermənistan da ətraf mühitə ziyan vuran əməllərdən çəkinməli, bununla da beynəlxalq konvensiyalardan irəli gələn öz öhdəliklərini yerinə yetirməlidir”.

Bəyanatda Ermənistanın müvafiq beynəlxalq razılaşmalara qoşulmaqla qlobal miqyasda iqlim dəyişmələri ilə mübarizə aparmaq və planetin qorunmasında qaydalara riayət etmək öhdəliyi xatırladılaraq deyilir: “Biz, Ermənistan hökumətini və Ermənistanın dağ-mədən sənayesi müəssisələrinin məxsus olduğu özəl şirkətləri həmin müəssisələrdə təftiş, qiymətləndirmə və monitorinq işləri aparmaq üçün ekologiya və sağlamlıq sahəsində ixtisaslaşmış beynəlxalq ekspertlərə, o cümlədən qonşu ölkələrdən olan ixtisaslaşmış QHT-lərə şərait yaratmağa çağırırıq”.

**XQ**

# İran və Cənubi Qafqaz dövlətlərinin Qərb dirənişi

(əvvəli 1-ci səhifədə)

O da məlumdur ki, "Zəngəzur dəhlizi" ideyası Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yol kontekstindədir. Ölkəmiz məsələnin "Azərbaycandan – Azərbaycana yol" məntiqini əsas götürərək, həmin istiqamətdə hansısa gömrük və sərhəd nəzarətinin olmamasının vacibliyi üzərində dayanır. İrəvan isə buna razı deyil. Baxmayaraq ki, Bakı Ermənistanın ərazi bütövlüyünü və suverenliyini şübhələndirmək niyyətindən uzaqlığını dəfələrlə vurğulayıb. Bəs qarşı tərəf ölkəmizin mövcud xüsusdakı fikirlərinə hansı səbəbdən əhəmiyyət vermir? Hesab edirik ki, suala cavab İran üçün də əhəmiyyətlidir və məsələyə yazının sonunda qayıdacağıq.

Hələlik isə onu deyək ki, Ermənistanın hakimiyyət nümayəndələri Naxçıvana yol xüsusunda Azərbaycan Prezidenti İlham Əliyevin, o cümlədən, rəsmilərimizin səsləndirdikləri fikirləri qəsd kimi qiymətləndirirlər və ölkələrinin ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı məntiqini qabardırlar. Vurğuladığımız kimi, cənab Xərrazi də İrəvandakı açıqlamasında eyni məqama toxunur. İlk baxışdan, Tehranın ifadə tərzi ilə İrəvanın və Qərbin ermənipərəst dairələrinin mövqeləri üst-üstə düşür. Amma ilk baxışdan.

İran Qərbin timsalında regionda kənar oyunçuların görünməsini istəmir. Həmin oyunçuları cəlb edən İrəvandır. Hər halda, İslam respublikasında bu məqam nəzərə alınmamış deyil. Sual yaranır: ola bilərmi ki, Xərrazi İrəvana məsələnin yolverilməzliyini bildirmək üçün yollanmışdı? Çünki İran rəsmisinin Ermənistandakı bəyanatları xüsusunda üzərində dayandığı iki məqam sərhədlərin dəyişməsinin yolverilməzliyidirsə, ikinci xüsus "region region ölkələri üçündür" deyimidir. Nəzərə alaq ki, sərhəd erməni avantürizmi səbəbindən dəyişə bilər. Hazırda həmin avantürizmi körükləyən isə Qərbdir.

Cənubi Qafqazda kənar oyunçuların görünməsinə xoş yanaşmayan İran Rusiyanın, Türkiyənin, Ermənistanın, Azərbaycanın, Gürcüstanın və özünün iştirakı ilə "3+3" platformasını dəstəkləyir. Yəni, regiona diqqətini mövcud müstəvidə artırır. Bu platforma hazırda İslam dövlətinin baxışlarına fundamentallıq qazandıran müstəvidir. Ekspertlərin fikrincə, K.Xərrazinin regiona səfəri və bundan əvvəl İranın Ali Milli Təhlükəsizlik Şurası katibinin Moskvadakı danışıqları, Tehranın regiondan kənar, yəni, Qərb qüvvələrini sıxışdırmaq istəyindən xəbər verir. Yəni, cənub qonşumuz hərəkətə keçib.

Bəli, İran "3+3" formatını aktivləşdirməyə çalışır. K.Xərrazi Ermənistanın paytaxtında bu barədə danışdı. Tehran indiyədək iştirakdan imtina edən Gürcüstanı da mövcud müstəviyə cəlb etməyə çalışır. İstəyir ki, regiondakı qüvvələrin tam konsolidasiyası reallaşsın, nəticədə Cənubi Qafqazın siyasi problemlərinə kənar müdaxilələrin qarşısı alınsın.

Tehranın nəzərindəki "ekstraregional qüvvələr" ifadəsi özündə Avropanı, ABŞ-ı və İsraili ehtiva edir. Məlumdur ki, İranın siyasi dairələrində vaxtaşırı İsrailin Azərbaycandakı hərbi-siyasi mövcudluğu xüsusunda mülahizələr səslənməkdədir. Bu mülahizələr gündəmə gəlir, ardınca ölkənin ayrı-ayrı rəsmiləri, sanki, təhlükə hiss edirlərmiş kimi bəyanatlar verirlər. Ancaq reallıq budur ki, Azərbaycan – İsrail münasibətləri nə qədər güclü olsa da, ikincinin regionda hərbi-siyasi mövcudluğu xüsusundakı baxışlar subyektivlikdən o yana getmir. Həm də o səbəbdən ki, Azərbaycan müstəqil xarici siyasət kursu aparmaqdadır və bunun örnəkləri, kifayət qədər, çoxdur.

Ancaq Avropa İttifaqının və ABŞ-ın Cənubi Qafqazda fəallığını artırması faktdır və bu trayektoriyada Ermənistan vacib halqanı təşkil etməkdədir. Daha doğrusu, alətə çevrilməkdədir. Bunu da nəzərə alaq: İranda belə bir fikir var ki, Ermənistan Qərblə münasibətləri gücləndirmək perspektivinə əsaslanaraq, İranla münasibətləri lazımi və istədiyi səviyyədə dərinləşdirməkdən çəkinir. Lakin, buna baxmayaraq, İran Ermənistanla bütün sahələrdə əlaqələri genişləndirməyə səy göstərir. K.Xərrazi İrəvana səfəri zamanı, o cümlədən, ekspertlərlə görüşdə bu marağı bəyan edərək, hərbi sənaye, informasiya təhlükəsizliyi, iqtisadiyyat və enerji sahələrindəki qarşılıqlı əməkdaşlıqdan söz açıb. O, hətta, Ermənistanın müdafiə qabiliyyətinin gücləndirilməsi üçün İranın yardımının mümkünlüyü barədə bəyanat da səsləndirib.

Ancaq indiki məqamda demək olmaz ki, İran Ermənistana görə Azərbaycan faktorunu kənara atmaq niyyətindədir. Yəni, buna gətmək Tehrana sərfəli deyil. Ümumən, İslam respublikası həmişə öz siyasətini aparıb. Bu siyasətdə Qərbə direniş vacib məqamdır. Ukraynada müharibə başlayandan sonra Qərb Rusiyaya qarşı hər cür sanksiyaları tətbiq edəndə, bu, Moskva ilə Tehranı yaxınlaşdırdı. Nəzərə alınmalıdır ki, Kremlin iflası Tehranın süqutu deməkdir. Yəni, İran yaxşı bilir ki, Moskva Ukrayna cəbhəsində uğursuzluqla üzləşsə, növbə ona çatacaq.

Məsələyə Qərbin prizmasından da yanaşaq: Əgər 2022-ci ilə qədər "şər oxu"nu İran, Suriya və Şimali Koreya formalaşdırırdısa, indi Rusiya da onlara qoşulub. Qərbdə Tehranın uzun müddətdir Yaxın Şərqin müəyyən dövlətlərində öz müvəkkil qüvvələrini yaratması və onların zaman-zaman fəallaşması xüsusunda fikirlər gündəmə gətirilir. Hesab edilir ki, indiki mərhələdə Tehran mövcud istiqamətdə Rusiyanın dəstəyini alır.



Bəs İranla yaxın, Rusiya ilə isə tərixinin ən pis münasibət dövrünü yaşayan Ermənistan hakimiyyətinin Aİ-nin mülki müşahidəçilərini Ermənistan – Azərbaycan sərhədində patrul xidmətinə dəvət etməsi, Tehranın İrəvana münasibətini dəyişibmi? Sualı başqa cür də qoymaq mümkündür. Qərbin regional aktivliyinə qarşı çıxan Tehranı sözügedən missiyanın mövcudluğu narahat etmirmi? Qeyd edək ki, ötən il Azərbaycanla gərginlik şəraitində İrandan səslənmiş rəsmi bəyanatların birində bildirilmişdi ki, Aİ müşahidəçilərinin regiondakı mövcudluqları İslam respublikasının maraqlarına zidd deyil. Hərçənd, həmin açıqlamadan sonra mövzuya qayıdılmır. Belə nəticə hasil olur ki, sözügedən bəyanat sırf Azərbaycana inad xüsusunda səslənmişdi. Daha doğru desək, həmin vaxtkı soyuqluğun ruhundan irəli gəlirdi. Hazırda soyuqluq tam aradan qalxmaq üzrədir…

Əlbəttə, onu da vurğulamalıyıq ki, Qərbin Ermənistandakı varlığı İranın regional siyasətində, xüsusən də İrəvana münasibətdə real dəyişiklik yaratmır. Qeyd etdiyimiz kimi, İran hakimiyyəti həm "qırmızı xətləri"ni, həm də "heç bir şəraitdə coğrafi sərhədlərin dəyişdirilməsinin yolverilməzliyini" bildirir və bildirməyə davam edir. Çox güman ki, İslam respublikası avropalı müşahidəçilərə Azərbaycanı cilovlayan, ümumən cilovlayıcı real faktor kimi yanaşmır. Ona görə də Tehranın şübhələri çoxdur. Əslində, K.Xərrazinin səfəri şübhələri aradan qaldırmaq niyyətindən irəli gəlməkdədir.

Bəli, Tehran Aİ-ni "Azərbaycanın Ermənistana qarşı potensial təcavüzünün qarşısını almaq" ritorikasının keçərliliyi baxımından da hesaba almır. Görünür, İranın prinsipial şəkildə düşündüyü budur: Qərbin regiondakı mövcudluğu, ilk növbədə, Rusiyaya, sonra isə İrana qarşı yönəlib. Yəni, Tehran İrəvanı vasitə və alət kimi görmək məntiqindən uzaqdır. Bəs, riskləri minimuma endirmək mexanizmi nədir? Yenə də "3+3" platformasının üzərinə gəlirik. İran hazırda bu platformanın dərinləşməsində maraqlıdır. Onun Ermənistana münasibətinin dəyişib-dəyişməməsinə gəlincə, bu, yalnız Qərbin regiondakı hərbi komponentinin meydana çıxmasından sonra mümkündür.

K.Xərrazinin Ermənistana səfəri xüsusunda siyasi ekspertlərin qabartdıqları bir nüans da var. Azərbaycan Tehranın etirazlarına rəğmən, Ermənistana təcavüzə girişərsə, ikinci Cənubi Qafqaz regionundakı maraqlarını qorumaq naminə nə qədər uzağa gedə bilər? Yəni, İran Ermənistanın müdafiəsinə qalxarmı? Əlbəttə, suala birmənalı cavab vermək çox çətindir. Amma indiyədək keçilmiş yol var. İran Azərbaycanın ərazi bütövlüyünü tanıdığını həmişə bəyan edib. Baxmayaraq ki, İslam respublikasının Qarabağ məsələsində İrəvana dəstək baxışı da aktuallığını saxlayıb. Ancaq Bakı Tehranın istər 44 günlük müharibəyə, istər ondan sonrakı hərbi qarşıdurmalara, istərsə də lokal xarakterli antiterror tədbirlərinə seyrçi qalmasını təmin etməyi bacardı. Həm də ona görə ki, İranın rəsmi diplomatiyası, ölkənin qaragürūh siyasilərindən fərqli olaraq, kifayət qədər, rasionaldır.

Digər tərəfdən, İranın doktrinal əsasları ölkənin qüvvələrinin xaricdəki müharibələrdə iştirakına isti yanaşmır. Yəni, indiki durumda Tehranın İrəvana dəstəyi də Qərbin ikinciyə dəstəyi kimi konsultativ mahiyyətə söykənməkdədir. Eyni zamanda, bildirməliyik ki, İran Ermənistana münasibətdə Qərbdən daha sərtdir. Yəni, ölkənin İrəvanın şıltaqlıqlarına dözmək kimi niyyəti istisnadır. Burada "qırmızı xətlər" məsələsi yalnız ikinciyə münasibətdəki siyasi jestdir. Ermənistanla bütün sahələrdə, o cümlədən, hərbi sahədə əməkdaşlığa maraq da, İrəvanın müdafiə qabiliyyətini gücləndirmək istəyi də Tehranın regiondakı "qırmızı xətlərini" qorumaq əzminin məhsuludur. İslam dövləti regionda hərbi ssenarinin qarşısını almaq üçün hər şeyi edir. Yəni, ölkənin jesti ona yönəlib ki, Ermənistan cızığından çıxmasın. Elə K.Xərrazinin "Dünyanın kəsişməsi" avantürasına dəstəyə oxşar fikirlər səsləndirməsi də, həmçinin. Ancaq İrəvan cızıqdan çıxmağa öyrəncəlidir.

Sonda söz açacağımızı bildirdiyimiz məqama keçid alaq. Vurğuladığımız kimi, Ermənistan Azərbaycanın "Zəngəzur dəhlizi" ideyası ilə barışmır. Dəhliz məntiqini özünün suverenliyinə zidd sayır. Ancaq ölkə Naxçıvana yolun öz ərazisindən keçməsi naminə canfəşanlıq göstərir. "Azərbaycandan – Azərbaycana yol" məntiqi ilə hərəkət edən rəsmi Bakı sözügedən 40 kilometlik zolaqda sərhəd və gömrük nəzarətinin mümkünsüzlüyünü bəyan etməklə, prinsipiallıq göstərir.

Prinsipiallığın digər istiqaməti Naxçıvana yolun İran ərazisindən keçməsi ilə bağlı Tehranla əldə edilmiş razılıqdır. Məlum olduğu kimi, Qərb dünyası sözügedən razılığı süngü ilə qarşılamaqdadır. Məsələn, ABŞ. Birləşmiş Ştatlar Azərbaycandan tələb edir ki, Naxçıvana yol İrandan deyil, Ermənistandan keçsin. Ölkəmiz məsələnin belə qoyuluşu ilə razılaşmır və istəmir ki, öz öhdəliklərini yerinə yetirməyən İrəvan nəqliyyat və kommunikasiya qovşağı kimi üstünlüyə yiyələnsin. Ancaq bu yerdə K.Xərrazinin Ermənistanı qovşaq kimi görmək istəməsi ilə Qərbin eyni mövqedən çıxış etməsi arasında prinsipial fərqin mövcudluğunu da diqqətə çatdıraq. İkinci Ermənistanın qovşaq ampluası üçün İrana meydan tanımır və indiki durumda Tehranın İrəvanı bu yoldan döndərmək kimi şansı yoxdur. Şans yoxdursa, İslam respublikasının "qırmızı xət"lərinə yenidən baxmaq zərurəti var. Heç şübhəsiz, Kərrazinin səfəri bunu, ümumən Cənubi Qafqazda son durumu soyuq dəyərləndirmək baxımından da vacibdir.

**Əvəz CAHANGİROĞLU**
**XQ**

---

(əvvəli 1-ci səhifədə)

# Ermənistanın "mina manipulyasiyası"

Yeri gəlmişkən, Ermənistan MTX-nin açıqlaması Azərbaycanın Xarici İşlər Nazirliyinin açıqlaması ilə eyni vaxta təsadüf edir. Ölkəmizin ali diplomatiya idarəsi 2020-ci il müharibəsindən həm əvvəl, həm də sonra qarşı tərəfdən düzgün mina xəritələrinin verilməsinin dəfələrlə tələb olunduğunu vurğulayıb. Nədənsə, erməni siyasi dairələri bu mövqeni qeyri-konstruktiv yanaşma kimi dəyərləndirirlər. Nəyə görə? Buna da diqqət yetirəcəyik. Ancaq, ilk növbədə, başqa suala cavab axtaraq: Ermənistan MTX-nin açıqlaması konstruktivdir? Əlbəttə, yox! Qeyd edək ki, indiyədək İrəvandan Bakıya səkkiz mina xəritəsi təqdim olunub. Bunlarda dəqiqlik faizi olduqca aşağıdır. Nəzərə alaq ki, ölkəmizin yüzlərlə dinc sakini və hərbçisi mina terrorunun qurbanı olub...




Ermənistan MTX-nin indiki açıqlaması onu deməyə əsas verir ki, İrəvan dəqiq xəritələr vermək niyyətindən uzaqdır. Necə yəni ki, minaların yerləri hərbçilər arasında aparılmış sorğu ilə müəyyənləşir? Belə şey olar? Deməli, bir daha o qənaətə gəlirik ki, Ermənistan mina xəritələri məsələsindən siyasi alət kimi istifadədə maraqlıdır. Və burada haqqında söz açdığımız anonsa keçid ala bilərik.

Bəli, mina xəritələri mövzusunda aşkar manipulyasiya təsiri bağışlayan, qeyri-müəyyən mahiyyət daşıyan ilk açıqlamanın müəllifi Ermənistan MTX deyil, ölkənin xarici işlər naziri Ararat Mirzoyandır. Heç şübhəsiz, nazir mövcud istiqamətdə daha da "irəli getməsi" ilə diqqət çəkib. Yəni, Mirzoyanın ötən həftə bildirdikləri İrəvanın Bakıya düzgün mina xəritələri vermək istəmədiyinin təsdiqidir. O, faktiki olaraq, bunu etiraf edir.



Həm Mirzoyanın söylədiklərindən, həm də Ermənistan MTX-nin açıqlamasından gəlinən qənaət budur ki, mina terroru Ermənistanın Azərbaycana qarşı siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Diqqət yetirək: Mirzoyan deyirdi ki, əgər etimad mühiti yaranarsa, beynəlxalq ictimaiyyətin də iştirakı ilə Ermənistan Qarabağdakı mina sahələrinin yeni xəritələrini Azərbaycana verə bilər. "Beynəlxalq ictimaiyyətin iştirakı", "etimad mühiti yaranarsa". Erməni XİN rəhbəri, göründüyü kimi, şərt qoyur.

Azərbaycan nəinki bu məsələdə, ümumən, özünə münasibətdə sərt ritorikasının işə salınmasına birmənalı qaydada yol verməyəcək. Bunu qarşı tərəf də gözəl anlayır, ancaq kor inadından əl çəkmir. Nəticədə əvvəl Mirzoyan, indi isə Ermənistan MTX mina xəritələri kimi vacib məsələyə sərsəm münasibət bildirir. Elə bil, sıravi hərbçilər yerə minanı tarlada taxıl əkirlərmiş kimi basdırıblar... Bu qənaətə gəlirik ki, MTX-nin açıqlaması Ermənistan XİN tərəfindən müəyyənləşdirilmiş manipulyativ xəttin inkişaf etdiriləcəyinin təsdiqidir. Həqiqətən də, dəhşətli düşüncədir.

Mina xəritələri ilə bağlı Mirzoyanın baş vurduğu növbəti həyasızlıq da var. O demişdi ki, guya, Qarabağda minaları azərbaycanlıların özləri ötən əsrin 90-cı illərinin əvvəllərində ərazidən çıxarkən basdırıblar, Ermənistan isə tədqiqatlar yolu ilə yeni mina xəritələri hazırlamağa çalışır. Yəni, özünüz basdırmısınız, bizlik deyil. Hələ bir minnət də qoyulur. Sual yaranır: necə ola bilər ki, azərbaycanlılar 90-cı illərdə ərazidən çıxarkən, minalar basdırıblar və ötən otuz ilə yaxın müddətdə bir nəfər də olsun erməni həmin minaların qurbanı olmayıb?

Digər yandan, azərbaycanlılar doğma yurdlarına qayıtmağı düşündükləri üçün onların mina basdırmaları, əslə, mümkün deyil. Yəni, erməni XİN rəhbərinin ağlı özlərinə gedib. O, tipik erməni təfəkkürünü azərbaycanlılara şamil etmək kimi son dərəcə həyasız gedişə baş vurur. Daha bir məqam da var. Axı həmin vaxt azərbaycanlıların nəinki minaları, heç ov silahları belə yox idi...

Bəli, hazırda Ermənistanın siyasi dairələri Azərbaycan XİN-in dəqiq mina xəritələrinin verilməsi ilə bağlı tələbini Bakının qeyri-konstruktiv davranışı və sülh prosesini pozmağa yönəlmiş addımı kimi qiymətləndirirlər. Əslində, ən böyük manipulyasiya budur. Onlar ölkəmizin rəsmilərinin indiyədək verilmiş xəritələrin yararsızlığına dair açıqlamalarını da mövcud kontekstdə dəyərləndirmək yolunu tuturlar.

Digər tərəfdən, Mirzoyanın dilə gətirdiklərinə diqqət yetirsək, belə təəssürat yaranır ki, İrəvan mina xəritələri məsələsindən danışıqlar prosesində hansısa üstünlük qazanmaq naminə istifadədə də maraqlıdır. Heç şübhəsiz, bu, siyasi şantajdır. Üstəlik, Ermənistan şantajına beynəlxalq dairələri, iki ölkə arasında vasitəçilik missiyasını üzərinə götürmüş tərəfləri də daxil etmək istəyir. Daha doğrusu, İrəvan xəritə mövzusunu ortaya atmaqla əldə etmək istədikləri üçün beynəlxalq təminat amilinin mövcudluğunda maraqlıdır. Əlbəttə, buna təminat demək yerinə düşmür. Çünki, bu tamam cəfəngiyatdır.

Hazırda erməni iqtidarına yaxın siyasi dairələrin mina xəritələri ilə əlaqədar qaldırdıqları bir məsələ də var. Söhbət ölkəmizdə saxlanıldığı iddia edilən erməni hərbi əsirlərdən gedir. Guya, həmin əsirlər geri qaytarılmasa, Azərbaycan dəqiq mina xəritələrini görməyəcək.

Nəhayət, bu mövzuda üzərində dayanılan növbəti məqam da diqqətdən yayınmır. Erməni siyasi dairələri vurğulayırlar ki, mina xəritələrinin, guya, dəqiq olmaması tam mümkündür. Onlar fikirlərini sübuta yetirmək üçün müxtəlif "arqumentlərə" baş vururlar. Ancaq, sən demə, bu "arqumentlərin" axtarılıb-tapılmasında da məqsəd var. "Məqsəd" isə aşağıdakı məqamı regionun və dünyanın ictimai rəyində möhkəmləndirməyə yönəlib: Bakı mina xəritələri tələb edirsə, Azərbaycan Ermənistanla sülh müqaviləsi imzalamaqdan yayınır. Belə çıxır ki, Ermənistan mina xəritələrini Azərbaycan tərəfindən sülh prosesi ilə bağlı səsləndirilmiş bütün fikirlərə əks arqument kimi istifadəni nəzərdə tutur. Əlbəttə, belə yanaşma da son dərəcə məkrlidir, reallıqlardan uzaqlaşmaq, onları qəbul etməmək cəhdidir.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Sərhəddə görüş: problemlər irəliləyişə mane olur

## Ekspertlər komissiyanın dünənki iclasını şərh edirlər

(əvvəli 1-ci səhifədə)

Onu da bildirək ki, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası Prezident İlham Əliyevin 2022-ci il mayın 23-də imzaladığı sərəncamla yaradılıb. Azərbaycan tərəfdən komissiyanın sədri Baş nazirin müavini Şahin Mustafayevdir. Ermənistan tərəfdən isə komissiyayaya baş nazirin müavini Mher Qriqoryan rəhbərlik edir. Komissiyada Naxçıvan Muxtar Respublikasının baş nazirinin müavini, Azərbaycanın xarici işlər, daxili işlər, ekologiya və təbii sərvətlər, ədliyyə, kənd təsərrüfatı, müdafiə nazirlərinin müavinləri, Dövlət Təhlükəsizliyi Xidməti rəisinin birinci müavini, Dövlət Sərhəd Xidməti rəisinin müavini, Xarici Kəşfiyyat Xidməti rəisinin müavini, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi, Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin sektor müdiri, habelə sərhədyanı rayonların – Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Daşkəsən, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayon icra hakimiyyətlərinin başçıları təmsil olunurlar. Ermənistan tərəfdən də müvafiq nazirliklərin və dövlət qurumlarının rəhbər şəxsləri komissiyada təmsil olunurlar.

Belə geniş tərkibə malik komissiyanın iclasları hər iki ölkədə diqqətlə izlənilir. Əldə ediləcək nəticələr iki ölkə arasında etimad quruculuğu yolunda atılan daha bir addım kimi qiymətləndirilir. Sonuncu görüşdə tərəflər delimitasiya məsələlərinin müzakirəsini davam etdirmiş, bir sıra təşkilati və prosedur məsələləri nəzərdən keçirmişdilər. Görüşün yekunları ilə bağlı ölkəmizin Xarici İşlər Nazirliyinin yaydığı məlumatda bildirilirdi ki, tərəflər iclasların və birgə işçi görüşlərin təşkili və keçirilməsi reqlamentinin mətnini ilkin olaraq razılaşdırıblar. Bildirilmişdi ki, tərəflər komissiyanın birgə fəaliyyəti haqqında əsasnamə layihəsinin razılaşdırılması üzrə işin başlanılması barədə sövdələşib, komissiyaların görüşlərinin keçirilməsinin intensivləşdirilməsinə dair razılığa gəliblər. Həmçinin, tərəflər komissiyaların növbəti görüşünün keçirilməsinin tarixini və yerini işçi qaydada müəyyən etmək barədə razılaşıblar.

Qeyd edək ki, işçi qaydada keçirilən görüşlərdən hələlik hansısa mühüm nəticələr əldə olunduğunu demək tezdir. Bəlkə də müəyyən nəticələr var, amma onların tam mənası ilə açıqlanmasına zaman gərəkdir. Həmçinin komissiyaların iclasları intensiv qaydada keçirilərsə, il ərzində sərhədlərin delimitasiyası ilə bağlı hansısa ciddi razılaşma əldə etmək mümkün ola bilər.

**Görüşlə bağlı fikirlərini "XQ" ilə bölüşən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri Fərid Şəfiyev** bildirdi ki, komissiyanın işə başlaması faktiki olaraq müsbət haldır. Onun sözlərinə görə, bu, hər halda, iki ölkə arasında danışıqlar prosesinin getməsinin göstəricisidir: "Amma biz məsələyə konseptual yanaşsaq, deməliyik ki, iki ölkə bir-birinin ərazi bütövlüyünü tanımalıdırlar. Bundan sonra delimitasiya aparıla bilər. Ona görə də məsələ yenə sülh sazişinin üzərinə gəlir. Sülh sazişi yoxdursa, iki ölkə bir-birinin ərazi bütövlüyünü



tanımırsa, delimitasiyadan danışmaq mümkün deyil".



Fərid Şəfiyev deyir ki, delimitasiya ilə bağlı danışıqlar prosesi davam etdiriləcək. Orada müəyyən texniki məsələlər həll olunacaq: "Komissiya necə işləyəcək, onun protokolları necə hazırlanacaq, prosedur qaydalar necə olacaq və sair məsələlərə baxılacaq. Amma sülh sazişi ilə bağlı fundamental problemlər qalmaqdadır. İkincisi isə sərhədlərin müəyyənləşməsi ilə bağlı xəritə problemi var. Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bu barədə açıq danışdı. Dövlət başçısı Ermənistanın nə üçün məhz 1970-ci illərin xəritələrini əsas götürmək istədiyini əsaslandırdı. Ona görə də bu iki məsələdə fundamental problemlərimiz var. Əgər bu problemlər gələcəkdə də həll olunmasa, delimitasiya komissiyasının işində inkişaf çətin olacaq".

**Beynəlxalq hüquq üzrə mütəxəssis, siyasi ekspert Orxan Amaşov** isə qəzetimizə açıqlamasında



delimitasiya komissiyasının görüşündən böyük gözləntisinin olmadığını bildirdi. O, öz fikirlərini bununla əsaslandırdı ki, delimitasiya və ondan sonra həyata keçirilməli olan demarkasiya texniki məsələdir: "Bu proses böyük bir zaman alacaq. İndiki mərhələdə hansısa konkret razılığın əldə olunacağı qənaətində deyiləm. İclasların təşkilinin və keçirilməsinin reqlamenti təzəlikcə – ötən ilin sonunda müəyyənləşdirilib. Bu sahədə böyük bir iş aparılmalıdır. Sülh sazişi və delimitasiya-demarkasiya prosesi bir-birindən ayrılıb. Təbii ki, sülh sazişinin mətnində delimitasiya ilə bağlı müddəa ola bilər. Həmin müddəada tərəflərin delimitasiya işini hansı əsaslarla apara biləcəklərinin qeyd edilməsi mümkündür. Amma sülh sazişi imzalananadək delimitasiyanın başa çatmasına ehtiyac yoxdur".

Orxan Amaşov qeyd etdi ki, tərəflər arasında böyük ziddiyyət var: "Azərbaycan hesab edir ki, əvvəlki dövrlərin xəritələrinə müraciət etmək olar və bu, ikitərəfli qaydada, hər iki tərəfdən ekspertlərin müzakirəsi əsasında həll olunmalıdır. Ermənistan isə sonuncu xəritələrə üstünlük verir və bu mövqedən çıxış edir ki, Sovet İttifaqı 1991-ci ildə dağılanda respublikalar hansı inzibati sərhədlərə malik idilərsə, həmin sərhədlərlə də delimitasiya işi aparılmalıdır. İlk baxışda belə görünə bilər ki, Ermənistan yalnız "uti possidetis" prinsipindən danışır. Yəni, Sovet İttifaqı daxilində müttəfiq respublikalar arasında hansı inzibati sərhədlər var idisə, müstəqil Azərbaycan və Ermənistan arasında da həmin sərhədlər olmalıdır. Azərbaycan "uti possidetis" prinsipinin tərəfdarıdır. Uzun müddət biz Qarabağ məsələsində öz mövqeyimizi ərazi bütövlüyü əsasında dünyaya çatdırırdıq və bu zaman həmin prinsipə istinad əsas rol oynayırdı. Lakin biz yaddan çıxarmalı deyilik ki, 1991-ci ildə də bizim sərhədlərimiz delimitasiya olunmamışdı. Bəs hansı dövrün inzibati sərhədləri dövlət sərhədlərinə çevrilməlidir? Bu, xəritələrə müraciət əsasında müəyyən oluna bilər. Azərbaycan dövlətinin rəsmi ifadə etdiyi mövqedən belə çıxır ki, xəritə məsələsi qarşılıqlı şəkildə müzakirə olunmalıdır. Ekspertlər müzakirə aparmalı və lazım gələrsə, 1969-cu ildən öncəki xəritələrə də müraciət etmək olar. Azərbaycan rəsmilərinin fikirlərinə nəzər salanda da bu mövqe ortaya çıxır".

Orxan Amaşov daha sonra dedi: "Azərbaycan hesab edir ki, sülh sazişi imzalananda delimitasiya ilə bağlı müəyyən bir təsəvvür və ortaq mövqe olmalıdır. Bu ortaq mövqe bizim delimitasiya prosesini hansı əsasda aparacağımızı ehtiva etməlidir. Lakin sülh sazişi imzalananadək delimitasiyanın başa çatdırılmasına ehtiyac yoxdur. Ermənistan isə hesab edir ki, tərəflər bu məsələdə hansısa üçüncü tərəfə – zəmanətçiyə ehtiyac duymalıdırlar. Həmçinin onlar hesab edirlər ki, sərhədlərin delimitasiyası ilə bağlı meydana çıxan məsələlərlə əlaqədar hansısa üçüncü qüvvənin iştirakı ilə təhlükəsizlik təminatı olmalıdır. Bu fikirlər ötən ilin əvvəlində ifadə olunmuşdu. İndi isə onlar qarşılıqlı şəkildə hücum etməmək və hər iki ölkədə silahlanmanın qarşılıqlı şəkildə nəzarətdə saxlanılması təşəbbüsü ilə çıxış ediblər. Hesab edirlər ki, sülh sazişinin imzalanması geciksə, ən azı, bu istiqamətdə sənəd imzalamaq olar. Bu, Azərbaycan tərəfdən müsbət qarşılanmır. Hesab olunur ki, bu, əslində, tərəflərin sülh sazişi üzrə aparılan işdən yayınmasına səbəb ola bilər və səmərəli həll yolu deyil. Ermənistan hesab edir ki, hər iki tərəf ordusunu şərti sərhəd boyu "güzgü prinsipi" ilə geri çəkməlidir. Azərbaycan hesab edir ki, sərhəd şərti olduğu üçün bu təklif əhəmiyyətsizdir. Qarşılıqlı ziddiyyətlər var. Ona görə də bax, bu ziddiyyətlər fonunda mən delimitasiya üzrə komissiyaların iclaslarından hansısa dolğun nəticənin ortaya çıxacağını gözləmirəm".

**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq Fərhad Məmmədov** qeyd etdi ki, ilk baxışda komissiyaların iclasının nəticəsiz başa çatdığı təsəvvürü yaranır. Kimsə düşünə bilər ki, bu görüşlər görüş xatirinə keçirilir: "Amma, əslində, belə deyil. Yadda saxlamaq lazımdır ki, hansısa vasitəçinin iştirakı olmadan, yəni, birbaşa görüşlər keçirilməsi formatının bir hissəsi elə delimitasiya komissiyasının iclaslarıdır. Şərti sərhəddə görüşlərin keçirilməsi, 2023-cü il dekabrın 7-də birgə bəyanatın qəbul olunması ikitərəfli formatın şaxələndirilməsinin nəticəsidir. Üçüncü tərəf – nə Rusiya, nə Avropa İttifaqı, nə də ABŞ həmin danışıqlarda iştirak etməyib. Bu, ikitərəfli formatın, gözə görünən formatın bir hissəsidir. Digər tərəfdən, əlbəttə, sülh sazişi, yəni, siyasi qərar olmadan delimitasiya komissiyalarının fəaliyyətində nəzərəçarpacaq irəliləyiş də mümkün deyil. Çünki ölkələr arasında münasibətlər, ən azı, hansısa bir formaya salınmalıdır ki, komissiyaların fəaliyyətində də konkret nəticələr olsun".



Fərhad Məmmədov əlavə etdi ki, ümumi götürdükdə, əlbəttə, prosesdə dinamikanın qorunub saxlanılması çox vacibdir: "Bu dinamikada komissiyanın iclaslarının keçirilməsi də yaxşı haldır. Bir məqamı da nəzərə almaq lazımdır ki, komissiyalara rəhbərlik edən şəxslər, eyni zamanda, iki ölkə arasında nəqliyyat kommunikasiyalarının açılması məsələsini də kurasiya edirlər. Belə olan halda istisna etmək olmaz ki, sərhədlə yanaşı, kommunikasiyalarla bağlı məsələlər də müzakirə olunacaq".

***Səxavət HƏMİD***
***XQ***

# Gənclər günü şənliyi



**Mingəçevir Gənclər Evində 2 Fevral Gənclər Günü münasibətilə YAP şəhər təşkilatının rəhbərliyi gənc fəalları, tələbələr, eləcə də idarə və müəssislərdə çalışan gənclərlə görüş keçirilib.**

"Azərbaycan gəncləri yeni zirvələrə doğru" adlanan görüş ötən il "Gənclər paytaxtı" seçilən Mingəçevirdə həyata keçirilmiş tədbirlərlə bağlı videoçarxın nümayişi ilə başlayıb. Sonra şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov çıxış edərək ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan danışıb, o, Ulu öndər Heydər Əliyevin sabahımızın sahiblərinə daim xüsusi münasibət bəslədiyini vurğulayıb. Şəhər rəhbəri xatırladıb ki, Gənclər və İdman Nazirliyinin yaradılması, Gənclər Gününün təsis edilməsi məhz Ümummilli liderin adı ilə bağlıdır. Ölkəmizdə gənclər siyasətini uğurla davam etdirən dövlətimiz də gənclərin təhsilinə, fiziki sağlamlığına, yüksək vəzifələrə irəli çəkilməsinə ciddi önəm verir.

Bildirilib ki, gənclərimizin güclü vətənpərvərlər kimi tərbiyəsinin nəticəsidir ki, 44 günlük Vətən müharibəsində onlar böyük rəşadətlər göstərib, torpaqlarımızın düşmən tapdağından azad olunmasında və möhtəşəm Zəfərin əldə edilməsində misilsiz qəhrəmanlıq nümunələri ilə fərqləniblər. Gənclər Günü münasibəti ilə görüş iştirakçılarına təbriklərini çatdıran şəhər rəhbəri onlara xoş arzularını bildirib.

Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin rəisi Azad Gözəlov, Gənclər Evinin müdiri Tural Kərimli, MDU-nun dekanı Nizami Zeynalov, "İşıqlı Gələcək" Gənclər Birliyinin sədri Samrin Xanlayev, "Asan Xidmət" müəssisəsinin direktor müavini Elşən Əliyev, baş məsləhətçi Aysel Aslanova ürək sözlərini söyləyiblər. Görüşdə 2015–2025-ci illərə dair Azərbaycan gənclərinin inkişaf strategiyasından söz açılıb və bununla əlaqədar həyata keçirilən tədbirlər diqqətə çatdırılıb.

Sonda bir qrup gəncə şəhər icra hakimiyyətinin fərxi fərmanları, Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin və Gənclər Evinin təşəkkürnamələri verilib.

**İlqar HƏSƏNOV,**
**XQ-nin bölgə müxbiri**

KÖŞƏ

# Ermənistan konstitusiyasının dəyişdirilməsi zərurətdir

**Belə görünür ki, Ermənistanda Azərbaycan tərəfindən səsləndirilən hər hansı təklif o dəqiqə bomba effekti yaradır. Son vaxtlar bizim politoloqlar, siyasət adamları belə bir fikir ortaya atıblar ki, Ermənistan konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları olduğundan İrəvan ana yasasına əl gəzdirməli, dəyişiklik etməldir. Bu fikir erməni cəmiyyətini silkələyib. Məsələyə artıq ölkə parlamentinin spikeri Alen Simonyan da münasibət bildirməli olub.**



**Paşa ƏMİRCANOV**
**pasha.emircanov@mail.ru**

Ermənistan milli assambleyasının sədri də konstitusiyanın dəyişdirilməsinin zəruri olduğunu bəyan edib. O, dünən Çexiya Deputatlar Palatasının sədri Marketa Pekarova Adamova ilə birgə mətbuat konfransında bildirib: "Biz Ermənistanın hara getdiyini, hansı məqsədlər güddüyünü və niyə mövcud olduğunu başa düşməliyik. Ona görəmi ki, biz böyük və kiçik tarixi Ermənistanı bərpa etmişik, yaxud bu, müstəqillik əldə etdiyimiz 21 sentyabra aiddir, yoxsa təhlükəsiz və firavan yaşamalı olan Hayastan vətəndaşlarına aiddir?"

Həmişəki kimi, ikibaşlı, dolaşıq və nəhayət, bir qədər ermənisayağı danışan Simonyan əlavə edib ki, bəzi məsələlər Ermənistan Respublikasının qanunvericiliyində aydın şəkildə əks olunmayıb: "Ermənistan amorf bir şey ola bilməz, bu məsələdə bizimlə heç kim mübahisə edə bilməz. Ermənistan Respublikasının vətəndaşı bilməlidir ki, vətəni haradan başlayır və harada bitir... Bəli, Ermənistan dağları mənim vətənimdir, beşiyimdir, amma mənim Ermənistan Respublikası adlı dövlətim var. 1991-ci ildə konkret sərhədləri ilə müstəqil olmuş, hamımızın vətəndaşı olduğumuz Ermənistan var və bu, bütün sənədlərdə aydın şəkildə əksini tapmalıdır".

Bütün bu, nağıllardan sonra erməni parlamentinin sədrinə belə bir konkret sual ünvanlanır: "Konstitusiyanın dəyişdirilməsi Azərbaycanın tələbidir, yoxsa danışıqlarla bağlıdır". Simonyan belə cavab verib: "Mən sizi çağırıram və vurğulamaq istəyirəm ki, gələcəkdə Ermənistan rəsmilərinə oxşar sual verəndə bilin ki, eyni sual olacaq. Azərbaycan Konstitusiyasında və hüquqi aktlarında da əksini tapmalı olan müddəalar var".

Əslində, bu, təzə məsələ deyil. Hələ 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR və Dağlıq Qarabağın birləşməsi haqqında" qərar qəbul edib. İşğalçı mahiyyət daşıyan bu qərar hazırda da qüvvədə olan Ermənistan konstitusiyasında qalmaqdadır. Belə şəraitdə Ermənistan hakimiyyətinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını elan etməsi bu ölkədə rəsmi olaraq anti-konstitusion hesab edilə bilər. Bu ölkənin konstitusiyasında Türkiyəyə qarşı da ərazi iddiaları öz əksini tapıb. Hazırkı baş nazir Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmi şəkildə elan edəndən sonra Ermənistanda belə bir fikir yenidən gündəmə gəlib ki, Ermənistan konstitusiyası, qanunvericiliyi və bütün digər sənədlər dəyişdirilməlidir. 1991-ci ildən sonrakı respublika artıq iflas edib. Ona görə də dördüncü respublika yaradılmalıdır.

Baş nazir N.Paşinyan da parlamentdəki çıxışlarından birində ölkəsinin gerbini və himnini dəyişmək barədə danışmışdı: "Gerbimiz psixologiyamızı güclü şəkildə əks etdirir. Orada nə göstərilir? Ağrı dağında Nuhun gəmisi və Ermənistanın dörd çarlığının simvolları. Hamımız üçün müqəddəs olan bu obrazın 1991-ci ildə qurulan dövlətə nə dəxli var? Mərkəzə baxanda Ağrı dağında Nuhun gəmisini və indiki Ermənistan Respublikasının su altında qalan ərazisini görmək olar. Orada uzun müddət Ermənistanın təbii şəraitində yaşamayan şiri də görmək mümkündür. Müzakirə etdiyimiz bu problem, əslində, bizim hər birimizdə mövcud olan ikitirəlikdə – tarixi Ermənistanla real Ermənistan arasındadır. Nə qədər emosional və hansı arqumentlərlə əsaslandırılmasından asılı olmayaraq, sual yaranır: həqiqi Ermənistan tarixi Ermənistana, yoxsa tarixi Ermənistan həqiqi Ermənistana xidmət etməlidir?" Zənnimizcə, şərhə ehtiyac yoxdur.

Azərbaycan ictimaiyyəti, xüsusən siyasi şərhçilərimiz də son vaxtlar Ermənistan qanunvericiliyinin dəyişdirilməsi fikrini dəstəkləyirlər. Bildirirlər ki, əgər Ermənistan, həqiqətən də, qonşuları ilə normal əlaqələr qurmaq istəyirsə, onların qanunvericiliyində ərazi iddiaları ilə bağlı olan maddələr çıxarılmalıdır. Çünki bir tərəfdən, Paşinyan sülh müqaviləsinə imza atmalıdır və burada Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyü əks olunacaq. Digər tərəfdən, sülh müqaviləsinin tezliklə imzalanması ilə bağlı tələblər var. Deməli, hüquqi problemlərin yaranmaması üçün konstitusiya dəyişməlidir.

Azərbaycanın son illərdəki tarixi qələbələrindən və özünün ərazi bütövlüyünü tam bərpa etməsindən sonra isə bu ölkənin konstitusiyasında "Ermənistan Dağlıq Qarabağın təminatçısıdır" ifadəsi saxlanıla bilməz. Eyni zamanda, Ermənistan son illərdəki biabırçı məğlubiyyətlər seriyasından sonra bir sıra iddialarından geri çəkilməlidir. Bu barədə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışlarından birində deyib: "Bundan sonra Ermənistan cəmiyyətində real vəziyyətin düzgün təhlili getməlidir. Artıq mifologiyadan əl çəkməlidirlər. Böyük Ermənistan xülyasından əl çəkməlidirlər. Dənizdən-dənizə qədər mifik Ermənistan xülyasından əl çəkməlidirlər. Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidirlər və əl çəkəcəklər. Bunun başqa yolu yoxdur".

Demək, vaxt yetişib. Ermənistan konstitusiyasının dəyişdirilməsi zərurətdir.

# Cənubi Qafqazın geosiyasi parçalanma riski

**IV HİSSƏ**

**Tarixin bizə bəxş etdiyi ən yaxşı dəyər, onun entuziazm həyəcanı yaratmasıdır.**

**Fridrix Nitşe**

## Qədim türk dövlətçilik təfəkkürü

Sokrat öyrədirdi ki, qanunla hüquq eyni şeydir. Bu fikrin qaynağı türk dövlətçilik təfəkkürüdür. Azərbaycan dövlətçilik ənənəsində "qanun" və "hüquq" anlayışları sinonim kimi işlədilmişdir. Konkret olaraq, toplumun özünüyaratması qanunu kimi "Yosun hüququ" adlanan anlayış mövcuddur. Bu hüquq, eyni zamanda, qanundur, başqa sözlə, türk insanının və toplumunun qanunudur. Görünür, məhz bu səbəbdəndir ki, qədim türklər "dövlət" və "el" (oba, birgəyaşamın türk modeli) anlayışlarına eyni mənanı vermişlər. "Palaza bürün, elnən sürün!" deyimi bu mənada "dövlətnən ol!" anlamını verir.

Türk birgəyaşam üsulunda toplum kimi mövcud olmaq fəlsəfəsi ilə dövlət olaraq var olma arasındakı bu vəhdətin müasirliyi aydındır. Filosoflar, politoloqlar və alimlər indiki tarixi mərhələdə fərdi deyil, kollektiv (cəmiyyət, cəmiyyətlər birliyi, dövlətlər qrupu və s.) mövcud olmanı müasir beynəlxalq münasibətlərin əsas parametri adlandırırlar. Bu isə kollektiv marağın fərdi maraqdan önə keçdiyini göstərir. Türk xalqları min illərdir bu fəlsəfə ilə dövlət və cəmiyyət qururlar.

Vurğulanan kontekstdə türk siyasi təfəkkürü ilə Sokratın müqayisəsində bir ortaq cəhəti də görmək mümkündür. Bu, "ədalət" anlayışıdır. Azərbaycan dövlətçilik ənənəsində ədalət məsələsi mərkəzi yer tutur. Bununla bağlı çox sayda tarixi fakt mövcuddur. Ulu öndər Heydər Əliyev müasir mərhələdə dövlətçiliyi sıx surətdə ədalətli olmaqla bağlamışdır. Fəliyyətinin mahiyyəti və məzmununda da ədalət əsas yeri tutmuşdur. Bu, qədimdən gələn siyasi şüur ənənəsinin konkret təzahürüdür.

Sokrat üçün də ədalət anlayışı böyük əhəmiyyət kəsb etmişdir. O, müdrikliyi birbaşa ədalətlilik, xeyirxahlıq, qanunlara əməl etməklə bağlamışdır. Sokrat deyirdi ki, kişi adam qanunlara əməl edəndir. Yəni həm də hüquqa sayğı göstərən, ona uyğun davranandır.

Nəhayət, türk siyasi təfəkkürü ilə Sokratı dövlətçilik və siyasət aspektində birləşdirən başqa vacib məqam: lider və bütövlükdə dövlət verdiyi sözə və imzaladığı sənədə sadiq olmalıdır! Sokrat üçün, bu, həyati mövqe idi. O, zəhər dolu qabı başına çəkmiş, lakin inamına, ideyasına, verdiyi sözlərə xəyanət etməmişdir. Sokrat qanun və hüquqla yaşamışdır! Və o keyfiyyətdə də həyatdan getmişdir. Dövlət məsələsində bu şərtlər ayrıca əhəmiyyət və özəllik kəsb edir.

Verilən sözə əməl olunmasa, heç bir müqavilənin, razılaşmanın əhəmiyyəti olmur. Azərbaycanda buna görə el arasında "kişi sözü" deyilən bir anlam vardır. Söz verdin, mütləq əməl etməlisən. Azərbaycan hökmdarları, rəhbərləri, liderləri bu qaydaya daim əməl etmişlər. Ənənə bunu sübut edir. M.Ə.Rəsulzadə də dövlətçilik üçün mühüm olan 4 şərtdən birinin imzaya sadiqliyi göstərmişdir. Ulu öndər bütün fəaliyyətində sözünə əməl edən və imza qoyduğu sənədlərə tam uyğun addımlar atan lider olmuşdur. Bu ənənəni Prezident İlham Əliyev də davam etdirir.

Beləliklə, qısa müqayisə aydınlaşdırır ki, Sokrat türk siyasi qavramının bir aspektini lakonik ifadə etmiş və ona siyasi-nəzəri məzmun vermişdir ("qanunla hüquq eyni şeydir"). Bu fikirlərin müasir mərhələdə Cənubi Qafqazın geosiyasi mənzərəsinə hansı aidiyyatı vardır? Qanunla hüququn eyni olmasının Cənubi Qafqazın hazırkı geosiyasi mənzərəsini dərk etmək kontekstində konkret təsiri necə ola bilər?

## Ədaləti və tarixi reallığı qurban vermənin bədəli

Məsələ ondan ibarətdir ki, qədimlərdə Azərbaycan türk dövlətçilik şüuru ilə Sokrat fəlsəfəsi ortaq mövqeyə gələ bilmişlər. İndi isə Sokratın xələfləri Cənubi Qafqazda bu tarixi bağlantını atdıqları düşüncəsiz addımları ilə pozurlar. Faktiki olaraq regionu münaqişələrə və qarşıdurmalara sürükləməyə çalışırlar. Onlar Sokrata dönük çıxmışlar.

Azərbaycan isə öz dövlətçilik ənənəsinə nəinki sadiq qalmış, hətta onu XXI əsrin çağırışları fonunda yaradıcı surətdə inkişaf etdirmişdir. Qərbin siyasi təfəkkürü mənfiyə doğru dəyişmişdir, Azərbaycan isə dəyişməmişdir: tarixdən gələn ədalət, hüquq və milli ləyaqətə əməl etməkdədir!

Son zamanlar regionda geosiyasi aspektdə nələri müşahidə edirik? Qərb dövlətləri bir-birinin ardınca konstruktiv olmayan və Cənubi Qafqazı qarşıdurma məkanında saxlayan addımlarını davam etdirirlər. Çox qısa bir müddətdə onlar bu tendensiyanı nəinki zəfilətdilər, hətta onu davamlı trendə çevirməyə çalışırlar. Konkret faktların fonunda bu tezis özünü təsdiq edir.

Avropa İttifaqının strukturları Azərbaycana qarşı əsassız və cəfəng ittihamlar səsləndirməkdə davam edirlər. AŞPA təntənəli surətdə bəyan etmişdir ki, Azərbaycan nümayəndə heyətinin fəaliyyəti bir il müddətinə məhdudlaşdırılır. Eyni zamanda, şərt qoyur: AŞPA-nın tələblərini yerinə yetirsə, bu qərar aradan qaldırıla bilər. Şərtlər nədən ibarətdir? Ermənilərin hüquqlarını müdafiə et (etmirik ki?), Laçın "dəhlizi"nə AŞPA nümayəndələrinin "seyrinə icazə ver" (Laçın dəhliz deyil, yoldur və Azərbaycan qanunları çərçivəsində istənilən adam orda "seyr" edə bilər) və AŞPA nümayəndələrini Prezident seçkilərinə müşahidəçi kimi dəvət et (buna layiq deyilsiniz, axı, çünki obyektiv davranmırsınız).

Bu şərtlərin qondarma və qərəzli olduğu aydın görünür. Eyni zamanda, Cənubi Qafqazın geosiyasi mənzərəsi baxımından təhlükəlidir. Çünki yanaşma




konfrontasiya yaradıcı və birtərəflidir.

Birincisi, AŞPA və AŞ azərbaycanlıların hüququndan danışmaq istəmir. Ermənilərə dəyib-toxunan olmadı, ancaq milyondan çox azərbaycanlı deportasiya olunmuşdur. Keçən müddətdə AŞPA, AŞ, bütövlükdə Aİ və ümumi halda Qərb və ya başqa geosiyasi güc Ermənistanda keçirilən hansı seçkilərdə rəsmi İrəvan qarşısında öz yurdlarından qovulmuş azərbaycanlıların hüquqlarını bərpa etməsi tələbini qoymuşdur? Ermənistan hökumətindən hansı AŞPA və ya Aİ, olsun ki, ABŞ yaxud Rusiya tələb etmişdir ki, Qarabağdakı İslam mədəniyyət nümunlərinin, əsas olaraq məscidlərin və qəbiristanlıqların təhqir edilməsinin hesabatını verməsə, hansısa təşkilatda fəaliyyətini məhdudlaşdıracaq? Əksinə, rəsmi Bakının israrlı dəvətinə, çağırışına, müraciətlərinə baxmayaraq, özlərini beynəlxalq təşkilatlar adlandıran və insan haqları, mədəniyyət nümunələrinin qorunması ilə məşğul olduqlarını deyən qurumlar yerlərdə vəziyyətə baxmağa gəlmirlər! Bunlara inanmalıyıq? Onları seçkiyə müşahidəçi kimi buraxmalıyıq? Axı, onlar həqiqəti görə bilmirlər, ədalət və reallığa qarşı "korluq xəstəliyinə" tutulmuşlar!

Məgər bu, regiona geosiyasi konfrontasiya və qərəzli yanaşma əlaməti deyildir? Ermənistanla danışıqlarda avropalılar özlərini elə aparırlar ki, guya, o qondarma dövlətdə hər şey demokratiya yolundadır, başqa hər hansı dəyərə ehtiyac yoxdur. Məhz buna görədir ki, erməni siyasiləri və politoloqları daim "Azərbaycan onu etməlidir, Bakı bunu etməlidir" deyib, başlarından böyük qələtlər edirlər. Gah sülhün şərtlərindən müsbət danışırlar, gah özlərindən qondarma şərtlər qoyurlar, gah da nədənsə imtina edirlər. Və bütün bunların kökündə Qərbin geosiyasi intriqaçı və qərəzli mövqeyi dayanır.

Əgər Fransa prezidenti "Ermənistanla bağlı tarixi seçim etdik" və "yerimizi möhkəmləndiririk" cəfəngiyatını danışmasaydı, Ermənistan yenidən şıltaqlıq etməzdi. Əgər ABŞ qeyri-müəyyən və Azərbaycanı əsassız ittiham edən mövqe nümayiş etdirməsəydi, rəsmi İrəvan regionun maraqlarına qarşı addım ata bilməzdi.

Bu faktlardan belə nəticə çıxara bilərik: Hazırda Qərb Cənubi Qafqazda geosiyasi parçalanmanı təhrik edən siyasət yeridir. Və məsələnin ən həssas məqamı da bununla bağlıdır. Bu dağıdıcı fəaliyyətdə özünü qabarıq göstərən əlamət Qərb dövlətlərinin açıq şəkildə Ermənistanın haqsız işlərini dəstəkləməsi ilə bağlıdır. Bu vəziyyətin politoloji izahı mümkündür.

## Regional birliyə qarşı kölə psixologiyası

Bəli, görünür ki, Cənubi Qafqazda postmüharibə mərhələsinin başlıca geosiyasi dəyəri əsrlərdir davam edən kölə psixologiyasının "siyasi qanadı"nın sındırılması ilə bağlıdır! Azərbaycanın müstəqil davranışları, qətiyyətli sərbəst mövqeyi və regionda sülh, əməkdaşlıq və qarşılıqlı faydalı qazanc əldəetmə ənənəsini yaratmağa başlaması kənar dağıdıcı qüvvələrin regiona təsiri imkanlarını sıfıra endirir! Bu prosesi dayandırmağa çalışırlar və bunun üçün oyuncaq və siyasi ağlı çox qısa olan erməni rəhbərlikdən istifadə edirlər! Rusiya buna qarşı aktiv fəaliyyət göstərmir, çünki ona da müstəqil, sərbəst və bütöv Qafqaz lazım deyildir. İran passiv müşahidəçi təsiri bağışlayır, lakin dərin qatlarda regionun geosiyasi, siyasi, iqtisadi, energetik, mədəni və kommunikativ bütövləşməsində marağı yoxdur!

Bu, kənarda hansısa, konstruktiv güc axtarışınımı aktuallaşdırır? Qətiyyən elə deyildir! Elə bir addım olsa, bu da Cənubi Qafqazın geosiyasi parçalanmasına aparıb çıxaracaq bir qədər fərqli yol seçilməsi deməkdir. Bu regionun qalmaqalsız və qarşıdurmasız taleyi yalnız qafqazlıların özlərindən asılıdır. Azərbaycan, Gürcüstan və Ermənistan birgə fəaliyyətləri ilə regionda geosiyasi parçalanmanın qarşısını ala bilərlər! Başqa hər hansı formul stratejidə yenidən parçalanmaya gətirib çıxaracaq. Obrazlı desək, "Qafqaz evi"ni yalnız qafqazlılar yarada bilər və onu "təmiz saxlayar"!

## "Qafqaz evi"nə aparan yol

Bunun üçün iki gerçəkliyi, regional geosiyasi həqiqəti Cənubi Qafqaz dövlətlərinin hər biri səmimi qəbul etməlidir.

Birincisi, region dövlətlərinin hər biri qəbul etməlidir ki, Azərbaycan Cənubi Qafqazın lideridir və bu, Bakının bütövlükdə regional gücü təmsil etdiyi anlamına gəlir.

İkincisi, Azərbaycan regional lider kimi konstruktiv geosiyasi mənzərənin yaradılmasının aparıcı təmsilçisidir. Bu faktın iki aspekti vardır: birincisi, keçmiş geosiyasi konfrontasiya mövqeyi, təfəkkürü və psixologiyasından region dövlətləri və cəmiyyətləri imtina etməli, ondan xilas olmalıdırlar; ikincisi, geosiyasi konstruktivlik, sülh, əməkdaşlıq psixologiyasına yiyələnməlidirlər.

Bu iki faktın sintezində bir mühüm tezisi İrəvan və Tbilisi özləri üçün qəbul etməlidir. Bu tezis Ermənistan və Gürcüstanın regional lider olmaq imkanlarına malik olmamaları ilə bağlıdır. Bu, sadə məsələ deyildir. Əsrlərdir, xristianlıq xətti ilə bizim qonşu xalqların şüuruna özlərinin üstün olmaları psixolgiyası yeridilmişdir. Reallıq isə göstərdi ki, Cənubi Qafqazda Azərbaycan xalqı müstəqil və güclü dövlət yaratmaq potensialına daha çox sahibdir. Söhbət tarix boyu onlarla dövlət qurmuş və regionda söz sahibi olmuş bir toplumdan gedir. Tarixi faktdır ki, Ermənistan min il, ümumiyyətlə, dövlət kimi mövcud deyildi, Gürcüstan isə türk dövlətçiliyi ilə sıx bağlı ayaqda qala bilmişdir. Əsasən qonşuluq şəraitində yaşanılmışdır, lakin aparıcı rol oynayan Azərbaycan türk dövlətləri olmuşlar.

İndiki mərhələdə isə Ulu öndərin müstəqil dövlət quruculuğu konsepsiyası ən səmərəli, müsbət nəticəverici və müasir tələblərə tam cavab verən dinamik sistem olduğunu konkret əməldə sübut etmişdir. Azərbaycan Avrasiyada yeganə dövlətdir ki, özü ərazi bütövlüyünü siyasi-hərbi yolla bərpa etmişdir. Həm də Qərb, Rusiya və İranın buna qarşı fəal mövqe tutması şəraitində bunu bacarmışdır! Lakin Ermənistan və Gürcüsatn kənardan daim güclü dəstək görmüşlər. Bununla belə Gürcüstan hələ də ərazi bütövlüyünü təmin edə, Ermənistan isə müstəqil dövlət ola bilməmişdir!

Siyasi ritorikanı və "heç kəs öz ayranına turş deməz" deyimini bir kənara qoysaq, tarixi gerçəkliyin gözünə dik baxmalıyıq. Belə bir şəraitdə Azərbaycanın aparıcı rolu qəbul edilməsə, hansı əsasla Cənubi Qafqazda qalıcı geosiyasi mənzərə yaratmaq mümkündür? Mümkün deyildir!

Onda meydana Cənubi Qafqazın geosiyasi parçalanması prosesini dayandıracaq və onun qarşısını faktiki olaraq kəsə biləcək yeni format çıxır. Bu, bizim qənaətə görə, "Azərbaycan mərkəzli geosiyasi birlik, təhlükəsizlik və əməkdaşlıq" modelidir! Onun konkret məzmunu nədən ibarət ola bilər?

***F.MƏHƏMMƏDOĞLU***
***XQ***

# Mediasiya məişət zorakılığına qarşı mübarizənin önündə

**Cəmiyyəti narahat edən ən aktual məsələlərdən biri yaxın qohumlar arasında, xüsusilə ər-arvad münasibətlərində olan tərəflər arasında baş verən məişət zorakılıqlarıdır. Məişət zorakılığı yaratdığı nəticələrdən asılı olaraq xalqımızın milli mentalitetinə görə toxunulmaz və bütün mənəvi dəyərlərdən üstün hesab etdiyi "ailə" institutunun təməl prinsiplərini ciddi zədələyən hər hansı hüquqazidd hərəkət və ya cinayət hadisəsidir.**

Belə hallara qarşı mübarizə çərçivəsində "Məişət zorakılıqlarının qarşısının alınması haqqında" 22 iyun 2010-cu il tarixli 1058–IIIQ nömrəli Azərbaycan Respublikasının Qanunu və bir çox başqa normativ hüquqi sənədlər qəbul edilmiş, bu məqsədlə aidiyyəti dövlət orqanları və vəzifəli şəxslər qarşısında mühüm tələblər qoyulmuşdur. Lakin nəzərə alsaq ki, məişət zorakılığı birgə yaşayış qaydaları hüdudlarında məişət zəminində yaxın və digər qohumlar, xüsusilə daha çox ər-arvad arasında baş verir, o zaman ona qarşı mübarizə yalnız dövlət orqanlarının və vəzifəli şəxslərin deyil, hər kəsin borcudur.

Bu baxımdan "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununa (29 mart 2019-cu il) əsasən ayrı-ayrı tərəflər arasında ailə münasibətlərindən əmələ gələn mübahisələrin məhkəmədən kənar həllində iştirak edən mediatorların üzərinə böyük məsuliyyət düşür. Ər-arvad münasibətlərinin pozulması bəzən hər hansı hüquqazidd hərəkət və ya məişət zorakılıqları ilə müşayiət edildiyi və "Mediasiya haqqında" Qanuna əsasən, ailə münasibətlərindən irəli gələn mübahisələrə məhkəmədən əvvəl ilk növbədə mediasiyada baxıldığı üçün bu mövzuya diqqət ayrılmasını məqsədəmüvafiq hesab edirik.

Azərbaycan Respublikasının Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 49 min 549 nikah, 19 min 761 nikahın pozulması qeydə alınmışdır. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı azalaraq 6,2-dən 5,3 faizə düşüb, boşananların sayı isə 1,6-dan 2,1-ə qədər artıb. Təcrübə göstərir ki, nikahın pozulmasına qərar vermiş tərəflərin əksəriyyəti bu prosesi sivil qaydada qarşılıqlı anlaşma şəraitində başa çatdırırlar. Bəzən isə bu proses tərəflərin bir-birinə qarşı qarşılıqlı ittihamları, hətta cinayət əməli ola biləcək



hədə və təhdidləri ilə müşayiət olunur.

Bəs belə hallarda baş verə biləcək hüquqazidd əməllərin qarşısının alınmasında mediatorun rolu nədən ibarətdir. Qeyd etdiyimiz kimi, ailə münasibətlərindən irəli gələn mübahisələrə qanunla ilk növbədə mediasiyada baxılır. Ona görə də bir-birinə əks mövqedə dayanan tərəflərin iştirakçısı olduqları mübahisələrinin çözülməsinə qanunla müəyyən edilmiş qaydada mediatorlar da cəlb edilirlər. Beləliklə, mediator müxtəlif xarakterə malik tərəflər arasında mediasiya prosesinin predmeti olan müxtəlif tipli mübahisələrin həllində iştirak edir. Bu zaman mediator mediasiya qanunvericiliyinin ona verdiyi imkanlardan, öz peşə bacarıqlarından və həyat təcrübəsindən istifadə edərək;

a) mübahisə tərəflərinin hər ikisini mediasiya prosesinə cəlb etməklə onlara aralarında olan fikir ayrılıqlarını başqa, daha uyğun mühitdə tərəfsiz və qərəzsiz vasitəçinin köməyi ilə birgə müzakirəsini təmin edir;

b) mediasiyanı qapalı, konfidensiallıq şəraitində keçirməklə tərəflərə heç bir kənar müdaxilə olmadan öz mülahizələrini daha geniş ifadə etmək imkanı yaradır;

c) boşanmaqda israrlı olub uşaqlarının gələcək taleyinə biganə olan, aliment və əmlak bölgüsü ilə razılaşmayan tərəfi həyat təcrübəsindən nümunələr söyləməklə və düşündürücü suallar verməklə təsirləndirir;

ç) bir-birinə qarşı barışmaz mövqedə olan, öz hisslərinə sahib ola bilməyən, hədə və təhdidlərlə çıxış edən tərəfləri səbir, təmkin və " özünə qayıt" prinsipi ilə intizama dəvət edir;

d) tərəflər arasında gələcəkdə hər hansı hüquqazidd hərəkət, məişət zorakılıqları, ağır və xüsusilə ağır cinayət hadisələrinin baş vermə ehtimalı olarsa, belə hadisələrin ağır nəticələrini xatırladıb, onları bu kimi əməllərdən çəkindirir.

Beləliklə, mediator mediasiya prosesi zamanı biri-birinə qarşı kəskin əks mövqedə dayanan tərəflərin mövqeyini yaxınlaşdırır, bir çox halda onları barışdırır, ən pis halda isə tərəflər arasında baş verə biləcək arzuolunmaz hadisələrin, məişət zorakılıqlarının qarşısının alınmasına yönələn zəruri hərəkətlər etmiş olur.

Konfidensiallığı qorumaq şərti ilə ad çəkmədən təcrübədə rast gəldiyimiz bir mediasiya prosesinin nəticələrini oxucularla bölüşmək istərdik.

Birinci tərəf ər nikahın pozulması üçün mediasiyaya müraciət edib. Mediator hər iki tərəfi təyin olunmuş ilkin mediasiya sessiyasına dəvət edir. Ər təyin olunmuş vaxtda gəlib. Bu zaman ikinci tərəf – xanım zəng edib gecikdiyi üçün üzrxahlıq edir və mediasiya keçiriləcək yeri tapmaqda çətinlik çəkdiyini bildirir. Mediator kömək məqsədi ilə həmin xanımı qarşılamağı birinci tərəfə (ərinə) təklif edir. Bu zaman ər nəinki onu qarşılamağı, görmək belə istəmədiyini, çoxdandır ayrı-ayrı məkanda yaşadıqlarını və onunla bir masa arxasında oturmağın mümkün olmadığını bildirir. Tərəflər yığışır, ilkin mediasiya prosesi uzun vaxt aparır. Tərəflər başqa vaxtda prosesin davam etdirilməsi üçün razılığa gəlirlər. Qısa qış günü olduğu üçün artıq hava qaralmışdır. Bu zaman heç bir təklif gözləmədən ər: "hava qaranlıqdır, gəl səni maşınla evə aparım" – deyə xanımına nəzakətlə müraciət edir. Bir neçə gün sonra mediator növbəti mediasiya prosesinin keçiriləcəyi günü xatırlatmaq üçün xanıma zəng edir. Xanım biz artıq barışmışıq, birlikdə barışıq sazişi bağlamaq üçün gələcəyik: "Buyurun yoldaşımla danışın" – deyib mobil telefonunu ərinə ötürür.

***Rə qulu HACIYEV,***
***Bakı 12 saylı Mediasiya təşkilatının mediatoru***

# AŞPA Fransanın diqtəsi ilə qərarlar çıxarır

**Azərbaycan 20 ildən artıqdır ki, Avropa Şurasının üzvüdür. Bu müddətdə AŞPA davamlı olaraq Azərbaycana ikili standartlar əsasında qərəzlə yanaşıb. Qurumun ötən həftə Azərbaycan nümayəndə heyəti ilə bağlı qəbul etdiyi tələsik və ədalərsiz qərar isə bu bədxah yanaşmanın zirvəsi oldu. Saxta bəhanə isə bu oldu ki, guya, Azərbaycan AŞ qarşısında üzərinə götürdüyü mühüm öhdəlikləri yerinə yetirmir, insan hüquqları pozulur.**

Bir buna baxın, kimlər "azad və ədalətli seçkilərdən, hakimiyyət bölgüsündən, qanunvericilik orqanının icraya qarşı zəifliyindən" danışır, Azərbaycana "məhkəmə hakimiyyətinin müstəqilliyini, insan haqlarına hörməti" öyrətməyə çalışır. Onlar niyə unudurlar ki, ABŞ, Avropa İttifaqı, Fransa və Almaniyada günahsız insanlar dini, irqi, milli mənsubiyyətinə görə öldürülür, mətbuat mənsublarının həbsi davam edir.

Bəzi Avropa ölkələrində jurnalistlərin yazılarına görə saxlanılması adi haldır. Bu ölkələrə Polşa, Finlandiya, Fransa, İngiltərə və İtaliya daxildir, Polşada ispan jurnalist Pablo Qonzales Rusiya–Ukrayna müharibəsi başlayandan dərhal sonra "rus agenti olmaq" ittihamı ilə həbs edilib. O, həbsdə olandan 9 ay sonra ailəsi ilə görüşə bilib. Güman edirəm ki, AŞPA deputatları "təhlükəli məhbus" sayılan və ağır şəraitdə həbsdə saxlanılan jurnalist Pablo Qonzalesi xatırlamırlar.

Finlandiyada 2 jurnalist 16 dekabr 2017-ci il tarixində Helsinkinin "Sanomat" qəzetində Finlandiya Müdafiə Kəşfiyyat İdarəsi haqqında məlumat yaydığına görə yanvar ayında məhkəmə tərəfindən milli sirləri açıqlamaqda təqsirli bilinib. Xəbər dərc ediləndən 4 il sonra jurnalistin məhkəməyə çağırılması etirazlarla qarşılandı.

Fransada isə 3 jurnalist 2018-ci ildə ölkə ordusunda uzun illər korrupsiyaya yol verdiyinə dair 2018-ci il xəbərlərinə görə Fransa Daxili Kəşfiyyat Xidməti (DGSI) tərəfindən 2022-ci ildə ifadə verməyə çağırılıb. 2023-cü ildə Fransada keçirilən irimiqyaslı etiraz aksiyalarını işıqlandıran jurnalistlər polis zorakılığına məruz qalıblar. Yerlə sürüklənən etirazçıların məruz qaldığı qeyri-mütənasib zorakılıq AŞPA-nın diqqətini çəkmirmi? Belə faktlar AŞ ölkələrində kifayət qədər çoxdur.

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov haqlı olaraq bildirib ki, etimadnamələrin qəbul edilməməsi üçün irəli sürülən səbəblər əsassızdır və Azərbaycana qarşı qərəzin dərin köklü təzahürüdür: "Nümayəndə heyətimizin etimadnaməsini ratifikasiya etməkdən imtina etmək AŞPA-nın və ümumilikdə Avropa Şurasının reputasiyasına ciddi zərbə olardı və onun ağır nəticələrinə görə məsuliyyət bu addımın təşəbbüskarlarının üzərinə düşür". Səməd Seyidov etimadnamələrin qəbul edilməməsi cəhdinin Azərbaycana qarşı aparılan qərəzli kampaniyanın tərkib hissəsi olduğunu qeyd edib: "Bəzi qərəzli qruplar öz dar maraqları naminə AŞPA-nın təməl prinsiplərindən sui-istifadə edirlər. Siyasi korrupsiya, ayrı-seçkilik, "etnik və dini nifrət, ikili standartlar, təkəbbür və şovinizm AŞPA-da hakim praktikaya çevrilib".

AŞPA-nın Ukrayna və Türkiyədən olan yalnız iki üzvü qərara qarşı çıxıb. Azərbaycanla dost ölkənin hansısa deputatlarının belə çirkin oyuna qoşulması utangətirici addımdır və kəskin qınanılmalıdır.

Göründüyü kimi, AŞPA-dan bəzi üzv ölkələrə qarşı hücumlar üçün aşkar platforma kimi istifadə olunur. Bu qurumun səhnəsində göstərilən bir çox tamaşaların ssenari müəllifi və rejissoru isə XXI əsrdə də müstəmləkəçilik siyasətindən əl çəkməyən Fransadır.

**Seyfəddin AYAKSOY,**
**Manisa Azərbaycan Mədəniyyət Evinin rəhbəri**

# Azərbaycan demokratik inkişaf tarixinə daha bir uğur səhifəsi yazacaq

## MDB müşahidəçiləri qərargahının rəhbəri ilə görüş

**Yanvarın 31-də Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Müstəqil Dövlətlər Birliyi müşahidə missiyası qərargahının rəhbəri Yevgeni Kozyak və qərargahın üzvü Andrey Adamuşka ilə görüşüb.**



Yevgeni Kozyak MDB müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verib. O, MDB-nin Azərbaycanda seçkilərlə əlaqədar geniş müşahidə təcrübəsinə malik olduğunu və fevralın 7-də keçiriləcək prezident seçkilərinə böyük maraq göstərdiklərini söyləyib. Onun sözlərinə görə, paytaxtda və regionlarda seçkiqabağı vəziyyətlə bağlı aparılan ilkin müşahidələr seçkilərə hazırlığın yüksək səviyyədə olduğunu və bütün namizədlərə bərabər imkanların yaradıldığını göstərir.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın zəngin seçki təcrübəsinə malik olduğunu, qarşıdan gələn prezident seçkilərinin də ədalətli, şəffaf və demokratik keçirilməsi üçün zəruri şəraitin təmin edildiyini bildirib. Hazırda uğurla davam edən seçkiqabağı təşviqat kampaniyası haqqında məlumat verən T.Budaqov Azərbaycan vətəndaşlarının seçkilərə böyük maraq göstərdiklərini vurğulayıb.

YAP Sədrinin müavini indiyədək MDB müşahidə missiyalarının ölkəmizdəki fəaliyyətinin önəminə diqqət çəkərək, budəfəki missiyaya da uğurlar arzu edib.

## Rusiya azərbaycanlıları harada səs verəcəklər?

**Ölkəmizin Rusiyadakı səfirliyi Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı məlumat yayıb. Məlumatda bildirilir ki, Azərbaycanın Rusiyadakı səfirliyində, eləcə də Sankt-Peterburq və Yekaterinburqdakı baş konsulluqlarında seçki məntəqələri açılacaq.**




Səsvermədə 18 yaşına çatmış, daimi və ya uzun müddət Rusiya Federasiyasının ərazisində yaşayan Azərbaycan vətəndaşları iştirak edə bilərlər. Bunun üçün seçki məntəqəsinin nümayəndələrinə Azərbaycan vətəndaşının etibarlı pasportunu və ya şəxsiyyət vəsiqəsini təqdim etmək lazımdır. Prezident seçkiləri dövründə Rusiyaya səfər etməyi planlaşdıran və səs vermək istəyən vətəndaşlardan da həmin sənədləri özləri ilə götürmələri xahiş olunur.

Seçki məntəqələri yerli vaxtla saat 08:00-dan 19:00-dək açıq olacaq.

Seçki məntəqələrinin ünvanları:

**Moskva şəhəri, Voznesenski prospekti, 15;**

**Sankt-Peterburq şəhəri, 2-ci Sovetskaya küçəsi, 27;**

**Yekaterinburq şəhəri, Karl Liebknecht küçəsi, 5.**

## Seçki bülletenlərinin paylanması davam edir

**Fevralın 7-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlanılıb. Mərkəzi Seçki Komissiyasının qərarı ilə 6 milyon 524 min 203 seçki bülleteni çap olunub. Səsvermə gününə azı 3 gün qalmışadək bülletenlər dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına veriləcək.**

Seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər Seçki Məcəlləsinə əsasən MSK-nın qərarı ilə müəyyən olunur. Seçki Məcəlləsinin 199-cu maddəsi prezident seçkiləri üzrə seçki bülletenində prezidentliyə namizədlərin təqdimatını əhatə edir.



Həmin maddəyə əsasən, prezidentliyə namizədlərin əlifba sırası ilə soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yeri, əsas iş və ya xidmət yeri (bu olmadıqda — fəaliyyət növü), habelə qeydə alınmış prezidentliyə namizədi kimin irəli sürdüyü göstərilməlidir.

Seçki bülletenində bu Məcəllənin 54-cü maddəsinə uyğun olaraq qeydə alınmış prezidentliyə namizədin mənsub olduğu siyasi partiyanın qısa adı göstərilməlidir. Seçki bülletenində bu Məcəllənin 53-cü maddəsinə uyğun olaraq qeydiyyatdan keçmiş prezidentliyə namizədin partiya mənsubiyyəti onun arzusu ilə göstərilə bilər.

Prezidentliyə namizədlərin soyadından sağda boş kvadrat yerləşir. Seçici seçki bülletenində səs verəcəyi prezidentliyə namizədin soyadından sağdakı kvadratda işarə qoyur. Birdən çox boş kvadratda işarə qoyulduqda və ya heç bir işarə qoyulmadıqda səs etibarsız sayılır.

## DSK-larda müşahidə müraciətinin müddəti başa çatır

**Fevralın 7-də keçiriləcək prezident seçkilərində seçki dairəsinin ərazisində müşahidə aparılmasına dair ərizələrin müvafiq seçki dairəsinin dairə seçki komissiyasına təqdim edilməsi üçün ayrılan müddət sabah başa çatır.**



Secki-2024.az saytı xəbər verir ki, Seçki Məcəlləsinə əsasən, aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı (öz təşəbbüsü ilə, habelə qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında) seçkilərin təyin edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək seçki dairəsinin ərazisində müşahidə aparılmasına dair ərizələri müvafiq seçki dairəsinin dairə seçki komissiyasına təqdim etməlidir.

Növbədənkənar prezident seçkiləri ilə əlaqədar bu müddət 2024-cü il fevralın 2-dək olan dövrü əhatə edir.

## ATƏT Missiyası Baş Prokurorluqda

**Dünən Baş prokurorun birinci müavini Elçin Məmmədov ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının rəhbəri Ouen Mörfinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bu il fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkilərinin azad və demokratik şəraitdə keçirilməsi, seçicilərin azad şəkildə öz iradələrini ifadə etməsi məqsədi ilə görülən işlərdən danışan Elçin Məmmədov seçki qanunvericiliyinin pozulması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələr barədə ətraflı məlumat verib.

Ouen Mörfi ölkəmizdə olduğu müddətdə keçirdiyi görüşlərin əhəmiyyətindən söz açaraq azad seçki mühitinin və kampaniya ilə əlaqədar şikayətlərə vaxtında hüquqi qiymət verilməsinin önəmini vurğulayıb. Missiya rəhbəri Mərkəzi Seçki Komissiyası ilə yanaşı, prokurorluq orqanlarının da maarifləndirmə sahəsindəki əməyini yüksək qiymətləndirib.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Cocuq Mərcanlı 3-cü seçkiyə hazırdır

**Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd sakinləri hazırda növbədənkənar prezident seçkilərinin ovqatı ilə yaşayırlar. "Böyük Qayıdış" proqramına uyğun olaraq doğma yurd-yuvalarına ilk qayıdanlar məhz bu kəndin sakinləridir. Ona görə də cocuq mərcanlılar ata-baba yurdlarında üçüncü dəfədir ki, seçki keçirəcəklər.**

İlk dəfə 2018- ci ildə keçirilən növbədənkənar prezident seçkilərində iştirak ediblər. 24 illik fasilədən sonra kənddə seçki məntəqəsi yaradıldı və ilk dəfə öz doğma torpaqlarında səs verdilər. 120 saylı Cəbrayıl-Qubadlı Seçki Dairəsinin 73 saylı seçki məntəqəsi iki il sonra – 2020- ci ildə parlament seçkilərini yüksək səviyyədə başa vurdu. İndi isə kənd sakinləri növbəti seçkilərə hazırlaşırlar. Fevralın 7- də keçiriləcək növbədənkənar prezident seçkiləri cocuq mərcanlıların doğma kəndlərində keçirəcəkləri 3 -cü seçki olacaq.



Xatırladaq ki, 1994-cü ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ordumuzun həyata keçirdiyi və müasir hərb tariximizə azadlıq döyüşü kimi yazılan uğurlu Horadiz əməliyyatı zamanı Füzuli rayonunun 22 kəndi ilə bərabər Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi də işğaldan azad edilmişdi. 2016-cı ilin aprelində Azərbaycan Ordusu Ermənistan işğalçıları qüvvələrinin təxribatına layiqli cavab verməklə tariximizə daha bir şanlı səhifə yazdı. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağımız, o cümlədən Lələtəpə yüksəkliyi işğaldan azad olundu. Ordumuz strateji əhəmiyyətli əraziləri nəzarətə götürdü. Nəticədə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində həyat öz axarına döndü. 2017-ci ildən başlayaraq sakinlərin öz kəndində yenidən məskunlaşması doğma yurda böyük qayıdışın möhtəşəm başlanğıcı oldu. Bu qayıdış əsl qəhrəmanlıq salnaməsi, torpağa bağlılığın parlaq nümunəsi idi. Cocuq Mərcanlıda ilkin olaraq, 50 mənzil və 100 yerlik məktəb binası tikildi, müvafiq infrastruktur yaradıldı. Sonradan əlavə 100 ev, uşaq bağçası, həkim məntəqəsi, digər zəruri sosial və infrastruktur obyektləri tikilib sakinlərin ixtiyarına verildi. İndi Cocuq Mərcanlı kəndi inkişaf etmiş rayon mərkəzinə bənzəyir.




Kənddə yaradılmış 73 saylı məntəqə seçki komissiyasının sədri zamin Həziyevlə söhbətləşirik. O həm də kənd məktəbinin direktorudur. Deyir ki, kənd sakinləri artıq 3-cü seçkiyə hazırlaşır. Uşaqdan-böyüyə hamı xoş əhval-ruhiyyədədir. Prezident seçkiləri mühüm siyasi əhəmiyyət kəsb edir. Bu seçkilərdə ölkəmizin gələcək taleyinin kimə etibar edilməsini müəyyənləşdirməliyik. Ona görə də son dərəcə diqqətli olmalıyıq. Elə məntəqədə səs verəcək 355 seçici də bu barədə düşünür. Hətta kəndin ən yaşlı sakinlərindən 2 nəfərin fiziki imkanları seçki məntəqəsinə gəlməyə imkan verməsə də onlar evdə səs verəcəkləri barədə qabaqcadan bizə məlumat veriblər. Komissiya üzvləri onların evlərinə daşınan qutu aparacaq və səsvermədə iştiraklarını təmin edəcəyik.

Z.Həziyev dedi ki, seçki məntəqəsi seçicilərin yolunu gözləyir. Məntəqə seçkiyə tam hazırdır. Seçici siyahıları münasib yerdən asılıb. Səsvermə kabinələri, seçki qutuları, gözlə görünməyən mürəkkəb balonları, ultrabənövşəyi lampalar, digər ləvazimatlar vaxtında çatdırılıb. Komissiya üzvləri MSK tərəfindən təşkil olunmuş treninqlərdə iştirak edib və seçkiyə dair bilik və bacarıqlarını daha da artırıblar. Prezidentliyə namizədlərin təşviqatı üçün yaradılmış dəmir lövhədə hər bir namizədə bərabər səviyyədə yer ayrılıb. Əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də heç bir narazılıq və ya şikayət daxil olmayıb. Əhalinin əhval-ruhiyyəsindən də hiss edirik ki, seçki mütəşəkkil keçəcək.

**Esmira Orucova, Cocuq Mərcanlı sakini:**

– Artıq 7 -ci ildir ki, doğma kəndimizdə, el-obamızda yaşayırıq. Bu illərdə çoxlu bayramlar, el şənlikləri keçirmişik. İki dəfə səsvermədə iştirak etmişik. Hər iki seçkini yüksək əhval -ruhiyyədə başa vurmuşuq. Bir həftədən sonra üçüncü seçkini keçirəcəyik. Bu, çox əhəmiyyətlidir. Çünki Ermənistan üzərində qazandığımız tarixi Qələbədən sonra ilk prezident seçkiləridir. Təsadüfi deyil ki, bu seçkiləri haqlı olaraq Zəfər seçkiləri adlandırırlar. Builki seçkilərin əhəmiyyəti bir də ondadır ki, Azərbaycanın bütün ərazisində keçiriləcək. Bu, həm Ermənistana, həm də onun havadarlarına göz dağıdır. Ötən seçkilərdə olduğu kimi, bu dəfə də azad, ədalətli və demokratik seçki keçirməklə dünyaya daha bir nümunə nümayiş etdirəcəyik.

**Bağdat Mansırxanov:**

– Yaşımın çox olmasına baxmayaraq, əvvəlki seçkilərdə olduğu kimi, prezident seçkilərində şəxsən iştirak edəcəyəm. Hazırda Azərbaycanın bütün ərazisində Azərbaycan Bayrağının dalğalanması hərr bir azərbaycanlını kimi, məni də qürurlandırır. Azərbaycanın vətəndaşı olmağımla fəxr edirəm. Hazırda keçmiş məcburi köçkünlər böyük həvəslə, ruh-yüksəkliyi ilə doğma el-obalarına qayıdırlar. Dövlətimiz həm bizə, həm də onlara hər cür şəraiti olan ev tikib hədiyyə edib. Bəzi rayonların sakinləri ilk dəfə olaraq öz yurdlarında səs verəcəklər. Bundan böyük sevinc olarmı? Kəndimizin bütün seçki hüquq olan sakinləri səsvermədə iştirak edib ən layiqli namizədə səs verəcək.

## Azərbaycandakı prezident seçkiləri Qazaxıstan mediasında

**Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri beynəlxalq aləmin diqqət mərkəzindədir. Bu günlərdə daha bir ölkənin – Qazaxıstanın rəsmi "İnform.kz" informasiya agentliyi Azərbaycandakı seçkilərlə bağlı geniş məqalə dərc edib.**



"Tarixi məqam və yeddi namizəd: Azərbaycanda prezidentlik yarışı ilə bağlı məlum olanlar" başlığı ilə yayımlanan yazıda Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunduğu nəzərdə tutularaq növbədənkənar seçkilər "Qələbə seçkisi" kimi xarakterizə edilib.

Müəllif qeyd edir ki, 2024-cü ildə 2 milyarddan çox seçicinin səs verəcəyi təxmin edilən dünyanın 64 ölkəsində seçkilər gözlənilir. Növbədənkənar prezident seçkilərinin keçiriləcəyi bu il seçki yarışını ilk açan Azərbaycan olacaq. Ölkə artıq bu prosesi "qələbə" seçkisi kimi təyin edib ki, bu da Azərbaycan xalqının ərazi müstəqilliyini və suverenliyini daha da möhkəmləndirmək iradəsinin ifadəsi deməkdir. Azərbaycan Seçki Məcəlləsindən irəli gələn prosedurlara yer verib. Seçki prosesindəki ardıcıllıqlar, habelə prezidentliyə namizədlərin proqramı haqqında məlumatlar da göstərilib.

"Kazinform"un müxbiri seçki prosesinin necə getdiyinə, ölkənin ən yüksək vəzifəsinə kimin iddialı olduğuna, namizədlərin seçki proqramlarının nədən ibarət olduğuna, proqnozların nə olduğuna diqqət yetirib.

Məqalədə beynəlxalq müşahidəçilərin də seçki prosesini izləyəcəkləri yer lıb. Bildirilir ki, Azərbaycanda keçiriləcək seçkiləri MDB Parlamentlərarası Assambleyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, Şanxay Əməkdaşlıq Təşkilatı və digər təşkilatların nümayəndələri müşahidə edəcəklər. Qazaxıstan Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərinə 19 müşahidəçi göndərəcək. Bu barədə Qazaxıstan Respublikasının Mərkəzi Seçki Komissiyası məlumat yayıb.

***Səhifəni hazırladı: Əliqismət BƏDƏLOV XQ***

# Azərbaycan–İİB əməkdaşlığının miqyası və hədəfləri genişlənir



(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, ölkəmizlə bu bank arasında uğurlu və səmərəli əməkdaşlığı bir sıra amillər şərtləndirib. Başqa sözlə, İİB-in respublikamıza investisiya qoyuluşuna uzun illər ərzində davamlı maraq göstərməsi Azərbaycanda siyasi cəhətdən sabitliyin hökm sürməsi, milli, dini və irqi tolerantlığın diqqət mərkəzində saxlanılması ilə bağlı olub. Ölkəmizdə uğurla gerçəkləşdirilən islahatlar sayəsində əlverişli biznes və investisiya mühitinin bərqərar olması, nəticədə iqtisadiyyatın bir neçə dəfə artması, Azərbaycanın dünyanın ən dinamik inkişaf edən iqtisadiyyatına malik dövlət kimi tanınması, özünün nadir iqtisadi inkişaf modelini yaratması və digər məsələlər də burada önəmli rol oynayıb.

Şübhəsiz ki, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul edilməsi, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzə çevrilməsi, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırıb. Eyni zamanda Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirib.

Qeyd edək ki, mövcud qanunvericiliyə əsasən, investisiyanın təşviqi sənədini alan şəxslərdən, habelə fərdi sahibkarlardan ölkəyə idxal olunan texnika, texnoloji avadanlıq və qurğulara görə, ƏDV, habelə gömrük rüsumu tutulmaması, Azərbaycanda istehsal olunan qeyri-neft məhsulları ixracının təşviqi ilə əlaqədar müəyyən güzəştlərin gerçəkləşdirilməsi kimi tədbirlərin həyata keçirilməsi də beynəlxalq maliyyə təsisatlarının, o cümlədən İİB-nin ölkəmizə etimadını artırıb, bu maliyyə strukturunun müxtəlif layihələrdə iştirakını şərtləndirib.

Onu da vurğulayaq ki, maliyyə qurumu ilə əlaqələrimiz yarandığı vaxtdan indiyədək qarşı tərəf respublikamızda reallaşdırılan layihələrə dəstək verib. Həyata keçirilən birgə layihələr Azərbaycanda iqtisadiyyatın, o cümlədən infrastrukturun inkişafı baxımından mühüm önəm daşıyıb. Bank ölkəmizin müxtəlif sahələrdə, o cümlədən "Elektron hökumət" sistemində əldə etdiyi uğurlu təcrübəni yüksək dəyərləndirib.

İİB-nin respublikamızın iqtisadi inkişafına göstərdiyi dəstəklə bağlı bəzi məqamları da nəzərdən keçirək. Bununla əlaqədar əvvəlcə onu deyək ki, sözügedən maliyyə qurumu birgə əməkdaşlıq layihələrinə yönəldilən investisiyaların həcmini davamlı şəkildə artıraraq kiçik və orta sahibkarlığın stimullaşdırılmasını xüsusi diqqətdə saxlayır. Ölkəmizin bank sisteminin sabit və dinamik inkişaf meyillərinə malik olması isə İİB-ni Azərbaycandakı kommersiya banklarına dəstək verməyə sövq edir. Bununla yanaşı, bank respublikamızda iri regional layihələrin, eləcə də trans-nəqliyyat və kommunikasiya şəbəkələrinin yaradılması istiqamətində də sıx əməkdaşlığa üstünlük verir.

Yeri gəlmişkən, Azərbaycan İİB ilə bərabər, həm də onun daxil olduğu İslam İnkişaf Qrupundakı institutlarla da uğurla əməkdaşlıq edir, özəl sektorun inkişafı istiqamətində birgə layihələr reallaşdırır. Bərpaolunan enerji, dövlət-özəl əməkdaşlığı təşəbbüslərinin, kiçik və orta biznesin inkişaf proqramlarının gerçəkləşdirilməsi bunun bariz ifadəsidir. Son illərdə ölkəmizdə iqtisadi inteqrasiya, inklüziv iqtisadi artım, ixrac imkanlarının genişləndirilməsi, eləcə də rəqabət qabiliyyətliliyin yüksəldilməsi ilə bağlı müsbət göstəricilərin əldə edilməsi də həmin birgə fəaliyyətin məntiqi nəticəsidir.

İİB Azərbaycanla strateji tərəfdaşlığın möhkəmlənməsinə mühüm təsir göstərən birgə subregional və regional layihələrin həyata keçirilməsində, biznes strukturlarının əhatə dairəsinin genişlənməsində maraqlıdır. Bu, həm də yuxarıda xatırlatdığımız kimi, bankın ölkəmizə olan böyük marağının və respublikamızda yüksək iqtisadi inkişafı dəstəkləməsinin bariz nümunəsidir.

Respublikamızın bu maliyyə qurumuna üzv qəbul edildiyi 1992-ci il iyulun 4-dən başlayan birgə əməkdaşlığı getdikcə dərinləşir. Hazırda ölkəmizin bankda üzvlük kapitalı 50,8 milyon İslam dinarı təşkil edir. Bu da İİB-nin ümumi kapitalının 0,1 faizi deməkdir.

İİB-nin daxil olduğu İslam İnkişaf Qrupu tərəfindən indiyədək Azərbaycana 1 milyard 179 milyon ABŞ dolları vəsait yönəldilib. Həmin vəsaitin 956 milyon dolları İİB, 83 milyon dolları Beynəlxalq İslam Ticarətin Maliyyələşməsi Korporasiyası, 120 milyon dolları İslam İnkişaf Korporasiyası və 194 milyon dolları isə digər mənbələrdən ayrılıb.

Bank ötən illərdə Azərbaycanda həyata keçirilən bir sıra dövlət əhəmiyyətli layihələrə kreditlər ayırmaqla onların icrasını yüksək səviyyədə gerçəkləşdirib. Məsələn, Bakı bərk məişət tullantılarının yandırılması zavodunun tikintisi, Yevlax–Gəncə avtomobil yolunun, həmçinin Mingəçevir SES-in yenidən qurulması, Vəlvələçay-Taxtakörpü kanalının inşası, Cənub İstilik Elektrik Stansiyasının tikintisi və digər layihələrin reallaşdırılmasını uğurla həyata keçirib.

Ümumiyyətlə, İİB tərəfindən indiyədək Azərbaycan iqtisadiyyatına 40-dan çox layihə çərçivəsində 1 milyard dollarına yaxın investisiya yatırılıb. Həmin layihələr kənd təsərrüfatı, enerji, nəqliyyat, sosial, su təchizatı, ekologiya, ticarət, özəl sektor və s. sahələri əhatə edib. Eyni zamanda bankın Azərbaycanda özəl sektora investisiya yatırılması, müəssisələrin birbaşa maliyyələşdirilməsi, səhm kapitalında iştirak kimi sahələrdə fəaliyyətinin genişləndirilməsi, eləcə də kənd təsərrüfatı, sənaye parkları və zonaları, maşın və avadanlıqların istehsalı, kimya sənayesi, əczaçılıq kimi prioritet sahələrdə investisiya əməkdaşlığının genişləndirilməsi kimi mühüm məsələlər diqqət mərkəzində saxlanılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

# Strateji valyuta ehtiyatlarımız 66,5 milyard dollara çatıb

**2023-cü ildə Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları 29,1 faiz artaraq 11,6 milyard dollara çatıb. Bütövlükdə isə, ötən ilin sonlarında Azərbaycanın strateji valyuta ehtiyatları 66,5 milyard ABŞ dolları təşkil edib. Bu da əvvəlki ilin yekunu ilə müqayisədə 17 faiz çoxdur. Bu və digər məsələlər barədə Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov faiz dəhlizinin parametrləri ilə bağlı dünən keçirdiyi mətbuat konfransında ətraflı məlumat verib.**

Azərbaycan Mərkəzi Bankının 2024-cü ildə ölkədə iqtisadi artımın, təxminən, 3,5 faiz səviyyəsində proqnozlaşdırdığını diqqətə çatdıran T.Kazımov bildirib ki, gələn il isə ümumi daxili məhsulun artımı 3-4 faiz səviyyəsində nəzərdə tutulur. Qeyd olunub ki, ötən ilin yekunlarına əsasən, Azərbaycanın cari əməliyyatlar büdcə xərclərinin dinamikasını və kredit aktivliyini daxili tələb faktorları kimi daim diqqətlə izlədiyini deyən T.Kazımovun bildirdiyinə görə, valyuta alışları bank sistemində likvidliyin artmasına şərait yaradıb. O, həmçinin qeyd edib ki, son 2 ildə olduğu kimi, 2024-cü ildə də Mərkəzi Bankın valyuta bazarına müdaxiləsi alış-



balansının profisiti 10 milyard ABŞ dollarına yaxın olacaq. Mərkəzi Bank sədrinin sözlərinə görə, ortamüddətli dövrdə –2024–2025-ci illərdə isə bu göstərici 7 milyard dollar səviyyəsində proqnozlaşdırılır.

2024-cü ildə inflyasiya proqnozunun dəyişməz saxlanıldığını vurğulayan T. Kazımov deyib ki, keçən ilin oktyabrında olduğu kimi, bu ilin yanvar proqnozlarına görə də, illik inflyasiyanın hədəf daxilində qalacağı gözlənilir. Bildirilib ki, Mərkəzi Bankın İdarə Heyətinin pul siyasətinə həsr edilmiş ötən iclasından bəri illik inflyasiya tempi azalıb. "2023-cü ildə 12 aylıq inflyasiya 2,1 faiz təşkil etməklə hədəf (4±2 faiz) diapazonunun aşağı hissəsində formalaşıb. İnflyasiyada istehlak səbətinin bütün qrup komponentləri üzrə azalma müşahidə edilib. Belə ki, illik ərzaq inflyasiyası 0,8 faiz, qeyri-ərzaq inflyasiyası 2,7 faiz, xidmətlər inflyasiyası isə 3,7 faiz təşkil edib. Faktiki inflyasiyanın dinamikası inflyasiya gözləntilərinə də təsir edib", – deyə Taleh Kazımov əlavə edib.

İdxal inflyasiyasına azaldıcı təsir göstərən əsas amilə toxunan Mərkəzi Bankın sədri deyib ki, ötən il valyuta bazarında tarazlıq inflyasiya idxalının məhdudlaşmasında xüsusi rol oynayıb. Yeri gəlmişkən, Azərbaycan Mərkəzi Bankı ölkəmizdə inflyasiyaya təsir edə biləcək risklərin mövcudluğu ilə bağlı açıqlama yayıb. Qeyd olunur ki, geosiyasi gərginliklərin davam etməsi dünya bazarında müxtəlif əmtəələr üzrə qiymətlərin yenidən artmasına səbəb ola bilər. Belə ki, son vaxtlar Qırmızı dəniz ətrafında yaranmış vəziyyət qlobal təchizat zəncirinə ciddi təsir göstərir. "Beynəlxalq təşkilatlar 2024-cü ilə enerji qiymətləri proqnozlarını yüksək saxlayırlar. İqlim dəyişiklikləri də ərzaq qiymətlərinə təsir göstərməkdə davam edir. Lakin qlobal iqtisadi aktivliyin zəifliyi və əksər iqtisadiyyatlarda monetar şəraitin sərt olaraq qalması qlobal inflyasiya proseslərinə azaldıcı təsir göstərə bilər",–deyə açıqlamada bildirilir.

Mətbuat konfransında qeyd olunub ki, 2023-cü ildə Mərkəzi Bankda keçirilmiş valyuta hərracının 92 faizində təklif tələbi üstələyib. Hesabat ilində manatın nominal effektiv məzənnəsinin 19,3 faiz bahalaşdığını vurğulayan Mərkəzi Bankın sədrinin sözlərinə görə, bu da idxal inflyasiyasına azaldıcı təsir göstərən əsas amildir.

2023-cü ildə Mərkəzi Bankın valyuta bazarında alışyönlü müdaxiləsinin həcmi 2,1 milyard dollar olub. Bankın yönlü ola bilər.

Manatla pul bazasına gəldikdə isə, ümumilikdə, 2023-cü ildə bu göstərici üzrə 19,6 faiz artım qeydə alınıb ki, bunun da 14,6 faiz bəndi dekabr ayında baş verib. Diqqətə çatdırılıb ki, pul siyasəti alətləri pul siyasətindən kənar olan avtonom amillərin monetar şəraitə təsirlərinin neytrallaşdırılmasına və faiz ötürücülüyünün gücləndirilməsinə xidmət edib. Taleh Kazımovun bildirdiyinə görə, daimi imkan və açıq bazar əməliyyatlarının aparılması pul bazarında milli valyutada banklar arasında həm təminatlı, həm də təminatsız bağlanan əqdlərin orta çəkili faiz dərəcələrinin Mərkəzi Bankın faiz dəhlizi ilə eyni istiqamətdə hərəkətini təmin edib. Ümumilikdə isə, pul siyasəti ilə bağlı görülən işlərin əsas məqsədi banklararası uzunmüddətli kredit və depozitlərə təsirlə bağlıdır: "Biz yumuşalma siyasəti aparırıq. Biz uçot dərəcəsini azaldırıq. Növbəti məqsəd bu faizlər banklarda depozitlərə təsir etsin. Cari hesablara ödənilən faizlərə olan təsiri görürük, Repo Bazarına təsir edir. Mərkəzi Bankın açıqladığı indekslərə baxmanızı tövsiyə edirəm. Orda pul siyasətimizin banklar arasında və korporativ bazarlara olan təsirini görəcəksiniz".

Azərbaycan Mərkəzi Bankı bu ildən yerli bankları da broker (vasitəçi) xidmətlərinə cəlb etmək niyyətindədir. Ölkədə fəaliyyət göstərən bankların geniş filial şəbəkəsinə malik olduğunu diqqətə çatdıran Taleh Kazımovun fikrincə, bu addım kapital bazarının daha da genişlənməsinə şərait yaradacaq. "Bu sahədə kifayət qədər, əsasən infrastruktur baxımından planlarımız var ki, kapital bazarı effektiv işləsin. Bundan başqa, bazarda rəqəmsallaşmaya dair planlarımız var. Sözsüz ki, maarifləndirmə istiqamətində də işlər aparılacaq ki, həm investor, həm də emitentlərin biliklərini artıraq", – deyə o qeyd edib.

Sığortalanma məsələsində müəyyən limitlərin olacağını bildirən Mərkəzi Bankın sədri deyib ki, bu məqsədlə sığorta şirkətlərinə yeni korporativ idarəetmə strategiyası təqdim ediləcək. Azərbaycan Mərkəzi Bankının korporativ istiqrazların sığortalanması istiqamətində, əsasən, qeyri-neft sektoru üzrə fəaliyyət göstərən şirkətlərini istiqrazlarına fokuslandığını vurğulayan Taleh Kazımovun fikrincə, bu zaman, əsasən, manatla olan istiqrazlara diqqət yetirilir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# "Bir pəncərə"dən 5 ölkəyə 240 milyon dollarlıq məhsul göndərilib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı qurumun 2023-cü ildəki fəaliyyətinin yekunlarına dair mətbuat konfransında "Bir pəncərə" İxraca Dəstək Mərkəzi xətti ilə 2023-cü ildə, ümumilikdə, 5 ölkəyə – İsveçrə, Rusiya, Türkiyə, Gürcüstan və İtaliyaya 243 milyon dollar dəyərində ixrac həyata keçirilib. O qeyd edib ki, ixrac edilən məhsullar isə, əsasən, qiymətli metallar, süd və qənnadı məhsulları, polad boru və pambıq mahlıcı olub.**

V.Qasımlı ötən ildə də İİTKM-in "Beyin və əməl" mərkəzi kimi fəaliyyətini davam etdirdiyini, hesabat ili ərzində qurumun qarşısına qoyulmuş tapşırıqları yerinə yetirməklə yanaşı, bir sıra yeniliklər etdiyini bildirib.

Mərkəzin icraçı direktoru daha sonra İİTKM-də elektronlaşdırılan təkmil monitorinq və qiymətləndirmə institutunun formalaşdırıldığını, burada süni intellektin imkanlarından da istifadə edildiyini vurğulayıb. Natiq bundan başqa, ötən il 10 dövlət sənədinin, o cümlədən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Azərbaycan Respublikasının işğaldan azad



edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" və digər sənədlər üzrə 6 hesabatın hazırlanaraq aidiyyəti üzrə təqdim edildiyini diqqətə çatdırıb.

***XQ***

# 2023-cü il – 20 milyard manat investisiya



**Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ildə əsas kapitala 20 milyard 297 milyon manat məbləğində, yaxud 2022-ci illə müqayisədə 9,8 faiz çox vəsait yönəldilib.**

Məlumatda neft-qaz sektoruna yatırılan investisiyaların həcminin 10,9 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcminin isə 9,3 faiz artdığı qeyd edilib. İstifadə olunmuş vəsaitin 12 milyard 485 milyon manatı və ya 61,5 faizi məhsul istehsalı sahələrinə, 6 milyard 840 milyon manatı (33,7 faizi) xidmət sahələrinə, 971,4 milyon manatı (4,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 16 milyard 411 milyon manatını və ya 80,9 faizini daxili vəsaitlər təşkil edib, 14 milyard 559,6 milyon manat və ya 71,7 faiz vəsait isə bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Vəsaitlərin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 48,5 faiz, büdcə vəsaitləri 36,6 faiz, əhalinin şəxsi vəsaitləri 5,9 faiz, bank kreditləri 3 faiz, digər vəsaitlər isə 6 faiz təşkil edib.

***XQ***



# Avtomobillərin "qocalıq" rüsumu

***Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiya haqqının məbləği, utilizasiyaya verilən nəqliyyat vasitəsi üçün tətbiq edilən güzəştin məbləği və birdəfəlik ödənişin həcmi təsdiq edilib. Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.***

Qərara əsasən, istehsal tarixi 4 ildən 7 ilədək olan nəqliyyat vasitələri ölkəyə idxal edilən zaman gömrük rəsmiləşdirilməsi aparılarkən əlavə 400 manat utilizasiya haqqı ödənilməlidir. Avtomobillərin istehsal tarixi 7 il və daha çox olduqda isə bu məbləğ 700 manat təşkil edəcək.

Eyni zamanda nəqliyyat vasitələrinin texniki baxışı zamanı da avtomobil sahiblərindən utilizasiya haqqı tələb olunacaq. Bu məbləğ istehsal tarixindən asılı olaraq 4 ildən 10 ilədək 10 manat, 10 ildən 20 ilədək 20 manat, 20 ildən 30 ilədək 30 manat, 30 il və daha çox olduqda isə 40 manat təşkil edəcək.

# BTC ilə ötən il 228 milyon barel neft daşınıb




**Türkiyənin borularla nəqletmə operatoru olan "BOTAŞ" şirkətinin yaydığı xəbərdə deyilir ki, ötən il qardaş ölkə ərazisi ilə Bakı–Tbilisi–Ceyhan (BTC) kəməri vasitəsilə 228 milyon 811 min barel neft nəql olunub ki, bu da illik müqayisədə 1,5 faiz çoxdur. 2022-ci ildə isə bu göstərici 225 milyon 445 min barel (illik müqayisədə 12,64 faiz çox) təşkil edib.**

Xatırladaq ki, BTC kəməri ilə Azərbaycanın "Azəri–Çıraq–Günəşli" yataqlarından çıxarılan neft idxal edilir. Bundan başqa, kəmər vasitəsilə digər istehsalçıların nefti də Türkiyə ərazisinə göndərilir.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 49** **Bakı şəhəri, 26 yanvar 2024-cü il**

***"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 903-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 903-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 15 aprel tarixli 63 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4, maddə 207 (Cild I) ilə təsdiq edilmiş "Atmosfer havasının mühafizəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə "Nazirliyinin" sözü "Nazirliyi" sözü ilə, "qurumlarının" sözü "qurumları" sözü ilə, "hüquqları" sözü "aşağıdakıları yerinə yetirir" sözləri ilə əvəz edilsin;

1.2. 3.10-cu bəndə "həmçinin" sözündən sonra "şəxsiyyət vəsiqəsini," sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 oktyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 639 (Cild I) ilə təsdiq edilmiş "Geodeziya və kartoqrafiya fəaliyyətinə dövlət nəzarəti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 11-ci hissədə "orqanlara aşağıdakı hüquqlar verilir" sözləri "orqanlar aşağıdakıları həyata keçirirlər" sözləri ilə əvəz edilsin;

2.2. 11.1-ci bəndə "həmçinin" sözündən sonra "şəxsiyyət vəsiqəsini," sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 13 dekabr tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 748 (Cild I) ilə təsdiq edilmiş "Nəzarət kitabçası" haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.4-cü bənddə "qanunvericilikdə nəzərdə tutulmuş qaydada" sözləri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan" sözləri ilə əvəz edilsin;

3.2. 2.4-1-ci bəndin ikinci cümləsinə "vəzifəli şəxsi" sözlərindən sonra "xidməti vəsiqəsini (şəxsiyyət vəsiqəsi ilə birlikdə), yoxlamanın aparılması haqqında qərarın surətini və" sözləri əlavə edilsin;

3.3. 2.8-ci bənddə "sahibkarlıq subyektində" sözləri "sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə təqdim edilir" sözləri ilə əvəz edilsin;

3.4. 2.9-cu bənddə "qanunvericilikdə müəyyən edilmiş qaydada" sözləri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 34-cü maddəsində nəzərdə tutulmuş qaydada" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 401 nömrəli və 4 noyabr tarixli 405 nömrəli qərarları) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nın 10.18.9-cu, 11.14.9-cu və 12.15.8-ci yarımbəndlərinə "xidməti vəsiqələri" sözlərindən sonra "(şəxsiyyət vəsiqəsi ilə birlikdə)" sözləri əlavə edilsin.

5. "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1230 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Qərarla təsdiq edilmiş "İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xarici iqtisadi əlaqələrin həyata keçirilməsinə xüsusi icazənin verilməsindən əvvəl və sonra yoxlamaların aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1.1. 3.1.1.1-ci yarımbənd üzrə:

5.1.1.1. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"yoxlamanın aparılması üçün xüsusi icazə sahibi və ya onun səlahiyyətli nümayəndəsi iş saatları ərzində yoxlayıcıların yoxlama obyektinin yerləşdiyi yerə maneəsiz daxil olmasına, xüsusi icazə sahibi, onun səlahiyyətli nümayəndəsi və işçiləri yoxlayıcıya yoxlama aparılmasına şərait yaratmağa borcludurlar;";

5.1.1.2. üçüncü abzasa "məlumatlar" sözündən sonra "(sənədlər)" sözü əlavə edilsin;

5.1.1.3. dördüncü abzasa "xüsusi icazə sahibinə" sözlərindən sonra "(onun səlahiyyətli nümayəndəsinə)" sözləri əlavə edilsin;

5.1.1.4. aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"Yoxlama tədbirlərini həyata keçirən müvafiq dövlət orqanlarının vəzifəli şəxsləri və xüsusi icazə sahibləri olan sahibkarlar "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər hüquqları həyata keçirir və vəzifələri yerinə yetirirlər.";

5.2. həmin Qərarla təsdiq edilmiş "İkili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"2.2. Xüsusi icazə sahibi və ya onun səlahiyyətli nümayəndəsi iş saatları ərzində müvafiq dövlət orqanlarının nümayəndələrinin nəzarət aparılan obyektinin yerləşdiyi yerə maneəsiz daxil olmasına, xüsusi icazə sahibi, onun səlahiyyətli nümayəndəsi və ya işçiləri dövlət orqanlarının nümayəndələrinə nəzarətin aparılmasına şərait yaratmağa borcludurlar.".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1246 (Cild I) ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.2. Dövlət nəzarətini həyata keçirən Şuranın vəzifəli şəxsləri və subyektlər "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hüquqları həyata keçirir və vəzifələri yerinə yetirirlər.";

6.2. 3.2.1-3.2.4-cü yarımbəndlər və 3.3-cü bənd ləğv edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 10 may tarixli 121 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 465 (Cild I) ilə təsdiq edilmiş "Qiymətli metalların, onlardan hazırlanan məhsulların, habelə qiymətli metal qırıntılarının və tullantılarının analizinin və ekspertizasının keçirilməsi halları və Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 8-1-ci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Sahibkar analizin və ekspertizanın nəticəsi ilə razılaşmadıqda və ya bu nəticəyə şübhələri olduqda, öz hesabına yeni analizin və ekspertizanın keçirilməsini tələb edə bilər.";

7.2. 9-cu hissəyə "razılaşmadıqda" sözündən sonra "yaxud bu Qaydaların 8-1-ci hissəsində qeyd olunan ilkin analizin və ekspertizanın nəticəsi ilə yeni analizin və ekspertizanın nəticəsi arasında ziddiyyət olduqda" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 sentyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 831 (Cild I) ilə təsdiq edilmiş "Qiymətli daşların ekspertizasının və diaqnostikasının keçirilməsi halları və Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 9-1-ci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Sahibkar ekspertizanın və diaqnostikanın nəticəsi ilə razılaşmadıqda və ya bu nəticəyə şübhələri olduqda, öz hesabına yeni ekspertizanın və diaqnostikanın keçirilməsini tələb edə bilər.";

8.2. 10-cu hissəyə "razılaşmadıqda" sözündən sonra ", yaxud bu Qaydaların 8-1-ci hissəsində qeyd olunan ilkin ekspertizanın və diaqnostikanın nəticəsi ilə yeni ekspertizanın və diaqnostikanın nəticəsi arasında ziddiyyət olduqda" sözləri əlavə edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 oktyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 1016 (Cild I) ilə təsdiq edilmiş "Heyvan, heyvan mənşəli məhsullar və xammal istehsalı, tədarükü, saxlanması, emalı və satışına, habelə yem və yem əlavələrinin dövriyyəsinə dövlət baytarlıq nəzarətinin həyata keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.4.3-cü yarımbəndə "həmçinin" sözündən sonra "şəxsiyyət vəsiqəsini," sözləri əlavə edilsin;

9.2. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

"2.4-1. Dövlət baytarlıq müfəttişi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan baytarlıq fəaliyyəti subyektləri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hüquqları həyata keçirir və vəzifələri yerinə yetirirlər.";

9.3. aşağıdakı məzmunda 2.13-1-ci bənd əlavə edilsin:

"2.13-1. Dövlət baytarlıq orqanlarının vəzifəli şəxsləri sahibkarlıq fəaliyyəti ilə məşğul olan baytarlıq fəaliyyəti subyektlərində həyata keçirdikləri nəzarət və yoxlama zamanı "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 4-2.2-ci maddəsində nəzərdə tutulan qadağalara riayət etməlidirlər.".

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 12 may tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 569 (Cild I) ilə təsdiq edilmiş "Məhsul nümunələrinin götürülməsi ilə bağlı yoxlayıcı orqanın çəkdiyi xərclərin sahibkar tərəfindən əvəzinin ödənilməsi Qaydaları və müddətləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

10.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Yoxlama zamanı götürülən məhsul nümunələrinin dəyərinin ödənilməsi, onların saxlanılması, tədqiq (sınaq) edilən parametrlərin dəyişməz saxlanılması, daşınması, tədqiqi, alınmış nəticələr barədə məlumat verilməsi, məhsulun daha sonrakı satışı və ya utilizasiyası ilə əlaqədar yaranan xərclər yoxlayıcı orqan tərəfindən ödənilir.";

10.2. 2.3-cü və 2.6-cı bəndlərə "sahibkara" sözündən sonra "və ya onun səlahiyyətli nümayəndəsinə" sözləri, "sifarişli poçt göndərişi vasitəsilə" sözlərindən sonra isə "sahibkarın qeydiyyat ünvanına, sahibkar tərəfindən elektron poçt və ya digər poçt ünvanı təqdim edildikdə isə həmin ünvana" sözləri əlavə edilsin;

10.3. 2.9-cu bəndə "yoxlayıcı orqanın qərarlarından" sözlərindən sonra "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 34-cü maddəsinə uyğun olaraq" sözləri əlavə edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 12 may tarixli 143 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 570 (Cild I) ilə təsdiq edilmiş "Yoxlama suallarının siyahısının forması və tətbiqi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. Yoxlama suallarının siyahısı yoxlama zamanı yoxlanılan məcburi tələbləri əks etdirməli, risklərə əsaslanmalıdır.";

11.2. 2.3-cü bəndə aşağıdakı məzmunda üçüncü-altıncı cümlələr əlavə edilsin:

"Yoxlama sualları aydın və birmənalı tərtib olunmalıdır. Sualların prioritetliyi onlara təyin olunmuş müxtəlif xüsusi çəki (bal) üzrə müəyyən edilməlidir. Hər bir yoxlama sualının siyahısının elə bir qiymətləndirmə sistemi olmalıdır ki, yoxlamadan sonra yoxlama obyektinin risk səviyyəsini müəyyənləşdirməyə imkan versin. Hər bir sual üçün fərqli xüsusi çəki (bal) risk dərəcəsinə mütənasib olmalıdır.";

11.3. aşağıdakı məzmunda 2.11-1-ci bənd əlavə edilsin:

"2.11-1. Yoxlayıcı orqan yoxlama suallarının hazırlanması və onun qiymətləndirilməsi prosesinə müstəqil ekspertləri cəlb edə bilər.";

11.4. 3.6-cı bəndə "siyahısına" sözündən sonra "müvafiq qeydlərin daxil edilməsinə səlahiyyətləndirilmiş" sözləri əlavə edilsin və həmin bənddən "(yoxlamanın rəhbəri)" sözləri çıxarılsın;

11.5. həmin Qaydaya əlavə "Yoxlama suallarının Siyahısı"nda "bilavasitə yoxlanılan təsərrüfat obyektinin ünvanı" sözləri "yoxlama obyektinə dair məlumatlar (adı, ünvanı, təsviri və s.)" sözləri ilə əvəz edilsin və "Sahibkarlıq fəaliyyətinə dair məcburi tələblər" adlı sütundan sonra "Əsaslanmış risklər" adlı sütun əlavə edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 188 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 742 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən metroloji qayda və normalara riayət olunmasına dövlət nəzarəti aparılarkən, iradnamə və tələbnamələrin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

12.1. 2.2.3-cü və 3.2.3-cü yarımbəndlərdə "və hüquqi ünvanı" sözləri ", hüquqi ünvanı, təsviri və s." sözləri ilə əvəz edilsin;

12.2. 2.5-ci və 3.4-cü bəndlərin üçüncü cümlələrinə "sifarişli poçt" sözlərindən sonra ", müəssisə rəhbəri tərəfindən elektron poçt və ya digər poçt ünvanı təqdim edildikdə isə həmin ünvan" sözləri əlavə edilsin;

12.3. 3.7-ci bəndə "ərzində" sözündən sonra "mövcud risklərin qiymətləndirilməsi əsasında və məhdudlaşdırıcı tədbirin tətbiqi barədə qərarda göstərilən tədbirlərin yerinə yetirilməsini sənədlər əsasında müəyyən etmək mümkün olmadıqda" sözləri əlavə edilsin;

12.4. həmin Qaydanın 1, 3, 4 və 5 nömrəli əlavələrində "və hüquqi ünvanı" sözləri ", hüquqi ünvanı, təsviri və s." sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 yanvar tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 74 (Cild I) ilə təsdiq edilmiş "Məhsul nümunələrinin götürülməsi Aktı"nda "sahibkarın (onun təsərrüfat obyektinin) adı və yerləşdiyi ünvan" sözləri "sahibkarın adı və ünvanı, habelə yoxlama obyektinə dair məlumatlar (adı, ünvanı, təsviri və s.)" sözləri ilə, "Sahibkarın izahatı" sözləri isə "Sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin izahatı" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 yanvar tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 75 (Cild I) ilə təsdiq edilmiş "Məhsulun tədqiqi (sınağı) barədə qərar"da "sahibkarın (onun təsərrüfat obyektinin) adı və yerləşdiyi ünvan" sözləri "sahibkarın adı və ünvanı, habelə yoxlama obyektinə dair məlumatlar (adı, ünvanı, təsviri və s.)" sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli 256 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1231 (Cild I) ilə təsdiq edilmiş "Akvakulturanın həyata keçirilməsi Qaydası"nın 10.1.1-ci yarımbəndinə "xidməti vəsiqəni" sözlərindən sonra "(şəxsiyyət vəsiqəsi ilə birlikdə)" sözləri əlavə edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 436 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2151 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin baytarlıq nəzarəti sahəsində icrası məcburi olan qərarlarının formasının, onların tərtib edilməsi və verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

16.1. 2.2.2-ci yarımbənddə "(onun müvafiq təsərrüfat obyektinin) adı və yerləşdiyi ünvan" sözləri "adı və ünvanı, habelə dövlət baytarlıq nəzarətində olan obyektə dair məlumatlar (adı, ünvanı, təsviri və s.)" sözləri ilə əvəz edilsin;

16.2. 3.2-ci bənddə "poçt vasitəsi ilə (bildirişlə)" sözləri "sifarişli poçt göndərişi vasitəsilə hüquqi və fiziki şəxsin qeydiyyat ünvanına, fiziki və hüquqi şəxs tərəfindən elektron poçt və ya digər poçt ünvanı təqdim edildikdə isə həmin ünvana" sözləri ilə əvəz edilsin;

16.3. həmin Qaydanın 1 və 2 nömrəli əlavələrinə "yerləşdiyi və ya saxlanıldığı ünvan" sözlərindən sonra ", təsviri və s." sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 51** **Bakı şəhəri, 29 yanvar 2024-cü il**

***"Azərbaycan Respublikası dövlət peşə məktəblərinin və peşə litseylərinin nümunəvi ştatları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli 64 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Azərbaycan Respublikası dövlət peşə məktəblərinin və peşə litseylərinin nümunəvi ştatları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli 64 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında "Azərbaycan Respublikası dövlət peşə məktəblərinin və peşə litseylərinin" sözləri "Dövlət peşə təhsili müəssisələrinin" sözləri ilə əvəz edilsin;

1.2. preambulada "Peşə məktəbləri və peşə litseylərində" sözləri "Dövlət peşə təhsili müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.3. 1-ci hissədə "Peşə məktəblərinin və peşə litseylərinin" sözləri "Dövlət peşə təhsili müəssisələrinin rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədrisə köməkçi və xidmətedici heyətinin" sözləri ilə əvəz edilsin;

1.4. 2-ci hissə ləğv edilsin;

1.5. həmin Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş "Peşə məktəblərinin və peşə litseylərinin nümunəvi ştatları" aşağıdakı redaksiyada verilsin:

"Dövlət peşə təhsili müəssisələrinin rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədrisə köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları

| Sıra №-si | Vəzifələrin adı | Qrupların sayından asılı olaraq ştat vahidlərinin sayı | | | |
|---|---|---|---|---|---|
| | | 10-dək | 10-14 | 15-24 | 25 və daha çox |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1 | Direktor | 1 | 1 | 1 | 1 |
| 2 | Tədris və təlim işləri üzrə direktor müavini | 1 | 1 | 1 | 1 |
| 3 | Tərbiyə işləri üzrə direktor müavini | - | 1 | 1 | 1 |
| 4 | İnzibati-təsərrüfat işləri üzrə direktor müavini | - | - | 1 | 1 |
| 5 | İstehsalat üzrə menecer | - | - | - | 1 |
| 6 | Baş mühasib | 1 | 1 | 1 | 1 |
| 7 | Hüquqşünas | - | - | - | 1 |
| 8 | Baş usta | - | 1 | 1 | 1 |
| 9 | Keyfiyyət təminatı üzrə mütəxəssis | - | - | - | 1 |
| 10 | Kadrlar üzrə mütəxəssis | 0,5 | 0,5 | 1 | 1 |
| 11 | Mühasib | - | - | - | 1 |
| 12 | İqtisadçı | - | - | - | 1 |
| 13 | Təsərrüfat müdiri | 1 | 1 | - | - |
| 14 | Satınalma üzrə mütəxəssis | - | - | - | 1 |
| 15 | Karyera xidməti üzrə mütəxəssis | - | 1 | 1 | 1 |
| 16 | İşəgötürənlərlə iş üzrə mütəxəssis | - | - | 1 | 1 |
| 17 | Gənclərin çağırışaqədərki hazırlıq rəhbəri | 1 | 1 | 1 | 1 |
| 18 | Fiziki tərbiyə rəhbəri | 1 | 1 | 1 | 1 |
| 19 | Psixoloq | 1 | 1 | 1 | 1 |
| 20 | Kitabxanaçı | 1 | 1 | 1 | 1 |
| 21 | Arxivçi | 0,5 | 0,5 | 1 | 1 |
| 22 | Referent | 1 | 1 | 1 | 1 |
| 23 | Anbardar | 1 | 1 | 1 | 1 |
| 24 | Binanın istismarı üzrə texnik | 1 | 1 | 1 | 1 |
| 25 | İT mütəxəssisi | 1 | 1 | 1 | 1 |
| 26 | Binaların, qurğuların və avadanlığın cari təmiri və xidmət üzrə fəhlə | 1 | 1 | 1 | 2 |

Qeydlər:

1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 223-cü maddəsinin 2-ci hissəsinə uyğun olaraq işçilərinin sayı 50 nəfərdən çox olan peşə təhsili müəssisələrində 1 (bir) ştat vahidi əməyin mühafizəsi üzrə mühəndis vəzifəsi müəyyən edilir.

2. Peşə liseyləri və peşə təhsil mərkəzlərində təhsilalanların sayı 250 nəfərdən artıq olduqda 1 (bir) ştat vahidi ümumtəhsil fənləri üzrə tədris hissə müdiri vəzifəsi müəyyən edilir.

3. İlk və texniki peşə təhsili səviyyələri üzrə hər ixtisas qrupuna görə 1 (bir) ştat vahidi, "Peşə təhsili müəssisələrinin ayrı-ayrı peşə istiqamətləri üzrə tədris qruplarında orta sıxlığın müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 86 nömrəli Qərarının 3-cü hissəsində qeyd olunan halda isə 2 (iki) ştat vahidi istehsalat təlimi ustası vəzifəsi müəyyən edilir.

4. Tədrisin kredit sistemi ilə təşkil olunduğu qruplarda təhsil alan hər 100 tələbəyə görə 1 (bir) ştat vahidi tyutor vəzifəsi müəyyən edilir.

5. Hər bir inklüziv təhsil qrupuna görə 1 (bir) ştat vahidi müəllim köməkçisi vəzifəsi müəyyən edilir.

6. Tam orta təhsilin təşkil olunduğu peşə liseyləri və peşə təhsil mərkəzlərində müvafiq avadanlıqla təchiz edilmiş fizika, yaxud kimya kabineti olduqda laborant ştatı aşağıdakı qaydada müəyyən edilir:

a) tam orta təhsilverən qrupların sayı 10-19 olduqda - cəmi 1 (bir) ştat vahidi;

b) tam orta təhsilverən qrupların sayı 20-25 olduqda - cəmi 1,5 ştat vahidi;

c) tam orta təhsilverən qrupların sayı 26 və daha çox olduqda - cəmi 2 (iki) ştat vahidi.

7. Yataqxana fəaliyyət göstərdiyi halda peşə təhsili müəssisələrində 1 (bir) ştat vahidi komendant vəzifəsi müəyyən edilir.

8. Giriş və çıxış yolları qadın və kişi tələbələr üçün ayrı-ayrılıqda nəzərdə tutulan yataqxanada və ya qadın və kişi tələbələr üçün ayrı-ayrılıqda nəzərdə tutulan yataqxana korpuslarında həmin yataqxana sahələrinin və ya korpuslarının hər biri üçün 2 (iki) ştat vahidi yataqxana növbətçisi vəzifəsi müəyyən edilir.

9. İşlək maşın və avadanlıqlar olduqda 1 (bir) ştat vahidi mexanik vəzifəsi müəyyən edilir.

10. İşlək vəziyyətdə olan 1 (bir) nəqliyyat vasitəsi olduqda (təlim nəqliyyat vasitələri istisna olmaqla) 1 (bir) ştat vahidi, birdən çox nəqliyyat vasitəsi olduqda isə 2 (iki) ştat vahidi sürücü vəzifəsi müəyyən edilir.

11. Tələbələrin daşınması üçün avtobus olduqda 1 (bir) ştat vahidi avtobus sürücüsü vəzifəsi müəyyən edilir.

12. Süpürülən hər 400 $m^2$ sahəyə görə 1 (bir) ştat vahidi xadimə vəzifəsi müəyyən edilir.

13. Süpürülən hər 1,5 hektar həyətyanı sahəyə görə 1 (bir) ştat vahidi dalandar vəzifəsi müəyyən edilir.

14. Bağ və bostan da daxil olmaqla, 1,5 hektardan çox tədris-təcrübə və yardımçı təsərrüfat sahəsi, meyvə və bəzək ağacı əkilmiş yaşıl meydança olduqda 1 (bir) ştat vahidi bağban vəzifəsi müəyyən edilir.

15. Ocaqçı və binalara, avadanlıq və qurğulara xidmət, onların cari təmiri üzrə fəhlə və sobayandıran vəzifələri istilik mövsümündə aşağıdakı kimi müəyyən edilir:

15.1. mərkəzi istilik sistemi olduqda hər bir qazanxanada növbədə 1 (bir) ocaqçı vəzifəsi;

15.2. bərk və maye yanacaqla qızdırılan qazanxananın sahəsi 75 $m^2$-dən çox olduqda növbədə 2 (iki) ocaqçı vəzifəsi;

15.3. qazla qızdırıldıqda növbədə 1 (bir), təhlükəsizliyin avtomat tənzimləyicisi olmayan qazanxanalarda növbədə 2 (iki) ştat vahidi ocaqçı vəzifəsi;

15.4. mərkəzləşmiş istilik sistemindən qızdırılan peşə təhsili müəssisələrində istilik məntəqəsi və ya elevator olduqda binalara, avadanlıq və qurğulara xidmət və onların cari təmiri üzrə 1 (bir) ştat vahidi fəhlə vəzifəsi, boyler və nasos olduqda isə növbədə 1 (bir) ştat vahidi fəhlə vəzifəsi;

15.5. soba ilə qızdırılan peşə təhsili müəssisələrində hər beş sobaya 0,5 ştat vahidi ocaqçı vəzifəsi.

16. Peşə təhsili müəssisələrində binaların qorunması mühafizə xidməti tərəfindən həyata keçirilmədiyi halda, ştat cədvəlinə 3 (üç) ştat vahidi gözətçi vəzifəsi daxil edilir.

17. Peşə təhsili müəssisələrinin filialı olduqda, filial üzrə 1 (bir) ştat vahidi filial müdiri, 1 (bir) ştat vahidi psixoloq, 1 (bir) ştat vahidi tədrisin təşkili üzrə koordinator, 1 (bir) ştat vahidi inzibati işlər üzrə koordinator, 3 (üç) ştat vahidi gözətçi (peşə təhsili müəssisələrində binaların qorunması mühafizə xidməti tərəfindən həyata keçirilmədiyi halda), 1 (bir) ştat vahidi binanın istismarı üzrə texnik, 1 (bir) ştat vahidi fəhlə vəzifələri müəyyən edilir.

18. Peşə təhsili müəssisələrinin korpusları əsas korpusdan fərqli rayon/şəhərdə yerləşdikdə, korpus üzrə 1 (bir) ştat vahidi korpus rəhbəri, 1 (bir) ştat vahidi psixoloq, 1 (bir) ştat vahidi tədrisin təşkili üzrə koordinator, 1 (bir) ştat vahidi inzibati işlər üzrə koordinator, 3 (üç) ştat vahidi gözətçi (peşə təhsili müəssisələrində binaların qorunması mühafizə xidməti tərəfindən həyata keçirilmədiyi halda), 1 (bir) ştat vahidi binaların istismarı üzrə texnik, 1 (bir) ştat vahidi fəhlə vəzifələri müəyyən edilir.

19. Peşə təhsili müəssisələrində məhsul istehsalı və ya satışı (xidmət göstərilməsi), qısamüddətli kursların təşkili ilə əlaqədar büdcədənkənar vəsait hesabına əlavə ştatlar müəyyən edilə bilər.

20. Axşam qrupları üzrə tədrisin təşkili məqsədilə büdcədənkənar vəsait hesabına əlavə ştatlar müəyyən edilə bilər.

21. Peşə təhsili müəssisələrində ştat cədvəli hər tədris ilinin əvvəlində qrup sayına uyğun olaraq təsdiq edilir.

22. Bu nümunəvi ştatlar adambaşına maliyyələşmə mexanizminin tətbiq edildiyi peşə təhsili müəssisələrinə şamil edilmir.".

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tarif-ixtisas sorğu kitabçalarının altı ay müddətində bu Qərara uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

II məqalə

## AMEA elmi yaddaşın milli sərvətə çevrilməsi yolunda

Biz, I məqalənin sonlarında qeyd etmişdik ki, AMEA müstəqil dövlətin inkişafı üçün çox böyük işlər görə bilər və elmi müasirləşmə hər kəsdən öncə bu strukturun çiyinləri üzərində mümkündür.

Bəli, hazırda AMEA-nın rəhbərliyi prosesləri məhz bu istiqamətdə aparır. Bu qurumun rəhbəri akademik İsa Həbibbəyli bütün intellektual potensialı, praktiki fəaliyyət imkanları ilə AMEA-nın Azərbaycan müstəqil dövlətçiliyinin inkişafı naminə intensiv çalışması xəttini həyata keçirir. Bu, pafoslu ritorika deyildir – hazırda AMEA-da gedən proseslərin təhlilindən yaranmış fəlsəfi-sinergetik qənaətdir.



*“Azərbaycan Milli Elmlər Akademiyası respublikanın dövlət müstəqilliyinə xidmət etməlidir və Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır”.*

*Heydər ƏLİYEV,*
*Ümummilli lider*

# AMEA – Azərbaycanın elmi yaddaş və intellektual məkanı

Həmin tezisin doğruluğunu sübut etmək üçün kifayət qədər faktlarımız vardır. Akademik İsa Həbibbəyli məsələyə sırf müstəqil dövlətçiliyi, Ulu öndərin dövlət quruculuğu konsepsiyası və onun siyasi varislik prinsipi üzrə Prezident İlham Əliyevin böyük uğurla inkişaf etdirilməsi kontekstində yanaşdığından, irəli sürülən hər bir fikrin də fəlsəfi-elmi sübutu olmalıdır.

Burada qeyri-elmi və ya dayaz yanaşma keçərli deyil. Digər tərəfdən, nəzərə almaq gərəkdir ki, AMEA rəhbərliyi dövlətçilik baxımından çox ciddi məsələlərlə məşğuldur və onların fəlsəfi-elmi (o cümlədən, sinergetik) dərki arxivacibdir! AMEA perspektivli olduğu qədər də ciddi təşkilatdır! Həm də ona görə ki, Ulu öndərin müəyyən etdiyi kimi, AMEA Azərbaycanda “elmi varisliyin” daşıyıcısı olmalıdır. “Elmi varislik” anlayışı Prezidentin tam əməl etdiyi siyasi varisliyin tərkib hissəsidir. Elmi varisliyin başlıca prinsiplərini Prezident İlham Əliyev müəyyən edir və onun icrası baş təşkilat kimi AMEA-nın üzərinə düşür! Bu, şərəfli olduğu qədər, həm də məsuliyyətli bir işdir!

Burada təhlillər AMEA-nın elmi-mədəni yaddaş fenomeni kimi yaradıcı aspektdə milli sərvətə çevrilməsinə prosessual, yəni daim özünüyeniləşdirən strukturun dərki fonunda aparılır. Eyni zamanda, obrazlı desək, AMEA intellektual potensialın elm naminə əyaniləşən, aktuallaşan və reaktuallaşan (təkrar-təkrar elmi tədqiqatlarda əyaniləşən, predmetləşən) məkanıdır. Bu anlamda təşkilat Azərbaycan Respublikasının elmi gerçəkliklərinin mərkəzi, avanqardı və həm də intellektual məsuliyyətini dərindən dərk edən strateji strukturlarından biridir!

Düşünürük ki, məhz bu anlamlar məzmununu və məqsədini ifadə edən bir neçə faktor mövcuddur. Onların üzərində geniş dayanaq!

### “Öncə dövlət müstəqilliyinə xidmət!”

AMEA-nın indiki prezidentinin bütün çıxışlarında ifadə etdiyi ilk və ana tezis bundan ibarətdir. Akademik İsa Həbibbəyli öz elmi yaradıcı və təşkilati fəaliyyəti ilə bunun nümunəsini də göstərir. AMEA prezidentinin ictimai-humanitar kontekstində AMEA Azərbaycanın elmi yaddaşı olmaqla intellektual məkanı kimi mövcudluğunun sintezini özündə ehtiva edən yeganə təşkilatdır! Sonuncu tezisə ulu öndər Heydər Əliyevin yuxarıda deviz kimi verdiyimiz dahiyanə fikrinin işığında baxmaq istərdik. Çünki o halda AMEA-nın indiki rəhbərliyinin elmimizin dövlətçilik naminə milli sərvətə çevrilməsi yolunda sərf etdiyi böyük zəhməti dərindən duymuş və soyuq məntiqlə də dərk etmiş olarıq!

### Ulu öndərin tezisinin iki aspekti

Yuxarıda gətirdiyimiz nümunədə iki fikir aspekti bir-biri ilə vəhdətdə ifadə edilmişdir. Birincisi, “Azərbaycan Milli Elmlər Akademiyası respublikanın dövlət müstəqilliyinə xidmət etməlidir”, ikincisi, “Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır”!

Ulu öndərin fundamental əhəmiyyətli tezisinin birinci hissəsi AMEA-nın ümumi strateji missiyasını ifadə edir. Dövlətçilik ənənəsi ilə elmi ənənənin qarşılıqlı əlaqəsinin məzmunundan bu strateji istiqamət müəyyən edilir. Bunun əsası Ulu Öndərin bütövlükdə elm və mədəniyyətin tarixən Azərbaycan cəmiyyəti və dövlətlərinin həyatında oynadığı roldadır.

Heydər Əliyevin çox sayda fikirlərində ana xətt kimi belə bir məna keçir: Azərbaycan xalqı kökdən zəkidir, ziyalıdır və fəaliyyətinin kollektiv formasında, o cümlədən, dövlət quruculuğunda daima elmə, mədəniyyətə, təhsilə, azərbaycanlı ziyalılığının aydınlığına və fəzilətinə əsaslanmışdır. Elmə verilən bu qiymət dövlətçilik baxımından çox vacib bir özəlliyi aydınlaşdırır: Azərbaycanda dövlətçiliyin təməlində mədəniyyət, mənəvi-əxlaqi dəyərlər və ziyalılığın fəziləti dayanır! Bu, bütövlükdə, Azərbaycan dövlətçilik fəlsəfəsinə şər-böhtan atmağa cəhd edənlərə ən tutarlı cavabdır. Eyni zamanda, əhəmiyyətli məqamdır ki, Ulu öndər dövlətçilik kontekstində cəmiyyətin elmi vəziyyətinin formalaşmasında AMEA-nı başda görmüşdür. Məhz bu anlamda alimləri çox şərəfli bir xidmətə – Azərbaycanın dövlət müstəqilliyinə xidmət etməyə dəvət etmişdir və Prezident kimi tapşırıq vermişdir, qarşıya müqəddəs vəzifə olaraq qoymuşdur!

Tezisin ikinci hissəsi bu vəzifənin işığında olduqca aktual görünür. Ulu öndər AMEA üzərinə belə bir məsuliyyət qoymuşdur: AMEA Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır! Bu isə akademiya daxilində düzgün elm siyasəti yeritməyi özündə ehtiva edir. “Elm siyasəti” dedikdə elmi tədqiqatlarda yaradıcılığı, innovativliyi, elmi fəaliyyətin təşkilinin optimallaşdırılmasını təmin etmək (qabaqcıl təcrübələri öyrənmək kontekstində), AMEA-nın struktur-funksional mövcudluğunda islahatların aparılmasına və araşdırmalarda alınan nəticələrin çevik olaraq praktiki tətbiqinə nail olmaq nəzərdə tutulur (bizim anlamımızda). Təbii ki, həmin prosesin uğurlu olması üçün həm yüksək elmi yaradıcılıq mühitini yaratmaq, həm də təşkilatın struktur və funksional imkanlarını daim inkişaf etdirmək gərəkdir.

Bizcə, məhz bu şərtlər daxilində Ulu öndərin müəyyən etdiyi anlamda AMEA Azərbaycanın milli sərvəti kimi elm-mədəniyyət yaddaşı və intellektual məkan olaraq tarixi yerini tuta bilər! Hazırda AMEA-nən rəhbərliyi bütün imkanları bu istiqamətə yönlətmişdir. Bu prosesin elmlərin hər bir sahəsində aktual hesab etdiyi hər mövzu birbaşa müstəqil dövlətçiliklə əlaqəlidir.

Məsələn, Tarix İnstitutunda Azərbaycan dövlətçiliyinin keçmişi, bu günü və gələcəyi müstəqil dövlətçilik konseptinin Heydər Əliyev tərəfindən müəyyən edilmiş məna, məzmunu və strategiyası kontekstində araşdırılır.

Folklor İnstitutu aktiv şəkildə Azərbaycan folklorunun Ulu öndərin müəyyən etdiyi aspektlər üzrə müstəqil vətəndaş cəmiyyətinin formalaşmasında və dövlət quruculuğunda yeri və rolunu araşdırır. Bu zaman folklorun ictimai faktor kimi multikultural cəmiyyətdə birləşdirici rolu önə çəkilir.

Fəlsəfə və Sosiologiya İnstitutunda daha çox aktuallıq kəsb edən mövzular dövlətçiliyin tarixi, siyasi, fəlsəfi və ideoloji aspektlərinin Ulu öndərin müəyyən etdiyi müstəqillik fəlsəfəsi çərçivəsində müzakirə olunur. Bu zaman, AMEA prezidenti və institut rəhbərliyi Ulu öndərin “Bir millət, iki dövlət” kəlamı və azərbaycançılıq ideologiyası kontekstində araşdırmaların aparılmasına önəm verirlər. Həmin prizmada da Prezident İlham Əliyevin fəaliyyətinin müxtəlif aspektləri fəlsəfi və siyasi-nəzəri refleksiya edilir. Bu sırada AMEA-nın rəhbəri Prezident İlham Əliyevin daxili və xarici siyasətinin vəhdətdə tədqiq edilməsinə xüsusi önəm verir.

Burada akademik İsa Həbibbəyli “Bir millət, iki dövlət” kəlamı və azərbaycançılıq ideologiyasının qarşılıqlı əlaqəsi aspektində Prezidentin həyata keçirdiyi genişmiqyaslı proqramların tədqiq edilməsinə ayrıca diqqət göstərir və lazımi istiqamətləri müəyyənləşdirir.

Bunlarla yanaşı, AMEA-da Azərbaycan Prezidentinin “intellektin milli sərvətə çevrilməsi” tezisinin fəlsəfi-tarixi, etik, estetik, sosioloji, psixoloji, siyasi-nəzəri araşdırılması getdikcə daha geniş və dərin istiqamətlərdə həyata keçirilir.

Vurğulanan ruhda və istiqamətdə AMEA-nın digər tədqiqat institutlarının da fəaliyyətindən bəhs etmək olar. Bu mühiti yaradan və istiqamətləndirən birbaşa AMEA rəhbərliyidir!

AMEA rəhbərliyinin fəaliyyətinin digər tərəfi birbaşa ölkədə elmin inkişafında aparıcı rol oynamaqla bağlıdır. Burada da maraqlı və əhəmiyyətli saydığımız bir sıra məqamların üzərində geniş dayanmağa ehtiyac duyuruq.

### Elmdaxili potensial və xarici əlaqə sintezində

Öncə, onu vurğulayaq ki, bu məsələ heç də sadə və asan başa gələn proses deyildir. Ümumi səviyyədə problemə yanaşanda onun bütövlükdə dünya elmi üçün aktuallıq kəsb etdiyini anlamış oluruq. Bununla bağlı Qərbdə, Rusiyada, Uzaq Şərq ölkələrində kifayət qədər ciddi elmi araşdırmalar mövcuddur. Onlarda ifadə edilən ideyaları elmin inkişafı kontekstində bir neçə qrupda cəmləşdirmək mümkündür. Bu, bizə baxılan problem kontekstində nəyi verəcəkdir?

Hər şeydən öncə, həmin problemlərin dünya üzrə mövcudluğu özəlliyi fonunda Azərbaycanda həyata keçirilən elmi araşdırmaların fəlsəfəsinin uğurlu olub-olmaması haqqında fikir formalaşar.

Bundan əlavə, dünyanın qabaqcıl ölkələrində nəzəri araşdırmalarla praktiki tətbiqin innovativlik kontekstində qarşılıqlı əlaqələri haqqında geniş təsəvvür yaranar.

Nəhayət, bu təsəvvürlər bizə AMEA-nın indiki rəhbərliyinin elmin inkişafında aparıcı rola necə nail olmaq istiqamətində apardığı axtarışların fəlsəfi-sinergetik dərkinə imkan verər.

Ayrıca, biz “sinergetik dərk” məsələsini gəlişi və səslənişi müasir kimi görünən ritorika statusunda işlətmirik. Sinergetik dərk keyfiyyətcə mürəkkəb prosesləri indiki mərhələdə elmi olaraq daha adekvat qavramağın səmərəli epistemoloji (ümumi və sadə halda epistemologiya - dərketmə nəzəriyyəsi, yəni idraketmə nəzəriyyəsi) sistemi kimi faydalıdır.

Təbii ki, məsələnin bu cür qoyuluşu bəri başdan Azərbaycan elminin inkişafında AMEA-nın aparıcı rol oynaması məsələsinin kompleks xarakterli olduğunun təsbitidir. Burada, da istər-istəməz, həm baxılan problemin ciddi elmi xarakterdə olmasını, həm də onun adekvat, çağdaş tələblərə cavab verən səviyyədə araşdırılması üçün fənlərarası (interdisiplinar) yanaşmaya ehtiyacın yaranmasını qəbul etmək lazım gəlir. Bu məqamdan da məsələnin daha aktual və maraqlı mərhələsi başlayır.

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

---

Epidemioloji durum

# Gigiyena təkcə qayda deyil, həm də həyat tərzidir

## *Hepatit A virusu isə ciddi qorunma tələb edir*



**Həmsöhbətim 2011 - ci ildə Azərbaycan Tibb Universitetini bitirib. 2015 – 2017 illərdə İtaliyanın Perugia Universitetində daxili xəstəliklər, qastroenterologiya ixtisası üzrə həkim mütəxəssis dərəcəsi alıb. İtaliyanın “Santa Maria della Misericordia” hospitalında qastroenterologiya və hepatologiya, digestiv endoskopiya, neyroqastroenterologiya şöbələrində çalışaraq bu sahədə böyük təcrübə qazanıb. Xarici ölkələrdə keçirilən bir çox konfranslarda, kurslarda və seminarlarda iştirak edib, biliyini zənginləşdirib.**



Hazırda ölkəmizdə yayılan qızılca yoluxmaları ilə birgə sarılıq – Hepatit A virusu da həm bölgələrdə, həm də paytaxtda müşahidə edilir. Virusa yoluxmanın səbəbləri, xəstəliyin gedişi, təhlükə dərəcəsi, müalicə üsulları və ondan qorunma yolları ilə bağlı mütəxəssis fikrinə ehtiyac duyduq.

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, Mediland hospitalın qastroentereloq-hepatoloqu Emin Məmmədov XQ-yə müsahibəsində bildirdi:**

– Qaraciyərin virus xəstəliyi Hepatit A, eyni zamanda, infeksion sarılıq və ya Botkin xəstəliyi adlanır. O, qaraciyərdə kəskin iltihab yaradaraq, öz-özünə sağalan, xəsarət yaratmayan xəstəlikdir. Hepatit B və C-dən fərqli olaraq, Hepatit A virusu xroniki qaraciyər xəstəliyinə səbəb olmur. Uzun illərdir ki, bu virus mövcuddur, tam öyrənilib və hətta ona qarşı vaksin var. Bu xəstəliyin müsbət cəhəti odur ki, yayılması sürətlə getmir, xroniki hala keçmir, xəstə tez və tam sağalır.

**– Virusa hansı hallarda yoluxmaq mümkündür?**

– Müəyyən gigiyena qaydalarının pozulması nəticəsində virusa yoluxma baş verir və xəstəlik yayılır. Hepatit A virusu, əsasən, fekal–oral yolu ilə digərlərinə ötürülür. Yoluxmuş insan gigiyenaya əməl etməyəndə, fekaliya (nəcis ifrazatı) və çirklənmiş əli ilə infeksiyanı ətrafa yayır. Beləliklə, xəstə əl kontaktı ilə, həmçinin ətrafda toxunduğu qab, meyvə, qida, su vasitəsilə digərlərini asanlıqla yoluxdura bilər. Lakin içiləcək suyu qaynatmaqla onu tamamilə məhv etmək olar. Meyvə və tərəvəzlər yuyulmadığı təqdirdə virusa yoluxma ehtimalı xüsusilə yüksəkdir. Çünki virus soyuğa, istiyə, hətta mədədəki qatı qələvi-turşu mühitinə də davamlıdır. Viruslu yerə toxunub sonra həmin əllə meyvə, tərəvəz, şirniyyat yemək yoluxmaya səbəb olur.

Hepatit A virusu orqanizmə, əsasən, həzm sistemi vasitəsilə daxil olur. Xəstəliyə qan və ya cinsi yolla da yoluxmaq mümkündür. Lakin bu hallar az müşahidə edilir və kütləvi yoluxmalara səbəb olmur.

**– Sarılığın simptomları hansılardır? İnsan nə zaman yoluxduğunu bilir, yaxud şübhələnir?**

– Virusa yoluxan insanda gizli dövr olur və inkubasiya müddəti adlanır. Bu dövr 2–4 həftə davam edir. Xəstəlik insanda halsızlıq, tez yorulma, əzələlərdə ağrı, iştahsızlıq, qusma, mədə ağrısı, ishal əlamətləri ilə özünü göstərir. Bu dövr virusun daha çox yoluxducu olduğu dönəmdir. Daha sonra sarılıq dəridə qaşınma əlamətləri ilə üzə çıxır və xəstənin daha öncəki əlamətlərində rahatlıq müşahidə edilir. Diaqnoz qoymaq üçün Hepatit A virusunun qanda İgM dediyimiz göstəricisinə, qaraciyər testlərinin laborator analizlərinə baxılır. Xəstəliyin gedişi bununla izlənir.

Gözün selikli qişası və dəri saraldıqda, xəstə artıq məsələnin adi soyuqlama, mədə-bağırsaq pozuntusu kimi yox, məhz qaraciyər xəstəliyinin olduğunu anlayır və həkimə müraciət edir. Burada ən əsas erkən əlamət sidiyin rənginin tündləşməsidir. Bu halda həkimə müraciət etmək tövsiyə olunur. Sarılıq baş verdikdən sonra qaraciyərin əvvəlki vəziyyətinə qayıtması 5 aya qədər çəkə bilər.

Bəzən xəstələr tamamilə saralmış vəziyyətdə həkimə müraciət edirlər. Lakin panikaya düşmək lazım deyil. Sağlam insanın Hepatit A virusuna yoluxması həyatı risk daşımır. Ən əsası xəstəni təcrid etmək və digər insanları yoluxmadan qorumaqdır. Onunla təmasda yalnız daha öncə Hepatit A (sarılıq) keçirən insanlar və vaksinasiyası olan şəxslər olmalıdır. Yoluxan şəxsi stasionara yerləşdirməyə hər zaman ehtiyac yaranmır. Belə ki, yaşayış yeri üzrə poliklinikanın sahə həkiminin və ya infeksionistin nəzarətində evdə müalicə almaq mümkündür.

**– Xəstəliyə hər yaşda yoluxmaq mümkündürmü? Hansı qrup insanların bu virusa yoluxma ehtimalı daha çoxdur?**

– Xüsusilə 5–14 yaş qrupu uşaqlar Hepatit A virusuna daha çox yoluxur. Uşaqlarda yoluxma baş verən zaman valideyinlər panikaya düşməsinlər. Bu zaman həkim-pediatrlara müraciət etsinlər, həkim nəzarətində təcrid olunaraq, müalicə alsınlar.

Böyüklər də əksər hallarda məhz uşaqlardan yoluxa bilərlər. Yaşlı insanlar, xüsusilə, xroniki qaraciyər xəstəliyindən əziyyət çəkən, Hepatit B və C xəstələri, sirrozlu xəstələr, alkoqolla bağlı qaraciyər xəstəliyindən əziyyət çəkənlər, ağır ürək, böyrək xəstələri Hepatit A-ya yoluxarsa, bu zaman sağalmada çətinliklər yarana bilər. Buna görə də, virusun alovlanması olan ərazilərdə bu qrup şəxslərə vaksinasiyadan keçmək ciddi tövsiyə olunur.

**– Xəstənin müalicəsi və vaksinasiya necə aparılır?**

– Hepatit A virusu yüksək immunogendir. Virusa yalnız bir dəfə yoluxma mümkündür, sonra ömürlük immunitet formalaşır. Xüsusi müalicəsi üsulu və spesifik bir antivirus preparatı yoxdur. Yalnız simptomatik dərmanlar və infuziyalar tövsiyə edilə bilər. Hepatit A xəstələrinə çox dərman istifadəsi də məqsədəuyğun deyil. Çünki ciddi virus təsirinə məruz qalan qaraciyər həm də əlavə dərmanlara güc sərf etməməlidir. Lazımsız dərman müalicəsindən qaçmaq tövsiyə olunur.

Vaksinasiya Hepatit A virusunun spesifik profilaktika üsuludur. İki doza peyvənd alaraq, bu xəstəlikdən tam qorunmaq mümkündür.

**– Virusa yoluxmamaq üçün nələrə diqqət edilməlidir?**

– Uşaqlarda virusun yayılmasının qarşısını almağın ən yaxşı yolu əl gigiyenasıdır. Yüksək risk qrupunda olan insanlar peyvəndlənmədən keçməlidirlər. Kütləvi qidalanma obyektlərində qida ilə təmasda olan insanların şəxsi gigiyenasına ciddi nəzarət etmək və onlara mütəmadi olaraq xüsusi dezinfeksiyaedici məhlullardan istifadə tövsiyə olunur.

Xəstəliyin simptomları üzə çıxdığı və ya yoluxmaya şübhə olan andan digər insanlarla təmasın minimuma endirilməsi, həmçinin insanların toplaşdığı ərazilərdən bir müddət uzaq qalmaq lazımdır. Bu, başqalarının yoluxmaya daha az məruz qalması deməkdir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Məhəmməd Əmin Rəsulzadə – 140

# Mədəni intibah carçısı

**Prezident sərəncamı ilə 140 illik yubileyi qeyd olunan görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə məfkurə mübarizəsinə publisistik yazılarla başlayıb. O, ictimai-siyasi mövzularda məqalələri ilə xalqı azadlıq mübarizəsinə səsləyib. Sonralar böyük siyasətçi kimi tanınmaqla bərabər, o, ədəbiyyat, incəsənət, tarix kimi mövzularda sanballı yazılar qələmə alaraq, bizə miras qoyub. Teatr əsərləri barədə təhlilləri onun düşüncəsinin geniş aspektindən soraq verir.**



1985-ci ildə Bakıda Qulam Məmmədlinin Abbas Mirzə Şərifzadə barədə salnaməsi çap edilib. Xronikal qaynaqda diqqəti bir məqam çəkir: "İqbal" qəzetinə istinadla 1913-cü ildə Bakıda "Yezid İbn Müaviyə" tamaşasının qoyulduğu bildirilir və Abbas Mirzənin oyunundan bəhs edən bir parça verilir. Lakin məqalə müəllifinin kimliyi göstərilmir. Yalnız dövlət müstəqilliyi dövründə həmin məqalə müəllifinin M.Ə.Rəsulzadə olduğu aşkara çıxıb.

Rəsulzadənin yazdığına görə, tamaşa Curci Zeynalın "Kəbala yanğısı" əsəri əsasında hazırlanıb. Romanı ana dilimizə Bakı qazısı tərcümə edib. Rəsulzadə haqlı olaraq tərcümədəki qüsurları, xüsusən onun azərbaycanlı aktyorların danışıq dilinə uyğun olmamasını tənqid edib ki, bu da XX əsrin əvvəlinin ciddi problemlərindən biri idi. Rəsulzadə aktyorlara düzgün tələffüzlə danışmağı da tövsiyə edirdi.

Müəllif tamaşaya təkcə ümumi nəzər yetirməyib, onu peşəkar teatr tənqidçisi kimi təhlil edirdi. O, Səlma və Şeyx obrazlarının konteksində tamaşada rabitənin itdiyini, obrazlar arasında canlı dioloqun mənasız sükutla əvəzləndiyini diqqətə çatdırıb. Bu fikirlər Rəsulzadənin teatrın canlı sənət olduğunu dərindən duymasından xəbər verir.

1914-cü ildə Bakıda Albaniya mövzusunda "Əhdə vəfa" pyesi səhnəyə qoyulub. Əsəri ana dilinə görkəmli şair Səməd Mənsur tərcümə edib. Tamaşada Abbas Mirzə Şərifzadə 2 rolda oynayıb: Rəcəb və Dəmir bəy obrazlarını yaradıb. M.Ə.Rəsulzadə 2 gəncin sevgisindən bəhs edən əsərin Qafqaz həyatına da yaxın mövzu olduğunu bildirərək ona yüksək qiymət verib. Bununla yanaşı, müəllif tənqidi qeydlərini yazmağı da özünə borc bilib.

"Qaçaq Kərəm" barədə hazırlanan tamaşa da M.Ə.Rəsulzadənin diqqətini cəlb etmişdi. Zamanında Qaçaq Kərəmin şöhrəti Gürcüstana da yayılmışdı. Bu səbəbdən gürcü müəllifi onun haqqında pyes yazmışdı. Lakin əsərin kim tərəfindən tərcümə edildiyinin məlum olmadığı göstərilir. Tamaşada baş rolu Hüseyn Ərəblinski oynayıb. Müəllif aktyorun iki illik fasilədən sonra Bakı səhnəsinə çıxmasını xüsusi vurğulayır, səhnədə rol alan Gülsabah adlı aktrisanın oyununa da diqqəti cəlb edir. Onun ana dilimizdə sərbəst danışdığını təqdir edir. Bununla da biz Azərbaycan səhnəsində hələ 1914-cü ildə qadınların yer almasından da xəbərdar oluruq. M.Ə.Rəsulzadə başda H.Ərəblinski olmaqla əsas rol ifaçılarının hamısına özəl münasibətini ifadə edir.

Görkəmli siyasi xadim həm də bir teatr tənqidçisi kimi, yaranan əsərlərin milli cəhətlərinə xüsusi əhəmiyyət verirdi. Üzeyir Hacıbəylinin "Əsli və Kərəm" operasında bu münasibət aydın əksini tapır. Rəsulzadə aşıq sənətinin opera üçün yararlı olmasından bəhs edir, fikrini Sarabskinin canlandırdığı Kərəm obrazına istinadla əsaslandırırdı. Saz ifasında insanın ülvi hisslərinin ifadəsini xüsusi olaraq vurğulayır və bu kontekstdən çıxış edərək, Azərbaycan toylarında ifa olunan yad musiqiləri tənqid edirdi. M.Ə.Rəsulzadə əsərin səhnə tərtibatına da fikir verirdi: "Mənzərə və qiyafələrə gəlincə, yenə şikayət edəcəyəm. İsfahan padşahının müqərribi olan keşişin bağında qoyulan Roma heykəlləri artıq idi". Bununla da müəllif hər tamaşada mizanların, detalların yerli-yerində olmasını arzu edirdi.

Məhəmməd Əmin Rəsulzadə, Hüseyn Cavidin təbiri ilə desək, mədəniyyətin qılıncdan daha kəskin olduğunu yaxşı anlayan siyasi xadim idi. Buna görə də mədəniyyətin bütün sahələri ilə yaxından maraqlanır, XX əsrin əvvəlində Azərbaycanda gedən mədəni intibaha münasibət bildirməyi özünə vəzifə hesab edirdi.

*Ceyhun MİRZƏLİ,*
*kulturoloq*

# Mətbuat Şurasında səfirlə görüş



**Dünən Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri İssam bin Saleh əl-Cuteyli Azərbaycan Mətbuat Şurasında olub.**

Qonağı salamlayan AMŞ sədri Rəşad Məcid rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri barədə məlumat verib. O, ötən il Səudiyyə Ərəbistanında keçirilmiş media forumunu xoş duyğularla xatırlayıb. Şura sədri Azərbaycan jurnalistlərinin Səudiyyə Ərəbistanındakı həmkarları ilə təmaslarının gücləndirilməsinin vacibliyindən söz açıb.

Səfir İssam bin Saleh əl-Cuteyli də iki ölkənin media təmsilçiləri arasında əlaqələrin genişlənməsinin xalqlarımızın bir-birinə daha da yaxınlaşması baxımından önəmini qeyd edib. Səfir bildirib ki, rəhbərlik etdiyi diplomatik missiya səudiyyəli jurnalistlərin Azərbaycana səfərini təşkil etməyi nəzərdə tutur.

**XQ**

Ozan–aşıq sənətimizi yaşadanlar

# Dəlidağın bala Ədaləti



**Sənətin çətin yollarından onun necə keçib gəldiyini yaxşı bilirəm. Onu da bilirəm ki, Ədalət körpəliyindən sazın bəxtəveridir. Sanki saz üçün doğulub. Gözünü açıb evlərində saz görüb. Həm ata, həm də ana nəslində yaxşı saz-söz biliciləri olub. Özü də kiçik yaşlarından aşıq sənətinin eşqinə düşüb, sənətin çətin yollarında yürüməyə başlayıb.**

Artıq yeniyetmə vaxtında Ədalət öz ifaları ilə sənətsevərləri heyrətləndirməyi bacarıb. Ona Dədə Ədalətin davamçısı – Bala Ədalət deyiblər. Bu adı sənət eşqinin möcüzəli uğuru kimi qazanıb. O, 1967-ci ilin fevral ayında Kəlbəcərin Yellicə kəndində anadan olub. Elə rayondakı musiqi məktəbində də təhsil alıb. Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət evinin nəzdində fəaliyyət göstərən aşıqlar ansamblının rəhbəri Əliş Quliyev Ədalətin ilk ustadı olub. Daha sonra ustad aşıqlar Qəmkeş Allahverdidən və Dədə Ədalətdən mükəmməl dərs alıb.

Ədalət 18 yaşından toy məclislərində, el şənliklərində gözəl ifaları ilə tanınıb, sevilib. 1989-cu ildə Gəncədə keçirilən "Gənc ozan" müsabiqəsində uğur qazanıb. Sonra ustad aşıq Ədalət Nəsibovla birlikdə İraqda keçirilən "Ozan" folklor müsabiqəsinin də qalib gəlib. 2006-cı ildə ölkəmizdə keçirilən "Ozan" müsabiqəsində də 1-ci olub. Sənətdə qazandığı uğurların nəticəsi kimi, dövlətimiz tərəfindən 2007-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb.

Ədalət Dəlidağlı saz-söz məclislərində həmişə başa çəkilir. O, təkcə saz çalıb oxumaqla kifayətlənmir. Məclislərdə gözəl dastan danışmaqla və ürəyinə yatan şeir nümunələrini əsl bədii qiraət ustası kimi söyləməklə də könülləri oxşayır. Aşıq Şəmşirin, Zəlimxan Yaqubun, Məmməd Aslanın, Bəhmən Vətənoğlunun, Şücaətin və başqa şairlərin şeirlərindən seçmələri öz sazının sədaları altında ustalıqla səsləndirir və ruhumuza layla deyir. Sinəsi, elə bil, qaynayan söz çeşməsidir. Yüzlərlə şeiri və 15-dək dastanı əzbərində yaşadır.

Aşığa Dəlidağlı təxəllüsünü verənlər yanılmayıblar. Ədalət Dəlidağlı sazın, sözün, sənətin dəlisidir. Digər aşıqlardan dəli-doluluğu ilə seçilir. O, Dəlidağın qucağından ulduzları sayrışan göylərə boylanıb, sənət dünyasının zirvəsinə boylanıb. Ədalət Dəlidağlı təxəllüsü ona "xəncərə gümüş yaraşan kimi" yaraşır. Bu adı öz sənəti ilə doğruldub və Dəlidağ ucalığında zirvəyə yüksəldib. Bu ada sazın, sözün heyranları böyük rəğbət bəsləyir, bu adı dağlar kimi uca tuturlar.

Onun ifasında hər hansı havacat sönük səslənə bilməz. Havacatlar, sanki, Ədalətin ürəyində ocaq çatır. Sazın sinəsində havacata uyğun xallar gül açır. Ədalətin ürək şəkilli sazı ürək kimi döyünür, ürək kimi çırpınır. O, "Yanıq Kərəmi"ni çalanda pərdələrə yanğı düşür. Başını sazının sinəsinə söykəyib havacatı havacata calayır. Onun ifasında "Ruhani"ni dinləyən insan nəfəsini içinə çəkir, sözü sükutla pıçıldayır. Sazı ahəstə dillənəndə səsi bulaqların həzin zümzüməsinə bənzəyir. Çılğınlıqla sazı bağrına basanda, başının üzərinə qaldıranda coşub-çağlayan çaya dönür. Çayın selləri məcrasına sığmır. Sazının telləri hörüyə gəlmir... Ədalət saz çalanda özündə olmur. Ruha bənzəyir. Gərilmiş yaya bənzəyir. İfa etdiyi havacatlar saz sevdalılarının iliyinə, qanına işləyir.

Doğru sözdür ki, ustada qulluq etməyənlərin işi xam qalar. Ədalət Dəlidağlı həm kamil ustadlardan dərs alıb, həm də öz şagirdlərinə və yetirmələrinə ustad dərsləri keçir. O, Aşıq Əfqan, Aşıq Qalib, Şəhriyar Laçınlı və Ülvi Cəfərov kimi davamçılarını ərsəyə gətirib. Onların adlarını fəxrlə çəkir.

O, ozan-aşıq sənətinin daşıyıcılarını, aşıq məktəblərini özünəməxsus dəyərləndirir. Deyir: "– Azərbaycanda Göyçə, Borçalı, Tovuz, Gəncə–Şəmkir, Şirvan, Qaradağ, Təbriz, Urmiya, Dərbənd və Çıldır aşıq məktəbləri olub. Borçalı, Çıldır və Urmiya aşıqları təklikdə, Tovuz, Gəncə–Şəmkir aşıqları həm təklikdə, həm də ikilikdə – balabançı ilə məclis aparırlar. Şirvan və Təbriz aşıqlarının havacatları və ifa tərzləri Göyçə və başqa Qərb aşıq məktəblərindən fərqlənir. Şirvan aşıqlarında ritm daha çox üstünlük təşkil edir. Özlərinə məxsus rəqsləri var. Ona görə də məclislərə ansamblla çıxırlar. Bunların hamısı xalqımızın sərvətidir. Hərəsinin öz yeri, öz dinləyicisi və öz pərəstişkarları var".

Aşıq Ədalət Dəlidağlı sazı şou alətinə çevirənləri, sazın çətiri altında yüngül davrananları qınayır. Haqlı olaraq deyir ki, sazla belə davranmaq olmaz. Ozan-aşıq sənəti bizim ulu sənətimizdir. Sazımız musiqi sərvətimizdir. Onu bayağılaşdırmaq, sənətə kəm baxmaq bizə yaraşmaz.

Ədalət Dəlidağlının sənəti və sənətkarlığı haqqında yazdıqlarım dəryadan bir damladır. Onun sənəti kitaba, dəftərə sığmaz. Bu gün ustad Ədalət Dəlidağlının doğum günüdür. Onu bu münasibətlə ürəkdən təbrik edir və ən xoş arzularımı bildirirəm.

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

# "Hamlet"in DOST təqdimatı



**Azərbaycanın ilk inklüziv ƏSA (Əngəlsiz, Sərhədsiz, Azad) Teatrının yaradıcı heyətinin səhnələşdirdiyi "Hamlet" tamaşasının premyerası olub.**

Tamaşadan əvvəl qeyd olunub ki, 2021-ci ilin oktyabr ayında Prezident İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə açılışı olmuş DOST Mərkəzi əlillərin və digər həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsində mühüm rol oynayır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan mərkəzdə son bir ildə 180-dən çox, 2 illik fəaliyyəti ərzində isə 480-dən çox benefisiar müxtəlif fəaliyyət istiqamətləri üzrə təlimlərə cəlb olunub. Həmçinin burada mütəmadi olaraq inklüziv yaradıcılıq tədbirləri təşkil olunur. Nazirliyin ƏSA Teatrı ilə fəal əməkdaşlığının nəticəsi olaraq hazırlanan bir sıra inklüziv tamaşalarda benefisiarlar da yer alıb. Qurum əlillərin yaradıcı potensialının inkişaf etdirilməsi üzrə "Əlillik qüsur deyil" devizi ilə fəaliyyət göstərir. Uilyam Şekspirin yeni təqdim edilən "Hamlet" tamaşası da bunu bir daha təsdiq edir.

Facia maraqla izlənib və belə bir qəti əminlik yaradıb ki, fiziki qüsurlu olmaq heç də facia deyil. Tamaşadan sonra Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, mədəniyyət naziri Adil Kərimli, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, deputat Jalə Əhmədova, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Mədəniyyət və İncəsənət Universitetinin rektoru Ceyran Mahmudova, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Xalq artistləri Fəxrəddin Manafov, İlham Namiq Kamal, Firəngiz Mütəllimova və başqaları yaradıcı heyətlə görüşərək, istedadlara yeni-yeni uğurlar arzulayıblar.

*Zərifə HÜSEYNOVA*
*XQ*

Yaddaşlarda yaşayanlar

# Qanı şəkərli, canı kədərli "söz partizanı"

**Ötən əsrin 90-cı illərinin əvvəllərində Dövlət Ədəbiyyat və İncəsənət Arxivində şöbə müdiri işləyən Maarif Teymurov (sonralar həmin arxivin direktoru təyin edilmişdi) tez-tez mənə maraqlı tarixi materiallar verirdi. Mən isə onları yazıya, eyni zamanda, qonorara çevirirdim.**

"Səhər" qəzetinə verdiyim həmin yazıları oxuyanda redaktor Məzahir Süleymanzadə özünü "bir az tox tutsa da" (yəni məndə özündənrazılıq hissi yaranmasın deyə), Süleyman Qaradağlı, Zöhrab Əmirxanlı və Surxay Hüseynli hər dəfə razılıq edirdilər. Zöhrab deyirdi ki, kaş, mən qəzet redaktoru olaydım. Xalq Cümhuriyyəti tarixinə aid bu materiallara görə isə sənə nə qədər qonorar yazardımsa, bir Allah bilərdi.



Allah mənə Zöhrabın həmin "döşünə döyməsi"ni sınaqdan çıxarmaq imkanı da verdi. Yəni Zöhrab sonralar "Hürriyyət" qəzetinin redaktoru oldu və mən ona Rusiya ərazisindəki türk xalqlarının tarixi, mədəniyyəti, talan edilən təbii sərvətləri haqqında elə rus mətbuatından tərcümə etdiyim yazıları göndərməyə başladım. Bəs, o nə etdi? Hər yazıma "Səhər"dəkindən qat-qat artıq qonorar yazdı.

...Sonralar onun ömür-gün yoldaşı, tanınmış jurnalist Mehriban Əbülfətqızının vaxtsız vəfatı hamımızı sarsıtdı. Bu faciəni Zöhrabın bütün dost və həmkarları birlikdə yaşadılar. Hamımız bu məkrsiz, fitnə-fəsadsız insanın dərdinə şərik olmağa çalışdıq.

Daha sonra mən Bayıla, Jurnalistlər şəhərciyinə köçdüm. Hər gün işə – Bülbül prospekti 18-ə gələndə avtobusdan Dövlət Bayrağı meydanında düşür, dənizkənarı bulvarla gəlirdim. Demək olar ki, Zöhrabı hər səhər orada görürdüm. Gah qucağında balacaboy, ağımtıl bir it olurdu, gah da iti buraxaraq, kiminləsə ucadan danışıb astadan gülürdü. İçində özü boyda kədəri olsa da, kiminlə söhbət etməsindən asılı olmayaraq, daim nikbin görünürdü. Amma nikbin olmadığını hamı bilirdi.

Çox keçmədi ki, onun da ölüm xəbərini eşitdik. Mən rayondan Bakıya yenicə qayıtmışdım, İlqar Həsənov zəng elədi ki, gəl, ora gedirik. Gəldim, getdik və ertəsi günü "Facebook"da şeirə bənzəyən bir neçə cümlə yazdım:

*Bir oğlan gəzirdi sahildə hər gün –*
*Gah bir ağımtıl itlə,*
*Gah da al-qırmızı köynəklə.*

*Ağ da onluq deyildi, al da onluq deyildi.*
*Dolaşırdı bulvarda*
*içindəki Mehriban göynəklə...*

Bizim iş yerimizə yaxın ərazidə yaşayırdı. "Hər səhər bir oğlan gedirdi Bülbül prospektilə, sarı bulbul kimi əlvan geyimli. Cəh-cəhi yoxuydu, səsi yoxuydu, zümzümə deyirdi addımlarına. Elə bilirdim ki, hər tində dayanıb köks ötürür. Elə bilirdim ki, tam orijinal olan, heç kəsdə görmədiyim təbəssümüylə asfalta, daşa, divara nəsə deyir".

O ki qaldı, onun "partizanlığına", bir müsahibəsində demişdi: "Təxminən, 13 yaşım vardı. Gecə vaxtı evə qayıdarkən bir çoban iti üstümə cumdu və mən bərk qorxdum. Səhəri başladım çoxlu su içməyə. Sutkada 20 litr su mənə kifayət eləmirdi. 40 illik şəkərli diabet xəstəliyim belə başladı".

Sonrasını demirdi. Amma hamı bilirdi ki, jurnalistikaya öz fərdi yanaşması, yazı üslubu olan Zöhrabın hansısa iş yerində "duruş gətirə bilməməsi" də məhz həmin xəstəliyin fəsadları idi. Xırdaca, şirvanlılar demiş, bir cıkkın haqsızlıq, ədalətsizlik görən kimi oradan çıxıb gedirdi. Dostları onu "söz partizanı" adlandırsalar da, onunku partizanlıq yox, etirazın Zöhrab variantı idi. Dostlarından biri onun qara xəbərinin ertəsi günü yazmışdı ki, Zöhrab iliyinə qədər jurnalistdir.

Allah rəhmət eləsin!

*İttifaq MİRZƏBƏYLİ,*
*Əməkdar jurnalist*

# "Qılınc və qələm" özbək dilində

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə tanınmış Azərbaycan yazıçısı Məmməd Səid Ordubadinin "Qılınc və qələm" tarixi romanı özbək dilində nəşr olunub.**




Daşkənddəki "Niso" nəşriyyatında işıq üzü görən romanı özbək dilinə Nazira Əliyeva, Muhsin Hamidov və Rustam Komilov tərcümə ediblər. Nəşrin redaktoru və nəşrə hazırlayan Abdulla Ulugovdur.

Kitabın "Ön söz"ündə qeyd olunur ki, Məmməd Səid Ordubadinin bu əsəri XX əsr türk xalqlarının ədəbiyyatına özünəməxsus töhfə verib. Romanda bütün dövrlərdə mürəkkəb insan münasibətlərində yer tutan sevgi, qısqanclıq, karyera və hərislik duyğuları qabarıq verilib.

"Qılınc və qələm" romanının yaxın günlərdə Özbəkistanın aparıcı kitabxanalarında, təhsil və elm ocaqlarında təqdimatlarının keçirilməsi nəzərdə tutulur.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin xüsusi müxbiri*

**Daşkənd**

Beynəlxalq həyat

**Yaxın Şərq uzun onillər boyu siyasi və hərbi baxımdan planetimizin ən həssas nöqtələrindən biri olub. Son illər isə bura, hətta, qlobal siyasətin tarıma çəkildiyi bir məkana çevrilib. Bölgədəki gərgin proseslərin nəticəsi yeni dünya nizamına öz təsirini göstərə bilər.**

Yaxın Şərqin "qaynar qazan"a çevrilməsi heç də səbəbsiz deyil. Belə ki, regionda dini, etnik, ərazi iddiaları zəminində onillər boyu həllini tapmayan bir çox ciddi problemlər mövcuddur. Onları ədalətli şəkildə çözmək, hələlik, heç cür mümkün olmur. Düzünə qalsa, buna heç cəhd də edilmir.

vəziyyətin nəzarətdən çıxmaması üçün bütün müsəlman dövlətlərini, eləcə də Tehranı səylərini birləşdirməyə çağırıb. İran lideri də ölkəsinin münaqişənin ədalətli həllində maraqlı olduğunu qeyd edib.

Bu məqamda Yaxın Şərqin digər bölgələrində cərəyan edən gərgin hadisələrə qısa da olsa nəzər salmağa ehtiyac duyuruq. Məlumdur ki, son günlər ABŞ və Böyük Britaniya bir neçə dəfə Qırmızı dənizdə İranın dəstəklədiyi Husilər Hərəkatının hərbi və mülki obyektlərinə hava zərbələri endirib.

# Türkiyə və Yaxın Şərq

Ötən il oktyabrın 7-də HƏMAS-ın İsrailə qəfil hücumu və bu zaman törətdiyi ağır zorakılıqlar regionu və bütün dünyanı yenidən şoka saldı. İsrail hökumtəi isə artıq dörd aya yaxındır ki, qarşı tərəfi cəzalandırmaqla məşğuldur. Təəssüf ki, Təl-Əviv bu zaman heç də real vəziyyətə adekvat olmayan, aşırı hərbi zərbələrə əl atır. Təbii ki, dünya ictimaiyyəti bundan hiddətlənir, lakin bölgənin "qan axan" yaralarına çarə tapa bilmir.

Xatırladaq ki, husilər Qəzzadakı zorakılıqlara etiraz olaraq Qırmızı dənizdə Qərb dövlətlərinin gəmilərinə hücum edirlər. Dünyada dəniz yolu ilə daşınan malların təqribən 10 faizi Qırmızı dənizin payına düşür. Qərb dövlətlərinin ciddi xəbərdarlıqlarına baxmayaraq, husilər geri çəkilmək niyyətində deyillər.




Yaxın Şərqdə qarşıdakı qısa müddət ərzində silahlar susmasa, müharibə alovu qonşu ölkələri də ağuşuna alacaq. Nəticədə, Üçüncü Dünya müharibəsi qaçılmaz olacaq. Bu, qorxulu perspektiv "iki vur iki qədər" hər kəsə aydındır. Regionda zorakılıqları durdurmaq üçün qabaqlayıcı addımlar bu gün atılmalıdır, çünki sabah gec olacaq.

Yaxın Şərqdə maraqları olan böyük güclər yalnız sözdə münaqişənin həlli üçün "çalışırlar". Amma bir dövlət var ki, o, bölgədə ədalətli sülhün bərqərar olunması üçün əlindən gələni edir. Bu, qardaş Türkiyə dövlətidir.

Ankara regionda baş verən təhlükəli proseslərin fərqindədir və hadisələrin daha ağır məcraya yönəldilməməsi üçün gərgin diplomatik səylərini ortaya qoyur. Bir çox siyasi təhlilçilər Türkiyənin regionda "ildırımötürən" funksiyasını yerinə yetirdiyini xüsusi qeyd edirlər.

Bu, həqiqətən, belədir. Prezident Rəcəb Tayyib Ərdoğan bir neçə gün əvvəl bir günlük rəsmi səfərlə Ankaraya gələn iranlı həmkarı İbrahim Rəisi ilə apardığı müzakirə zamanı regionda

Bu müddət əvvəl İranın öz qonşusu Pakistanda bəlucların mövqelərinə gözlənilmədən hava hücumları, ardınca qarşı tərəfin "güzgü effektli" cavab zərbələrindən sonra bir daha bəlli oldu ki, adicə bir qığılcım bu gün "barıt çəlləyi"nə bənzəyən Yaxın Şərqi ağır fəsadlara aparan müharibəyə sürükləyə bilər.

Türkiyənin təhlükəsizlik orqanları İraqın şimalında və Suriyada PKK terrorçularına və onun digər qanadı olan YPG yaraqlılarına qarşı vaxtaşırı antiterror əməliyyatları həyata keçirməyə məcbur olurlar. Ankara faktiki olaraq bir çox böyük güclərin arxasında durduqları və silahlandırdıqları terrorçuların bölgədə "qol-qanad" açmasına imkan vermir.

Təəssüf ki, Ankara bu humanist missiya üçün digər müsəlman ölkələrindən lazımi dəstəyi ala bilmir.

***M.HACIXANLI***
***XQ***

**Ekspert rəyi**



**Şahbaz ŞAMIOĞLU, filologiya elmləri doktoru, professor**

Türkiyənin regionda stabil və humanist xarici siyasət yürütməsi bu ölkənin humanizm dəyərlərinə sadiqliyini nümayiş etdirir. Bu siyasi kurs hələ dahi qurucu lider Mustafa Kamal Atatürkün vaxtında müəyyən olunub. Türk millətinin və dövlətinin böyük xilaskarı "Yurdda sülh, cahanda sülh" demişdir. O dönəmdən Türkiyə bu gərgin bölgədə sülhün əsas qarantı kimi çıxış edir.

Son vaxtlar Yaxın Şərqdə gərginliyin kritik vəziyyətə çatdığı bir vaxtda İran Prezidenti İbrahim Rəisinin Ankaraya səfəri böyük əhəmiyyət kəsb edir. Bəzi analitiklər haqlı olaraq hesab edirlər ki, Qəzza problemi Ankara və Tehranın mövqelərini bir çox istiqamətlərdə, xüsusilə regionun təhlükəsizliyi məsələsində yaxınlaşdırıb.

Lakin Yaxın Şərqin iki böyük dövləti olan Türkiyə və İranın Suriya rejiminə münasibətdə mövqeləri haçalanır. Belə ki, Ankara Bəşər Əsəd rejimi ilə danışıqlar aparmağın mənasız olduğunu bildirir, Tehran isə bu məsələdə tamamilə əks mövqe nümayiş etdirir və rəsmi Dəməşqə Rusiya ilə birlikdə hər cür dəstək verir.

Xatırladaq ki, İran və Türkiyənin 535 kilometr ümumi sərhədi var və bu iki böyük dövlət arasında tarixən çox sıx iqtisadi və diplomatik əlaqələr olub. Təqdirəlayiq haldır ki, tərəflərin heç biri 1639-cu ildə İranda imzalanan "Qəsr Şirin" sülh müqaviləsini pozmayıb.

Ankara regionda münaqişənin genişlənməsinin qarşısını almaq naminə böyük diplomatik səylər ortaya qoyur, bu müdrik və humanist siyasət dünya ictimaiyyəti tərəfindən təqdir olunur.

# Çinlə ticarət müharibəsi Aİ-yə sərf edərmi?

**"Avropa İttifaqı (Aİ) və Çin yaxın vaxtlarda açıq ticarət qarşıdurmasına başlaya bilər". Bu sözləri Brüsseldəki yüksək çinli məmurlardan biri "South China Morning Post" nəşrinə müsahibə verərkən açıqlayıb. İllərlə yığılıb qalan ziddiyyətləri aradan qaldırmaq üçün tərəflərdən heç biri prinsipial güzəştə getmək fikrində deyil. Bununla belə Çin hələ də Aİ-nin əsas ticarət tərəfdaşlarından biri olaraq qalır.**



Nəşrin qeyd etdiyinə görə, Aİ rəhbərləri ÇXR Dövlət Şurasının sədri Li Çyanın bu günlərdə Davos Ümumdünya İqtisadi Forumunda çıxışı zamanı dünyaya açıq olmaq siyasəti haqqında dediklərindən heç də razı qalmamışlar. Bununla yanaşı, Li sonra İrlandiyaya rəsmi səfər edib və bu ölkənin ÇXR-ə gələn vətəndaşları üçün birtərəfli vizasız rejimin tətbiqini elan edib, həmçinin İrlandiyanın mal əti tədarükünə qoyulmuş qadağanın aradan qaldırılmasına razılıq verib. Brüssel bütün bunları "döyüşkən və müdafiə olunmağa qalxan" Çinin ABŞ-da seçkilərin keçirilməsinə qədər vaxtı uzatmaq arzusu kimi qiymətləndirib.

Aİ liderlərinin Pekinin ünvanına səsləndirdikləri iqtisadi ittihamlar arasında əsas maddə 200 milyard avroluq ticarət "disbalans"ıdır. Onların sözlərinə görə, Avropa məhsullarının Çin bazarlarına buraxılmaması və ÇXR hökuməti tərəfindən Avropa bazarını dolduran elektrik avtomobillərinin və başqa məhsulların istehsalının subsidiyalaşdırmasıdır.

2023-cü ildə Pekin üçün ikinci böyük ticarət tərəfdaşı olan Aİ ilə Çinin mal dövrüyyəsi 782,9 milyard dollar təşkil edib. Ötən ilin nəticələrinə görə ÇXR-in birlik ölkələrinə ixracı 500 milyard dollardan bir qədər çox, Aİ-dən idxal isə 281,7 milyard dollar təşkil edib.

Doğrudur, bütün kəskin məsələlər 4 ildə ilk dəfə 2023-cü ilin dekabrında tərəflər arsında yüksək səviyyədə keçirilən əyani sammitdə müzakirə olunub, ancaq bu, nəticəsiz başa çatıb. O zaman Avropa Komissiyasının sədri Ursula fon der Lyayen ÇXR sədri Si Cinpini xəbərdar edib ki, Aİ-nin ixtiyarında "öz bazarını qorumaq üçün aləti var". O, hətta çinlilərin Avropanın tibbi avadanlıqlar bazarına girişini məhdudlaşdıran (bu sektorda Çin Aİ-ni öz bazarına buraxmır) tədbirlər həyata keçirməyə hazır olduğunu da bildirib.

Belə iddia edilir ki, bütün bu xəbərdarlıqlara cavab olaraq Si Cinpin Aİ liderlərinə məsləhət görüb ki, 2018-ci ildə Çinə ticarət müharibəsi elan edən, lakin nəticədə "uğursuzluğa məruz qalan" ABŞ-ın keçmiş prezidenti Donald Trampın təcrübəsini öyrənsinlər. Hətta onu da əlavə edib ki, əgər Avropa analoji müharibə aparmaq qərarına gəlsə, o zaman "Köhnə qitə"ni də eyni tale gözləyir. Avropa liderlərinin yeni tədbirlər tətbiq edəcəkləri ilə bağlı hədələrinə cavab olaraq Çin lideri buna qarşılıqlı tədbirlərlə cavab veriləcəyini vəd edib. Çinin istehsal sektorunda uğurlarına gəldikdə isə Si bunun subsidiyalarla deyil, ÇXR məhsullarının səmərəliliyi və rəqabətqabiliyyətliyi ilə bağlı olduğunu bildirib. Aİ-nin yüksək çinli məmuru bu tərz danışıqları "ticarət müharibəsinin resepti" hesab edir.

Yanvarın sonunda Aİ yenilənmiş iqtisadi təhlükəsizlik strategiyasını təqdim edəcək ki, son dərəcə vacib olan sahələri Çin və Rusiya tərəfindən ediləcək investiya nəzarətindən qorusun. "Bloomberg"in yazdığına görə, qəbul edilən tədbirlər birliyin "dəyərlərini bölüşməyən" tərəfdaşlarla münasibətlərdə "Aİ-nin iqtisadi təhlükəsizliyi üçün yarana biləcək riskləri" aradan qaldırmağa yönəldiləcək. Kritik texnologiyaların siyahısına yarımkeçiricilər, süni intellekt və biotexnologiya daxildir.

Mümkün tədbirlər dairəsinə birbaşa xarici investisiyaların təşviqi qaydalarının sərtləşdirilməsi, ixraca nəzarətin əlaqələndirilməsi, həmçinin "xarici investisiyalar vasitəsilə Aİ-nin rəqiblərinə həssas "nou-hau"nun sızmasına nəzarət etmək üçün yeni mexanizmin işlənib hazırlanması daxildir. Bununla belə, Aİ-yə üzv olan bəzi dövlətlərin Brüsselə daha da çox səlahiyyətlər vermək və Çinlə ticarət müharibəsi cəbhəsini açmaq istəməməsi səbəbindən, sənədə hüquqi qüvvəyə malik heç bir norma daxil edilməyəcək.

Ekspertlər hesab edirlər ki, Çin və Aİ arasında münasibətlərin dinamikasını nəzərdən keçirərkən, diqqəti yalnız son illərin siyasi hadisələri üzərində cəmləmək doğru olmazdı. Çünki Aİ hələ 2010-cu illərdə Çinin dövlət subsidiyaları vasitəsilə yüksək texnologiyalı sənayenin sürətləndirilmiş inkişafı proqramları ilə bağlı ciddi narahatlıqlar hiss etməyə başlayıb. Məhz bu müstəvidə tərəflər arasında münasibətlər mürəkkəbləşməyə başladı, çünki ABŞ-dan fərqli olaraq, Aİ innovasiyalar sahəsində effektiv siyasət yürütmək iqtidarında deyil. Aydın məsələdir ki, əgər Brüssel mövcud tendensiyalarla bağlı heç nə etməsə, Avropa getdikcə daha çox itirəcək və Çin onun bazarlarını ələ keçirəcək. ÇXR güzəştə getmir, çünki ona da öz yüksək texnologiyasını qorumaq lazımdır.

Bununla yanaşı, çinlilər öz üsullarından istifadə edərək, xüsusən də ikitərəfli diplomatiya yolu ilə avropalılarla münasibətlərə təsir göstərməyə çalışırlar. Məsələn, Fransa prezidenti Emmanuel Makronun 2023-cü ildə Çinə səfəri zamanı tərəflər arasında müxtəlif sənaye sahələri üzrə bir neçə milyard dollar dəyərində 14 müqavilə imzalandı və yalnız bundan sonra fransalı qonaq Avropanın strateji muxtariyyətinin əhəmiyyətindən danışmağa başladı.

Əslində indi çinlilər, həqiqətən də okeanın o tayındakı seçkilərin nəticələrini gözləyirlər və ümid edirlər ki, bu seçkilərdən sonra orada Transatlantik həmrəylik zəifləyəcək və hadisələr siyasi elitaların yenilənməsinə gətirib çıxaracq.

Son illərdə Çinin Aİ liderləri ilə "güclü tərəf" mövqeyindən danışması aydın müşahidə edilməkdədir. Elə bu da ticarət müharibəsinin qarşısını almağa kömək edir, lakin belə davranışın qismən lazımsız çətinliklərə gətirib çıxarması da faktdır. Məsələn, 2020-ci ilin sonunda tərəflər çox çətinliklə Hərtərəfli İnvestisiya Sazişinin şərtlərini razılaşdıra bildilər, lakin sonra Çin Avroparlamentin Sincanda insan haqları ilə bağlı qəbul etdiyi qətnaməyə görə qurumun deputatlarına qarşı sanksiyalar tətbiq etdi və bu, sənədin paraflamasının "asılı vəziyyət"də qalmasına səbəb oldu. Bundan əlavə, analitiklər hesab edirlər ki, ÇXR liderlərinin Ursula fon der Leyenlə mürəkkəb şəxsi münasibətləri də öz rolunu oynadı. Lakin indi Avropa Komissiyasının yeni rəhbəri münasibətlərin istiləşməsinə kömək edə bilər.

Bu gün Aİ-nin istifadə edə biləcəyi mümkün məhdudlaşdırıcı vasitələr arasında tarifləri, ixrac nəzarətini və onun şərtlərini pozan Avropa şirkətlərinə dövlət dəstəyinin ləğvini qeyd edirlər. Bütün hallarda Çinlə ticarət müharibəsi baş verərsə, (hərçənd bu o qədər də real görünmür) o zaman ən böyük zərər Avropa iqtisadiyyatının yüksək texnologiyalar sektoruna dəyəcək.

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***


# Əmanətlərin Sığortalanması Fonduna üzv bankların reyestrini ictimaiyyətin diqqətinə təqdim edir

**Əmanətlərin Sığortalanması Fondu «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsinə əsasən iştirakçı bankların 30 yanvar 2024-cü il tarixinə olan reyestrini ictimaiyyətin diqqətinə çatdırır:**

Əmanətlərin Sığortalanması Fondu

| | Reyestrə daxil olma tarixi | Bankın adı |
|---|---|---|
| 1 | 30.07.07 | ASC «XALQ»Bankı |
| 2 | 30.07.07 | «Azərbaycan Beynəlxalq Bankı»ASC |
| 3 | 30.07.07 | "ACCESSBANK" QSC |
| 4 | 30.07.07 | Melli İran Bankı Bakı filialı |
| 5 | 30.07.07 | «Azər-Türk Bank» ASC |
| 6 | 30.07.07 | «Bank of Baku» ASC |
| 7 | 30.07.07 | «Bank Respublika» ASC |
| 8 | 30.07.07 | «Kapital Bank» ASC |
| 9 | 30.07.07 | «YELO BANK» ASC |
| 10 | 30.07.07 | «Rabitəbank» ASC |
| 11 | 30.07.07 | «TURANBANK» ASC |
| 12 | 30.07.07 | «UNİBANK» KB ASC |
| 13 | 30.07.07 | Yapı Kredi Bank Azərbaycan QSC |
| 14 | 07.08.07 | «Expressbank»ASC |
| 15 | 10.09.07 | «Azərbaycan Sənaye Bankı» ASC |
| 16 | 04.12.07 | «Bank Avrasiya» ASC |
| 17 | 04.12.07 | «Paşa Bank» ASC |
| 18 | 29.08.08 | «Naxçıvanbank» ASC |
| 19 | 16.01.09 | «AFB BANK»ASC |
| 20 | 26.02.09 | BANK VTB (AZƏRBAYCAN) ASC |
| 21 | 28.04.09 | PREMIUM BANK ASC |
| 22 | 15.04.10 | Bank «BTB» ASC |
| 23 | 15.05.15 | «Ziraat Bank Azərbaycan» ASC |



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun tabeliyindəki idarələrə tələb olunan qoruyucu ipsiz çəkmələrin satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il fevralın 7-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1263.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 21 (30425) 1 fevral 2024-cü il, cümə axşamı

## Yeni nəslə H.Z.Tağıyev dərsi

**Milli Azərbaycan Tarixi Muzeyində İnnovasiyalar və təhsil proqramları şöbəsinin təşkilatçılığı ilə 2 fevral – Azərbaycan Gəncləri Gününə həsr olunmuş "Zəhmət ilə gələn zinət. Dərsimiz - Hacı Zeynalabdin" adlı interaktiv dərs keçirilib.**

Bu barədə muzeydən məlumat verilib. Hacı Zeynalabdin Tağıyevin ev-muzeyində keçirilən interaktiv dərsdə 8 nömrəli internat məktəbinin şagirdləri iştirak ediblər. Şagirdlər əvvəlcə Hacı Zeynalabdin Tağıyevin ev-muzeyinə ekskursiya ediblər. Sonra onlar üçün intellektual oyun təşkil olunub.

Sonda şagirdlərə hədiyyələr təqdim edilib.

***XQ***

## OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

### *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Pianoçumuzun Vyanada dostluq töhfəsi



***Türkiyənin Vyanadakı səfirliyində bu ölkə ilə Avstriya arasında imzalanmış dostluq müqaviləsinin 100-cü ildönümünə həsr olunmuş mərasim keçirilib.***

Bədii hissəni iştirakçılara gənc azərbaycanlı pianoçu, Avstriyanın Anton Brukner adına Konservatoriyasının tələbəsi, beynəlxalq müsabiqələr laureatı, "Qran- Pri" mükafatçısı Ayan Məmmədli təqdim edib.

İstedadlı soydaşımız konsertdə türk və Avropa bəstəkarlarının əsərlərindən ibarət ifaları alqışlarla qarşılanıb.

Sonda Türkiyənin Avstriyadakı səfiri Ozan Ceyhun və xanımı gənc pianoçu Ayan Məmmədliyə maraqlı musiqi təqdimatına görə təşəkkürlərini bildiriblər.

***XQ***

**"Xalq qəzeti"nin tarixindən**



# XXI əsrə 299 gün qalırdı

## *XQ UNESCO-nun 8 Mart təşəbbüsünə necə qoşulmuşdu?*

**Şəxsi arxivimdə "Xalq qəzeti"nin 8 mart 2000-ci il tarixli nömrəsindən bir nüsxə var. Mərhum baş redaktorumuz Mahal İsmayıloğlunun imzaladığı və 7467 nüsxə tirajla çap olunmuş 6 səhifəlik nömrənin 1-ci səhifəsinin yuxarı sağ küncündə XXI əsrə 299 gün qaldığı bildirilir. Nömrənin yenə yuxarı sol hissəsində isə belə yazılıb: "YUNESKO-nun (indi UNESCO-O.B.) "8 martda informasiyanı qadınlar hazırlayır" təşəbbüsünə qoşulan "Xalq qəzeti"nin bugünkü nömrəsini redaksiyanın qadın əməkdaşları hazırlamışlar".**

Düşünürəm ki, aradan 24 il keçdikdən sonra və ya XXI əsrin dörddəbirinin arxada qaldığı bir vaxtda, üstəlik də, növbəti 8 Mart ərəfəsində həmin nömrəni xatırlamağa imkan yaranıb.

Nömrə 8 Mart – Beynəlxalq Qadınlar bayramına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqini oxuculara çatdıran AzərTAC-ın (indi-AZƏRTAC) "Bayramınız mübarək, əziz qadınlar!" sərlövhəli materialı ilə açılır. Ulu öndərin nitqindən iki abzası bir daha oxuyaq:

"Mən bu əziz bayram günü Azərbaycanın şəhid analarını, qaçqın-köçkün vəziyyətində yaşayan qadınları böyük hörmət-ehtiramla yad edir və onlara bu salondan bütün Azərbaycan qadınlarının adından, bizim hamımızın adından bayram salamı göndərirəm.

Qadınlar bir belə əziyyət, zəhmət çəkərkən nə istəyirlər? Sadəcə, onlara diqqət, qayğı, hörmət, ehtiram! Bu anlayışlar çox genişdir. Diqqət də, qayğı da müxtəlif formalarda ola bilər. Ancaq kişilər gərək qadınları həmişə yüksəkdə görsünlər, qadınlara gərək xüsusi hörmət etsinlər, qadınlara diqqətli yanaşsınlar".

"Xalq qəzeti"nin əməkdaşları Zərifə Beşirqızı, Təranə Nuriyeva, Əsli Xəlilqızı və Ağanisə Sultanova da qəzetin həmin nömrəsi üçün bayrama layiq materialların hazırlanmasında az zəhmət çəkməmişlər. Onlarla yanaşı, həmkarları Pərvanə Sultanova, Şəlalə İbrahimova, Sərmayə Bahadurqızı, T. Əliyeva, Hökumə Feyziqızı, Zeynəb Zamanova da müxtəlif peşə sahibləri olan Azərbaycan qadınları haqqında səmimi yazıları, reportaj və müsahibələri ilə bayrama öz töhfələrini vermişlər.

Beşinci səhifədəki bir yazı isə o vaxtlar bütün kollektivin çox əziyyətini çəkmiş qəzetin kompüter xidmətində çalışan qızlara həsr edilmişdi. Ağanisə Sultanovanın bu xanımlara minnətdarlıqla qələmə aldığı "Bizim qızlar" sərlövhəli məqaləni kiçik ixtisarla yenidən oxucuların diqqətinə çatdırırıq.

"Təranə xanım (Allah T.Mədətovaya rəhmət eləsin-O.B.) və onun komandası – Vəfa, Aynur, Gülbəniz, Nigar, Günay, Sona, Gülnarə. Əslində onları bir-birindən ayırmaq, hansısa haqqında fərqli söz demək çətindir. Elə bil qəzetimizin kompüter xidmətində çalışan bu qızları xüsusi olaraq seçiblər. Hamısı mehriban, səmimi, üzügülər… Qəzetimizdə dərc edilən bütün yazıların ilk oxucuları da onlar olur. Bəzən öz şəxsi problemləri olsa belə, iş prosesində bunu hiss etdirmirlər.

Hər gün onlarla bir neçə dəfə ünsiyyətdə oluram. Və düşünürəm ki, işinə məsuliyyət hissi ilə bərabər hamımız bir-birimizə qarşı bu qızlar kimi mehriban, səmimi olsaydıq, dünya necə də gözəl olardı.

Bəzən iş vaxtı başa çatsa da, təcili nömrəyə hazırlayacağımız materialdan ötrü qayıdıb, yenidən kompüter arxasına keçirlər. Hər gün onları ən çox "yoran", deyəsən, bizim siyasət şöbəsi olur".

**Redaksiyadan: Ürəkdən gələn çox səmimi sətirlərdir. Veteran həmkarımıza bu xatırlatmasına görə təşəkkür edirik.**

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

**Sosial şəbəkələrdən seçmələr**

# Virtual reallıq nədir?

**Hələ gənclik illərindən yaxından tanıdığım, geniş erudisiyası, məntiqi ilə fəxr etdiyim, dostum, publisist, şiyasi şərhçi Qəzənfər Həmidoğlu bu günlərdə "Facebooksa "Virtual reallıq..." adlı maraqlı bir paylaşım edib. Orada yazılıb:**



"Oğlu atasından soruşur:

– Ata, virtual reallıq nədir?

– Bu, çox qəliz məsələdir, – deyə ata uşağı başından etmək istəyir.

– Olsun, başa sal, – oğul dirənir.

Ata:

– Get anandan, bacından və böyük qardaşından soruş ki, atanı 1 illiyə 1 milyon dollara satarlarmı?

Oğul gedir anasının yanına:

– Ana, atamı 1 milyona satarsanmı?

Ana:

– Satmazdım, amma 1 milyon böyük puldur. Satmaq olar.

Kiçik qardaş sonra bacısından soruşur və bacı heç tərəddüd etmir:

– 1 milyona dünyanı almaq olar. Sataram!

Sualı eşidən böyük qardaş bir az fikirləşir:

– Atamı satmaram, amma 1 milyonu alıb aradan çıxaram.

Kiçik qardaş cavabları ataya çatdırır.

Ata:

– Virtual reallıq odur ki, ailəmizin 3 milyon dolları var. Obyektiv reallıqda isə ailəmizdə 2 xain və 1 dələduz var".

Görürsünüzmü, virtual və real dəyərlər heç də üst-üstə düşmür.

***M.HACIXANLI***
***XQ***

# "Vətənim mənim"

**Azərbaycan Milli Xalça Muzeyində Əməkdar rəssam, qobelen ustası Adil Şıxəliyevin "Vətənim mənim" adlı fərdi sərgisinin açılışı olub. Sənətkarın yaradıcılığının 50 illiyi münasibətilə keçirilən tədbirdə 30-a qədər qobelen təqdim edilib.**



Burada rəssamın mühüm tarixi hadisələrə həsr olunan "Qarabağdan məktub", "Zəfər yolu", "Şuşa" (triptix), "Vətənim mənim", "Şuşada toy" əsərləri, "Heydər Əliyev" portreti, milli ornamentlərlə zənginləşdirilmiş "Köç" qobeleni sərgilənir.

Rəssamın yaradıcılığında Abşeron motivləri mühüm yer tutur. Sərgidə məhz bu mövzuda "Abşeron", "Nar bağı", "Qızıl balıq" və "Mamırlı daşlar" əsərləri nümayiş olunur.

Rəssam öz əsərlərində real və mifik heyvanat aləmini də təsvir edir. Ruhun əyilməzliyini və döyüşkənliyini simvolizə edən xoruz, eləcə də əfsanəvi simurq quşu bir çox qobelenin qəhrəmanıdır.

Güllər və ağaclar da rəssamın diqqətini cəlb edir və nəticədə "Süsən", "Baharın gəlişi", əsas elementi xarıbülbül olan "Şuşada toy" kimi əsərlər meydana çıxıb.

Sərgidə təkcə qobelenlər deyil, rəssamın ideyalarına həyat verən, onun özünün boyadığı iplər və onların rənglənməsində istifadə edilmiş bitkilər də nümayiş olunur. Bu əsərlər tamaşaçını A.Şıxəliyevin ecazkar yaradıcı dünyası ilə tanış edir.

***Fidan SALMANOVA***
***XQ***

**Hava**

## Fevralın ilk günü yağmursuz və dumanlı olacaq



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən fevralın 1-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.***

Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi əsəcək. Gecə 1-3°, gündüz 5-8° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 773 mm civə sütunundan 767 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında qısamüddətli yağıntılı olacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək.Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-9° isti, dağlarda gecə 8-13°, gündüz 0-5° şaxta olacaq. Gecə bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

***Q. QASIMOV***
***XQ***

***✓ 2022-ci il iyulun 30-da Dövlət Sərhəd Xidmətinin 2007 nömrəli hərbi hissəsi tərəfindən Əmiraslanov Rufin Elzabit oğlunun adına verilmiş xidmət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3418
SİFARİŞ 153
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00